KHAZAR REVIEW

№ 369 Yanvar 2018

XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org


Yeni Əsərlərə!
Beynəlxalq Qızıl Xaçın
Azərbaycan Dilində Nəşrlərə
Yeni Ilinizi
Mübarək!















İÇİNDƏKİLƏR

Dünya Azərbaycanlılarının Həmrəylik Gününə və yeni ilə həsr olunmuş şənlik 4
Universitet xəbərləri 6
Tələbələrin yaradıcılıq hesabatı 8
"Dünya" məktəbinin şagirdləri üçün "Yeni Çin iliniz mübarək" adlı tədbir keçirildi 10
Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafsın Ankaraya işgüzar səfəri 14
"Tədqiqat metodologiyası və xüsusi məqsədlər üçün ingilis dili" mövzusunda seminar 18
Potensial məktəb direktorları layihəsi davam edir 24
"Dünya" xəbərləri 26
***Aygün Asimqızı*. 85 yaşlı qəzetin 25 yaşlı baş redaktoru** 32
***İsaxan İsaxanlı*. Yenə də titrəyir əlimdə qələm...** 34
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri 38
***Ингилаб Ахмедов*. Выбор за вами, или почему умные люди принимают глупые решения** 40
NDU xəbərləri 54
***Eldar Şahgəldiyev*. Qızıl payız ilövhələri və Qarabağ** 60
***Xaqan Balayev*. Azərbaycan - Pakistan strateji tərəfdaşlığı** 64
***Təhləli Novruz*. Şeirlər** 69
***Rabindranat Taqor*. Ac daşlar (*hekayə*)** 70

1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Əjdər Ağayev
Afiə Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində mətnlərin redaktoru:
Eyvaz Mehdiyev

Kompüter tərtibatçısı:
Gözəl Həbibova

Foto:
Multimedia Mərkəzi

XƏZƏR UNİVERSİTETİ
1991

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial members:
Ajdar Aghayev
Afia Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Eyvaz Mehdiyev

Computer graphics:
Gozal Habibova

Photo:
Multimedia Centre



DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜNƏ VƏ YENİ İLƏ HƏSR OLUNMUŞ ŞƏNLİK

2017-ci il dekabrın 28-də Xəzər Universitetinin yeməkxanasında müəllim və tələbələr üçün 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni ilə həsr edilmiş bayram şənliyi keçirildi. İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı universitet kollektivini və tələbələri bayram münasibətilə təbrik etdi. Tələbələr rəqs etdilər, əyləndilər. Bayram şənliyində azərbaycanlı tələbələrlə yanaşı, xarici ölkələrin tələbələri də çox fəal idilər. Yeməkxananın müdiriyyəti tərəfindən üzərində Xəzər Universiteti kampuslarının böyük fotoları əks olunmuş 3 metrlik tort bayram süfrəsinə xüsusi yaraşıq verirdi. Tədbirdə universitetin prorektorları, dekanları, departament müdirləri və əməkdaşları və digər şəxslər iştirak edirdilər.

Universitetin Mühəndislik və tətbiqi elmlər fakültəsində, Multimedia mərkəzində və digər qurumlarda da yeni il şənlikləri keçirilib.







KHAZAR UNIVERSITY CELEBRATED SOLIDARITY DAY OF WORLD AZERBAIJANIS AND NEW YEAR

December 31 – Solidarity Day of World Azerbaijanis and New Year party was held in the canteen of Khazar University for the students and instructors on December 28, 2017. Isakhan Isakahnli, vice rector for Administration and Student Affairs, congratulated teaching staff and students. The students danced and had a very good time. The international students, along with Azerbaijani students, were also active at the party. Management of the canteen served the students with a huge cake of 3 meters with photos of university campus as well as tea and fruit. Vice-rectors, deans, heads of departments and university staff also participated at the party.

New Year Celebrations took place at the University's School of Engineering and Applied Sciences, Multimedia Center and other units.





PROFESSOR HAMLET İSAXANLI YENİDƏN DÖVLƏT STATİSTİKA KOMİTƏSİ YANINDA STATİSTİKA ŞURASININ ÜZVÜ TƏYİN OLUNMUŞDUR

PROFESSOR HAMLET ISAKHANLI WAS APPOINTED AS A MEMBER OF THE COUNCIL OF STATISTICS UNDER THE STATE STATISTICAL COMMITTEE

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 dekabr 2017-ci il tarixli 614 saylı qərarı ilə Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının yeni tərkibi təsdiq edilmişdir. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı yenidən şuranın üzvü təyin olunmuşdur.

Daha geniş məlumatı bu linklər vasitəsilə əldə etmək olar:

https://apa.az/xeber-az/sosial_xeberler/ statistika-surasinin-yeni-terkibi-tesdiqlenib-5073.htmlhttp://fins.az/budce/935301/statistika-surasinin-yeni-terkibi-tesdiqlenib.html http://teleqraf.com/news/toplum/161247.html http://www.marja.az/news/18852 və s.

A new Statistical Council under the State Statistical Committee has been approved by Decree 614 of the Cabinet of Ministers of the Republic of Azerbaijan dated December 29, 2017.

Prof. Hamlet Isahkanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, was reelected a member of the council.

For further information:

https://apa.az/xeber-az/sosial_xeberler/ statistika-surasinin-yeni-terkibi-tesdiqlenib-5073.htmlhttp://fins.az/budce/935301/statistika-surasinin-yeni-terkibi-tesdiqlenib.html http://teleqraf.com/news/toplum/161247.html http://www.marja.az/news/18852 and etc.

AESOP ERASMUS+ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ XƏZƏR UNİVERSİTETİNDƏ GÖRÜŞ KEÇİRİLDİ

MEETING WAS HELD WITHIN THE FRAMEWORK OF AESOP ERASMUS+ PROJECT

Yanvarın 12-də Xəzər Universitetində Erasmus+ "Ombudsman vəzifəsi yaratmaqla tələbələrin təmsili təyin olunması" (*"Advocacy Establishment for Students through Ombudsman Position" - AESOP*) layihəsi çərçivəsində görüş keçirildi. Görüşün əsas məqsədi AESOP layihəsi çərçivəsində yaradılacaq ombudsman ofisinin nizamnaməsini müzakirə etməkdən ibarət idi.

Görüşdə Xəzər Universitetinin rektoru Hassan Niknafs, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, AESOP layihəsinin rəhbəri Rima Məmmədova, İngilis dili və ədəbiyyatı departamentinin müdir müavini Eynur Mehdiyev və Qəbul və tələbə şöbəsinin müdiri Lamiyə Namazova iştirak etdilər.

On January 12, a meeting was held at Khazar University within the framework of "Advocacy Establishment for Students through Ombudsman Position" (AESOP) Erasmus + project. The purpose of the meeting was to discuss the Charter of the Ombudsman Office which will be established within the AESOP project.

Dr. Hassan Niknafs, Rector of Khazar University, Mahammad Nuriyev, Vice Rector for Academic Affairs, Isakhan Isakhanli, Vice Rector for Administration and Student Affairs, Rima Mammadova, AESOP project manager, Eynur Mehdiyev, Vice Chair of the English Language and Literature Department and Lamiya Namazova, Head of Admission and Information Office participated in the meeting.





UNİVERSİTETİN ƏMƏKDAŞLARI ŞƏKİ VƏ QAXDA OLDULAR

Yanvarın 12-si və 13-də Xəzər Universitetinin Potensial tələbələr üzrə işçi qrupunun koordinatoru Fuat Rəsulov, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli və Təhsil departamentinin koordinatoru Qoşqar Məhərrəmov Şəki və Qax şəhərlərinə səfərdə oldular.

Səfər zamanı həmin şəhərlərdə yerləşən müxtəlif orta məktəblər və hazırlıq kurslarının yuxarı sinif şagirdləri, onların valideynləri və müəllimləri ilə görüşlər keçirildi, Xəzər Universiteti və burada kadr hazırlığı aparılan ixtisaslar haqqında geniş məlumat verildi, videoçarx nümayiş etdirildi və iştirakçıların sualları cavablandırıldı.

Görüş zamanı Şəki və Qax şəhərlərində təhsil alan yuxarı sinif şagirdləri, onların valideynləri və müəllimləri ilə universitet rəhbərliyinin görüşlərinin təşkil edilməsi qərara alındı.

UNIVERSITY STAFF VISITED SHAKI AND GAKH

Fuat Rasulov, Coordinator of the working group on prospective students of Khazar University, Alovsat Amirbayli, director for Public Relations and Media, and Goshgar Maharramov, Coordinator of the Department of Education, has paid a visit to Shaki and Gakh. During the visit, the university representatives held meetings with students of secondary schools and preparation courses as well parents and teachers.

Moreover, the representatives gave full information about Khazar University, presented a promotion video of Khazar University and answered the questions by participants.

It was decided that university administration should meet students, parents and teachers in Shaki and Gakh.

KHAZAR STAFF PARTICIPATES IN THE NEXT MEETING ON THE NIZAMI PROJECT

On January 29-31, Khazar university Vice-rector on Research, Dr. İrada Khalilova and the head of the Division of Graduate Studies and Research, Dr. Eldar Shahgaldiyev participated in the next meeting on "Restructuring and Development of Doctoral Studies in Azerbaijan in line with the Requirements of the European Higher Education Area" within NİZAMİ project. The meeting participants discussed the establishment and development of doctoral degree standards in higher education institutions. The presentations on "Communication-The results of the work carried out by Azerbaijani partner organizations" by Dr. Irada Khalilova and "Professionalization-The results of the work carried out by Azerbaijani partner organizations" by Dr. Eldar Shahgaldiyev were welcomed by the participants. After presentstions our colleagues answered the paticipants' questions.



TƏLƏBƏLƏRİN YARADICILIQ HESABATI

Yanvarın 16-da Xəzər Universitetinin Mərmər salonunda Humanitar və sosial elmlər fakültəsinin dizayn ixtisası, Musiqi və incəsənət departamentinin xalçaçılıq, rəssamlıq, xor və vokal fənləri üzrə təhsil alan birinci kurs tələbələrinin birinci semestrin yekunlarına həsr olunmuş hesabatı keçirildi.


Tədbirdə universitetin rəhbərliyi və əməkdaşları, tələbələr və qonaqlar iştirak edirdilər.

Mərmər salonda dizayn ixtisası, xalçaçılıq və rəssamlıq fənləri üzrə təhsil alan tələbələrin əl işlərindən ibarət geniş sərgi nümayiş etdirilirdi. Dizayn müəllimi, xalçaçı rəssam Afaq Kərimova tələbələri iştirakçılara təqdim edir, tələbələr öz işləri haqqında məlumat verir, rəyləri dinləyir və fikir mübadiləsi aparırdılar.

Sonra universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu, dosent Zülfiyyə Sadıqovanın bədii rəhbərliyi ilə xor və vokal fənləri üzrə təhsil alan tələbələrin çıxışları başlandı. Universitetin müəllimi, Müslüm Maqomayev adına Dövlət Akademik Filarmoniyasının solisti Məhsəti Cabbarovanın bədii rəhbəri və dirijoru olduğu xor kollektivi və solistlər - Təhsil fakültəsinin tələbələri Nərmin İbrahimova, Şəmsiyyə Cəfərova, Afəlya Qocayeva, Tərənə Məmmədli və İqtisadiyyat və menecment fakültəsinin tələbəsi Nicat İsmayılov Azərbaycan xalq və bəstəkar mahnılarını, həmçinin, xarici ölkə bəstəkarlarının mahnılarını türk, rus və ingilis dillərində ifa etdilər.

Bəstəkar Vüqar Camalzadə, universitetin İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirova, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, bəzi tövsiyələrini bildirməklə ümumilikdə tələbələrin yaradıcılığını müsbət qiymətləndirdilər.







A REPORT OF CREATIVE STUDENTS

On January 16, a report meeting on results of the first semester of the first year students studying in Design, the School of Humanities and Social Sciences, as well as students studying in carpet-weaving, painting, chorus and vocal of the Department of Music and Art, was held in Marmar hall of Khazar University.

University administration, staff members, student and guests participated in the ceremony.

A huge exhibition of handicrafts of students studying in design, carpet-weaving and painting, was demonstrated in Marmar hall. Afag Karimova, a design teacher and carpet painterç introduced students to participants and students, in their turn, presented their handicrafts, got feedback and exchanged views with participants.

Then students studying in chorus and vocal started to perform their program under artistic guide by honored teacher, pianist, Associate Professor Zulfiyya Sadigova, Director of the Department of Music and Art.

Soloists and choir consisting of students of the School of Education, Narmin Ibrahimova, Shamsiyya Jafarova, Ofelya Gojayeva, Tarana Mammadli, and Nijat Ismayilov, a student of the School of Economy and Management, sang Azerbaijan national and composer songs as well as foreign songs in the Turkish, Russian and English languages under artistic guide by Mashati Jabbarova, the soloist of the State Academic Philharmonic named after Muslim Magomayev.

Coposer Vugar Jamalzadeh, Firangiz Nasirova, head teacher of the Department of the English Language and Literature, and Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered a speech and appreciated handicrafts and performance of the students.







"DÜNYA" MƏKTƏBİNİN ŞAGİRDLƏRİ ÜÇÜN "YENİ ÇİN İLİNİZ MÜBARƏK" ADLI TƏDBİR KEÇİRİLDİ





Yanvarın 17-də Xəzər Universitetinin Kitabxana-İnformasiya Mərkəzinin (KİM) təşkilatçılığı ilə "Dünya" məktəbinin şagirdləri üçün "Çin guşəsi" layihəsi çərçivəsində "Yeni Çin iliniz mübarək" adlı tədbir keçirildi.

Tədbiri giriş sözü ilə Xəzər Universitetinin KİM-in direktor müavini Aytac Misgərli açaraq, "Çin guşəsi" layihəsi haqqında iştirakçıları məlumatlandırdı.

"Dünya" məktəbinin Tədris işləri üzrə direktor müavini (rus bölməsi üzrə) Leyla Cəbrayılova BDU-nun nəzdindəki Konfutsi İnstitutunun dekanı Luo Xiaozhini və bütün müəllim heyətini salamladı, onlara əməkdaşlıq üçün təşəkkürünü bildirdi.

Sonra KİM-in əməkdaşı Samirə Orucova şagirdlərə tədbirdə göstəriləcək sənət nümunələri haqqında məlumat verdi və onlara praktik işlərdə aktiv olmağı tövsiyə etdi.

Bütün iştirakçılar tədbirin keçirilməsindən məmnun oldular və təşkilatçılara xüsusi minnətdarlıq bildirildilər.

Sonda tədbirdə iştirak edən şagirdlər xüsusi hazırlanmış hədiyyələrlə mükafatlandırıldılar.

Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC başda olmaqla (*https://azertag.az/xeber/BDU_nezdinde_Konfutsi_Institutu_mektebliilerle_birlikde_CHin_Yeni_iline_hesr_edilen_tedbir_kechirib-1129755*) bir sıra media orqanları tədbir haqqında xəbər yaymışlar.





"HAPPY NEW CHINESE YEAR" CEREMONY WAS HELD FOR THE PUPILS OF "DUNYA" SCHOOL

Library-Information Centre of Khazar University organized a "Happy New Chinese Year" party for the pupils of "Dunya" school, January 17, 2018, within "Chinese corner" project.

Aytaj Misgarli, Vice-director of Library-Information Centre, opened the ceremony and gave full information about "Chinese corner" project.

Leyla Jabrayilova, Vice-director on Educational Issues (Russian division) of "Dunya" school, greeted Luo Xiaozh, Dean of Confucius Institute affiliated Baku State University, and teaching staff and expressed her gratitude for their collaboration.

Then Samira Orujova, a staff member of Library-Information Centre of Khazar University, introduced artifacts to students and recommended them to be active in practical activities. All the participants were satisfied with the event and thanked the organizers.

At the end of the ceremony, all the students were awarded with special gifts.

A number of media organizations, preceded by the Azerbaijan State Information Agency - AZERTAC (*https://azertag.az/xeber/BDU_nezdinde_Konfutsi_Institutu_mektebilerle_birlikde_CHin_Yin_iline_edilen_ted_kecirib1129755*) have spread news about the event.




HAPPY CHINESE
NEW YEAR
欢乐中国年
January 17, 2018
At 14:00 - 16:15










之美
中国









BƏSTƏKARLAR İTTİFAQINDA "NASIMI PASSION" ƏSƏRİNİN LENT YAZISI NÜMAYİŞ OLUNUB



Yanvarın 17-də Azərbaycan Bəstəkarlar İttifaqında ötən il aprelin 7-də Hollandiyanın "Amsterdam Royal Concertgebouw" konsert sarayında ölkənin kral simfonik orkestrinin, xorunun və solistlərinin müşayiəti ilə görkəmli bəstəkar Fərəngiz Əlizadənin təqdim olunmuş "Nəsimi Passion" ("Nəsimi ehtirası") əsərinin lent yazısı nümayiş olunub.

Tədbirdə Milli Məclisin deputatları, mədəniyyət və incəsənət xadimləri, o cümlədən xarici səfirliklərin nümayəndələri iştirak ediblər.

F.Əlizadə çıxış edərək, seçdiyi mövzudan və Azərbaycanın böyük mütəfəkkiri İmadəddin Nəsimi yaradıcılığından danışıb. Dahi mütəfəkkirin Yaxın Şərq ədəbiyyatına gətirdiyi mütərəqqi ideyalar və fəlsəfi düşüncə tərzindən söz açıb.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu, dosent Zülfiyyə Sadıqova da iştirak etmişlər. H. İsaxanlı tədbirdə çıxış etmişdir.

VIDEO RECORDING OF "NASIMI PASSION" WAS DEMONSTRATED AT UNION OF COMPOSERS

Video recording of "Nasimi Passion", work of art by prominent composer Firangiz Alizade, was demonstrated in Azerbaijan Union of Composers on January 17. "Nasimi Passion" was performed by royal symphonic orchestra, choir and soloists of the The Netherlands in "Amsterdam Royal Concertgebouw" concert hall on April, 2017.

Members of Parliament, cultural and art figures, and ambassadors participated in the ceremony.

F.Alizade delivered a speech and talked about Imadaddin Nazimi, a great thinker of Azerbaijan, and the work of art. Moreover, F.Alizade talked about progressive ideas and philosophical views of the thinker.

Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, and honored teacher and pianist Zulfiyya Sadigova, Head of the Department of Music and Art of the university, participated at the ceremony. Hamlet Isakhanli delivered a speech at the ceremony.

PROFESSOR HAMLET İSAXANLI AZƏRBAYCANDA TƏHSİLLƏ BAĞLI FİKİRLƏRİNİ BÖLÜŞDÜ

Yanvarın 23-də "Kaspi" qəzetinin internet səhifəsində "Bilik axtarışında" adlı məqalə yayımlanmışdır. Məqalədə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının Azərbaycanda təhsillə bağlı fikirlərinə geniş yer verilmişdir.

Məqaləni bu link vasitəsilə oxumaq olar:
http://kaspiy.az/news.php?id=75176

PROFESSOR HAMLET ISAKHANLI EXPRESSED HIS MIND ON EDUCATION IN AZERBAIJAN

An article "Searching for knowledge" was posted on the website of "Kaspi" newspaper on January 23. The article widely covers views by Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees.

A link for full article:
http://kaspiy.az/news.php?id=75176

XƏZƏR UNİVERSİTETİNİN REKTORU DR. HASSAN NİKNAFSIN ANKARAYA İŞGÜZAR SƏFƏRİ

BUSINESS TRIP OF KHAZAR UNIVERSITY RECTOR DR. HASSAN NIKNAFS TO ANKARA





ANKARA UNİVERSİTETİNDƏ

AT ANKARA UNIVERSITY

Yanvarın 18-də Xəzər Universitetinin rektoru Hassan Niknafs, Neft mühəndisləri Cəmiyyətinin (SPE) Azərbaycan bölməsinin direktoru Əli Nağıyev, tədqiqatçı, Xəzər Universitetinin Neft mühəndisliyi ixtisası üzrə doktorantı Şəhriyar Alxaslı Ankara Universitetində olub, universitetin rektoru Prof. Dr. Erkan İbiş, Mühəndislik fakültəsinin dekanı Prof. Dr. Aziz Tekin, Beynəlxalq əlaqələr üzrə koordinator Prof. Dr. Sibel Suzen, Beynəlxalq münasibətlər üzrə koordinator Prof. Dr. İlhan Karasubaşı və universitetin bir neçə əsas şöbəsinin rəhbərləri ilə görüşdülər.

Tədqiqat, tələbə mübadiləsi və ikitərəfli proqramın bütün sahələrdə, xüsusilə kompüter elmləri və mühəndisliyi sahələrində, eləcə də, geoloji elmlər müzakirələrin əsas mövzusu oldu. Rektor Prof. Dr. Erkan İbiş Xəzər Universiteti ilə hər hansı bir əməkdaşlığı məmnuniyyətlə qarşıladı və müxtəlif departamentlərdə ayrı-ayrı görüşlər təşkil etdi. İki universitet arasında Erasmus+ və Mövlanə proqramı çərçivəsində tələbə mübadiləsilə bağlı tədbirlərin artırılması da müzakirə olundu.

Dr. Hassan Niknafs, the Rector of Khazar University along with Ali Naghiyev, the Director of Azerbaijan SPE, and Shahriyar Alkhasli, researcher and PhD-candidate of Khazar University majoring in Petroleum Engineering visited Ankara University on January 18.

In the visit to Ankara University, the delegation from Khazar met with the rector of the Ankara University, Prof. Dr. Erken Ibis, the dean of the engineering college, Prof. Dr. Aziz Tekin, Prof. Dr. Sibel Suzen, the coordinator of the International Affairs, Prof. Dr. Ilhan Karasubashi, the coordinator for International Relations, and several of the key departments heads of the Ankara University. Research, student exchange and dual-degree program in all field, especially in Computer Science and Engineering plus Geological Science were the main topics of the discussions. The honorable rector, Prof. Dr. Erkan Ibis welcomed any possible collaboration with Khazar University and ordered separate meetings to be held with different departments. Increasing the activities related to student exchange under Erasmus+ and Mevlana program in between the two universities were discussed in length as well.



ORTA DOĞU TEXNİKİ UNİVERSİTETİNDƏ

AT MIDDLE EAST TECHNICAL UNIVERSITY

Yanvarın 18-də Xəzər Universitetinin rektoru Hassan Niknafs, Neft mühəndisləri Cəmiyyətinin (SPE) Azərbaycan bölməsinin direktoru Əli Nağıyev, tədqiqatçı, Xəzər Universitetinin Neft mühəndisliyi ixtisası üzrə doktorantı Şəhriyar Alxaslı Orta Doğu Texniki Universitetində (ODTU) oldular. ODTU-nun rektoru Prof. Dr. Mustafa Verşan Kök və prorektor Prof. Dr. Meliha Altınışık ilə görüş keçirildi. Əsas müzakirələr magistratura üzrə ikili dərəcə proqramı və neft mühəndisliyi sahəsində birgə tədqiqatlar barədə oldu.

Xəzər Universitetinin eiLink tədqiqat mərkəzi Neft mühəndisliyi departamentinin müdiri Prof. Dr. Serhat Akın və Geofizika departamentinin bir qrup professoru ilə birgə tədqiqat imkanları ilə bağlı ayrı-ayrılıqda bir neçə görüş keçirdi.

Dr. Hassan Niknafs, the Rector of Khazar University along with Ali Naghiyev, the Director of Azerbaijan SPE, and Shahriyar Alkhasli, researcher and PhD candidate of Khazar University majoring in Petroleum Engineering visited Middle East Technical University (METU) on January 19, 2018.

In this visit an official meeting was held with the rector of METU, Prof. Dr. Mustafa Verşan Kok and the vice-rector, Prof. Dr. Meliha Altunisik. The key discussion was concentrated on MS dual-degree program and joint research in Petroleum Engineering.

Khazar University's eiLink research center held several separate meetings with the head of the Petroleum Engineering department (Prof. Dr. Serhat Akin) and with a group of professors from Geophysics department for possibilities of a pragmatic joint research.



QAZİ UNİVERSİTETİNDƏ

AT GAZI UNIVERSITY

Yanvarın 19-da Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs Qazi Universitetində olub və universitetin rektoru Prof. İbrahim Uslan və prorektor Prof. Yaşar Aydemir ilə görüşüb.

Səfərin əsas məqsədi Mövlanə və Erasmus+ proqramı çərçivəsində tələbə mübadiləsi aparmaq imkanlarını araşdırmaq olub. Görüşdə, həmçinin, universitetlər arasında Mülki mühəndislik sahəsi üzrə (bakalavr dərəcəsi) ikili dərəcə proqramını həyata keçirmək imkanları da müzakirə edilib.

The Rector of Khazar University, Dr. Hassan Niknafs, visited Gazi University in Ankara, Turkey and met with the Rector Gazi University, Prof. Dr. Ibrahim Uslan and the vice-Rector, Prof. Dr. Yashar Aydemir.

The main goal of this visit was to establish student exchange possibilities under the Mevlana and the Erasmus+ programs. Also, establishing a dual-degree program (BS level) in Civil Engineering in between the two universities was discussed.





HACETTEPE UNİVERSİTETİNDƏ

Yanvarın 19-da Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs Hacettepe Universitetinin rektoru Prof. Halik Özen və prorektor Prof. Burcin Sener ilə görüşüb.

Görüş zamanı universitetlər arasında müxtəlif sahələrdə qarşılıqlı əməkdaşlıq imkanları müzakirə edilib. Müzakirələrin əsas mövzusu isə Biologiya elmləri sahəsində birgə tədqiqatların (doktorantura səviyyəsində) aparılması olub. Bu istiqamətdə əməkdaşlıq imkanlarını ətraflı surətdə müzakirə etmək məqsədilə Xəzər Universitetinin Biologiya Elmləri üzrə professor və doktorant tələbələrdən ibarət heyəti fevral ayında Hacettepe Universitetinə səfər edəcək.

AT HACETTEPE UNIVERSITY

On Jan 19, the Rector of Khazar University, Dr. Hassan Niknafs met with the Rector of Hacettepe University, Prof. Dr. Haluk Ozen and the vice-Rector, Prof. Dr. Burcin Sener. Several mutual collaborations in between the two universities were discussed, but the main topic was concentrated on the possibility of initiating a joint research work in the fields of Biological Sciences (PhD level). A delegation from Khazar University who are professors or studying PhD in the field of Biological Sciences will be visiting Hacettepe University in the February to discuss the details of such collaboration.






"TƏDQİQAT METODOLOGİYASI VƏ XÜSUSİ MƏQSƏDLƏR ÜÇÜN İNGİLİS DİLİ" MÖVZUSUNDA SEMİNAR

Yanvarın 25-də İngilis dili və ədəbiyyatı departamenti Marağa Azad Universitetinin (İran İslam Respublikası) gənc alimi Dr. Kouhi tərəfindən aparılmış "Tədqiqat metodologiyası və xüsusi məqsədlər üçün ingilis (XMİ) dili" mövzusunda həsr olunmuş iki seminar keçirdi. Seminarlarda məlumatların toplanması və analizi, həmçinin XMİ tədrisində müasir yanaşmalar ətraflı müzakirə edildi. Dr. Kouhi tədqiqatlarla məşğul olan müəllimlərə öz tövsiyələrini verdi. Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs çıxış edərək, tədbirin əhəmiyyətindən danışdı.

Seminarlarda İngilis dili və ədəbiyyatı fakültəsinin müəllimləri, həmçinin magistratura tələbələri (1-ci və 2-ci kurs, Tərcümə və Dilçilik ixtisasları) iştirak etdilər. Seminarlara müxtəlif universitetlərdən olan tədqiqatçılar da qatılmışdılar.

İki seminarda qeydiyyatdan keçmiş iştirakçılara sertifikat təqdim edildi.










SEMINARS ON RESEARCH METHODOLOGY AND ENGLISH FOR SPECIFIC PURPOSES HELD

English Language and Literature department conducted two seminars on Research Methodology and English for Specific Purposes led by Dr. Kouhi, the young scholar on ESP research methodology from Maragheh Azad University, East Azerbaijan, on Thursday January 25. During the seminars, Data collection and Data Analysis and Modern Approaches to the teaching of ESP, were discussed in details. Dr. Hassan Niknafs, Rector of Khazar University, delivering speech highlighted the significance of the event.

All the instructors of English Language and Literature Department together with MA students (1st and 2nd years of Translation and Linguistics) took part in the seminars. The seminars were attended by the interested researchers from different universities as well. Certificates of participation were issued for the registered applicants of the two seminars.

Furthermore, Dr. Kouhi supervised some instructors who are currently involved in research activities.





XƏZƏR UNİVERSİTETİNDƏ BİRİNCİ SEMESTRİN FİNAL İMTAHANLARI BAŞA ÇATDI

Fotosessiya











FINAL EXAMS OF THE FIRST SEMESTER AT KHAZAR UNIVERSITY HAVE BEEN COMPLETED

Photo session













XƏZƏR UNİVERSİTETİNDƏ "DİSLEKSİYADA MƏŞHUR - UNİKAL RONALD DAVİS METODU" ADLI SEMİNAR KEÇİRİLDİ



Yanvarın 20-21-də Xəzər Universitetində "DARON" Disleksiyanın Korreksiyası üzrə Beynəlxalq Mərkəzin direktoru, israilli mütəxəssis Lora Zakon tərəfindən "Disleksiyada məşhur-unikal Ronald Davis metodu" adlı seminar keçirildi.

Seminarda müxtəlif müvafiq qurumların mütəxəssisləri, həmçinin, Xəzər Universiteti Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova və Əlilliyi olan Tələbələr üçün Mərkəzin direktoru Rima Məmmədova iştirak edirdilər.

Tədbirin birinci günündə öyrənmə çətinliyi kimi qiymətləndirilən disleksiya, diskalkuliya, disqrafiya, dispraksi kimi pozuntular haqqında ətraflı məlumat verildi. İkinci günündə belə çətinliyi olan insanlarla işləyərkən nələr edildiyi nümayiş olundu və dünyada çox istifadə edilən Ronald Davis metodu ilə əlaqədar ustad dərsi keçirildi.

Seminarın sonunda Xəzər Universitetinin əməkdaşlarına da "DARON" Disleksiyanın Korreksiyası üzrə Beynəlxalq Mərkəzin beynəlxalq dərəcəli sertifikatı təqdim olundu.

A SEMINAR "FAMOUS UNIQUE RONALD DAVIS METHOD FOR DYSLEXIA" AT KHAZAR UNIVERSITY

A seminar "Famous Unique Ronald Davis Method for Dyslexia" was held at Khazar University on January 20-21. An Israeli expert Lora Zakon, Director of "DARON" International Dyslexia Correction Center, run the seminar. Malak Karimova, Director of Centre for Psychological Service Centre of Khazar University, and Rima Mammadova, Director of Centre for Students with Disabilities, also participated at the seminar. Participants were given detailed information on dyslexia, dyscalculia, dysgraphia, dyspraxia and other disorders. On the second day of the seminar, participants gained practical skills on how to work with people with disorders. Moreover, there was a master class on Ronald Davis Method.

At the end of the seminar participants got an international certificate of "DARON" International Dyslexia Correction Center.



KİMYA DEPARTAMENTİNİN MÜƏLLİMİ "CHARTERED CHEMIST STATUS" İLƏ TƏLTİF EDİLDİ

Xəzər Universiteti Kimya departamentinin müəllimi Dr. Cestin Mandumpal Birləşmiş Krallığın Kral Kimya Cəmiyyətinin "Chartered Chemist Status"-"İmtiyazlı kimyaçı statusu" ilə təltif edilmişdir. Dr. Mandumpal on il təşkilatın (Kimya elmlərinin ictimai təşviqatı platforması) üzvü olmuşdur.

"Chartered Chemist Status" kimya elmləri sahəsində bilik və peşəkarlığına görə praktik kimya ilə məşğul olan alimlərə verilir.

"Chartered Chemist Status" kimya elmlərində peşəkarlığı, mövcud biliklərin artırılması istiqamətində göstərilən qətiyyəti, alimlərin fəaliyyət göstərdiyi təşkilatın uğurlarına verdiyi töhfələri, eləcə də peşəkar dürüstlüyü və elmdə mükəmməlliyin artırılması cəhdlərini təqdir edən təltifdir.

Dr. Mandumpal hazırda Xəzər Universitetində Materialların dizaynı və optimallaşdırılması üçün hesablama laboratoriyasına rəhbərlik edir.



CHARTERED CHEMIST STATUS TO TEACHER OF CHEMISTRY DEPARTMENT

Dr. Jestin Mandumpal, a lecturer at the Department of Chemistry, has been awarded Chartered Chemist Status by the Royal Society of Chemistry, UK. Dr. Mandumpal has been a member (MRSC) of the organisation (a platform for promoting chemical sciences in public and practitioners of science for over a century) for ten years.

Chartered Chemist Status is awarded to practising chemists for recognition of their knowledge and professionalism in chemical sciences.

Chartered Chemist Status attests demonstrated professional skills in chemical sciences, a strong commitment for improving those skills, critical contribution to the success of the institution the candidate currently employed, professional integrity, and advancement of excellence in science.

Dr Mandumpal currently heads the Computational Laboratory for Design and Optimisation of Materials (CLDOM) at Khazar University.

XƏZƏR UNİVERSİTETİ "XƏBƏR - NEWS" QRUPUNUN UNİVERSİTETİN VEBSAYTLARINDA YERLƏŞDİRİLMİŞ XƏBƏRLƏRİN SAYI HAQQINDA MÜQAYİSƏLİ MƏLUMATI

COMPARATIVE INFORMATION BY KHAZAR UNIVERSITY'S 'KHEBER – NEWS' GROUP ON THE UNIVERSITY WEBSITE NEWS

Xəzər Universitetinin vebsaytı: 2008 - 2017
(*www.khazar.org*)

2008 – 97; 2009 – 149; 2010 – 274; 2011 – 357; 2012 – 476; 2013 – 535; 2014 – 610; 2015 – 700; 2016 – 547; 2017 – 702.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının vebsaytı: 2009 - 2017
(*www.hisaxanli.org*)

2009 – 81; 2010 – 125; 2011 – 162; 2012 – 144; 2013 – 156; 2014 – 159; 2015 – 146; 2016 – 158; 2017 – 126.

Khazar University website: 2008 – 2017
(www.khazar.org)

2008 – 97; 2009 – 149; 2010 – 274; 2011 – 357; 2012 – 476; 2013 – 535; 2014 – 610; 2015 – 700; 2016 – 547; 2017 – 702.

Website of Hamlet Isakhanli, the founder of Khazar University and chairman of its Board of Directors and Trustees: 2009 – 2017
(www.hisaxanli.org)

2009 – 81; 2010 – 125; 2011 – 162; 2012 – 144; 2013 – 156; 2014 – 159; 2015 – 146; 2016 – 158; 2017 – 126.



POTENSİAL MƏKTƏB DİREKTORLARI LAYİHƏSİ DAVAM EDİR





Xəzər Universitetinin layihəsi olan Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlimin növbəti 8-ci kursu davam edir

Təlimin əsas məqsədi ölkədəki yeni təhsil strategiyasına və təhsil islahatına uyğun olaraq rəhbər işdə fəaliyyət göstərmək istəyən təhsil işçilərinin bilik və bacarıqlarını artırmaq, onları dünyadakı səmərəli idarəetmə təcrübəsi ilə tanış etməkdir.

Təlimlər zamanı layihə çərçivəsində "Qonaq Müşahirəçilər Seminarları" fəaliyyət göstərir.

Kursun məşğələlərində iştirakçıların təqdimatları olur, müzakirələr aparılır, söhbətlər keçirilir. Onlar kursun çox əhəmiyyətli olduğunu, əldə etdikləri nəzəri və təcrübi bilikləri öz işlərində tətbiq edəcəklərini bildirirlər.

Keçən ilin dekabrında başlanmış kurs bu ilin mart ayında başa çatacaq.

Qeyd edək ki, indiyə qədər layihə çərçivəsində 445 nəfər təlimdən keçmiş, onlardan 50 nəfərdən çoxu (bu rəqəm müntəzəm artir) direktor və ya direktor müavini vəzifəsinə təyinat almışdır.



"POTENTIAL SCHOOL DIRECTORS" PROJECT IS ONGOING

The 8th course of school management training, a project of Khazar University, organized for Potential school principals is ongoing.

The purpose of the training is, in accordance with new education strategy and education reforms, to increase knowledge and skills of potential principals and make them familiar with effective international management experience.

"Guest Lecturers' Seminars" are held within the project.

During the course, the participants make presentations, hold discussions, and exchange views. The participants mention that the course is of importance and they will apply gained theoretical and practical skills to their future activity.

The course started in December last year and is expected to be over in March, 2018.

445 potential principals were involved in this project and 50 of them (this number is constantly increasing) have been appointed as school principals or vice-principals.









ŞƏHİDLƏRİN XATİRƏSİ YAD OLUNDU

"Dünya" məktəbində şagird və müəllim kollektivinin iştirakı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş tədbir keçirildi. Vətən, torpaq uğrunda qurban gedənlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Şagirdlərin hazırladıqları stendlər, çəkdikləri rəsmlər nümayiş etdirildi. Gənc yazar Günel Anarqızının "Şuşa" hekayəsinin motivləri əsasında hazırlanmış tamaşa, oxunan şeirlər, ifa edilən mahnılar olduqca təsirli idi.

Məktəbin şagird və müəllim kollektivi Şəhidlər Xiyabanını da ziyarət etdi.



MARTYRS COMMEMORATED

An event was held with the participation of alumni and teachers to commemorate 20 January martyrs at "Dunya" School. The martyrs who sacrificed their lives for the sake of homeland were remembered by one-minute silence.

The stands and drawings of alumni were exhibited. The theatre performance prepared on the basis of motives of "Shusha" story by young writer Gunel Anarqizi, recited poems, and songs were touching.

Alumni and teacher collective of school visited the Alley of Martyrs as well.



BİLKENT OKULUNUN NÜMAYƏNDƏLƏRİ "DÜNYA" MƏKTƏBİNDƏ

İhsan Doğramacı vəqfinin (Türkiyə) Özəl Bilkənt İlk və Orta Okulunun Orta okul müdiri Oya Kerman və PVIP koordinatoru Gülşen Çiçek Keskinsoy "Dünya" məktəbi rəhbərliyinin dəvəti ilə Bakıya gəlmiş, məktəbin qonağı olmuşlar. Onlar məktəbin rəhbərliyi tərəfindən hazırlanan iki günlük proqram çərçivəsində məktəbin direktoru Məsufə Mədətli və "Dünya" məktəbinin həmtəsisçisi, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Həmlet İsaxanlı ilə görüşmüş, "Dünya" məktəbində təlim-tədris prosesi haqqında ətraflı məlumat almışlar.

IB məktəbləri olaraq hər iki təhsil ocağının rəhbərləri müəllimlərin IB proqramı çərçivəsində həyata keçirdikləri və gələcəkdə planlaşdırılan işləri müzakirə etmiş, öz təcrübələrini bölüşmüşlər. Hər iki təhsil ocağının əməkdaşlığı və təcrübə mübadiləsi məsələləri müzakirə olunmuşdur.

Qonaqlar "Dünya" məktəbinin əməkdaşlarını 2018-ci il mayın 12-də Bilkent Özəl İlk və Orta Okulunda keçiriləcək konfransa dəvət etmiş, Türkiyədə keçiriləcək IB günlərində görüşmək, bərabər əməkdaşlıq etmək haqqında təkliflər irəli sürmüşlər. Sonda hər iki məktəbin nümayəndələri Bakıda və Ankarada azərbaycanlı və türkiyəli müəllimlər üçün müştərək konfrans keçirmək haqqında müzakirələr aparmışlar.

"DÜNYA" JURNALININ YENİ NÖMRƏSİ ÇAPDAN ÇIXIB

Xəzər Universiteti "Dünya" məktəbinin aylıq nəşri olan "Dünya" jurnalının 2017 - ci il noyabr nömrəsi (21-ci nömrə) Xəzər Universitetinin mətbəəsində çapdan çıxmışdır.



NOVEMBER ISSUE OF "DUNYA" JOURNAL PUBLISHED

The November issue (number 21, 2017) of "Dunya" journal, a monthly journal of Dunya School, Khazar University, was published by the publishing house of Khazar University.



NİZAMİ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ FRANSALI NÜMAYƏNDƏLƏRLƏ GÖRÜŞ

Yanvarın 31-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı "Azərbaycanda doktorantura təhsilinin Avropa ali təhsil tələblərinə uyğun yenidən qurulması və inkişafı –NİZAMİ" layihəsi çərçivəsində Fransanın Montpellier Universitetinin nümayəndələri - layihənin koordinatoru Dr. Véronique Barragan-Montero və layihənin meneceri Dr. Aude Berthierlə görüşmüşdür. Görüşdə Xəzər Universitetinin Elmi işlər üzrə prorektoru dos. İradə Xəlilova və Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Dr. Eldar Şahgəldiyev iştirak etmişlər.

İştirakçılar Azərbaycanda Nizami layihəsi ilə bağlı həyata keçirilən tədbirlər, eləcə də Xəzər Universiteti və Montpellier Universiteti arasında gələcək əməkdaşlığın maraq doğuran cəhətlərini müzakirə etmişlər.

Qonaqlar Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs ilə də görüşmüşlər.

MEETING WITH FRENCH REPRESENTATIVES WITHIN NIZAMI PROJECT

On January 31, 2018, Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, met Dr. Véronique Barragan-Montero and Dr. Aude Berthier (project manager), representatives of the University of Montpellier in France, within NIZAMI project ("Restructuring and Development of Doctoral Studies in Azerbaijan in line with Requirements of Higher Education Area."). Associate Professor Irada Khalilova, Vice-rector on Research of Khazar University, and Dr. Eldar Shahgaldiyev, Head of Division of PhD and Research, also participated in the meeting.

The participants discussed activities carried out within Nizami project in Azerbaijan as well as future cooperation between Khazar University and Montpellier University.

Representatives of the University of Montpellier also met Dr. Hassan Niknafs, Rector of Khazar University.





"QAN QRUPU VƏ SƏNİN XARAKTERİN" MÖVZUSUNDA SEMİNAR

2017-ci il dekabrın 28-də Xəzər Universiteti Karyera mərkəzinin təşəbbüsü ilə "Qan qrupu və sənin xarakterin" mövzusunda seminar keçirildi. Məruzəçi M.Ə.Sabir Fondunun prezidenti bio.ü.f.d., dosent Sevda Tahirli idi. O, qan qrupunun karyera seçimi, ailə həyatı, qidalanma və digər sahələrdə insanın xarakterinə göstərdiyi təsirdən danışdı.

Seminarın sonunda tələbələrin sualları cavablandırıldı.

Sevda Tahirli müəllifi olduğu "Qanımızın səsi" kitabının iki nüsxəsini Xəzər Universitetinin kitabxanasına hədiyyə etdi.

SEMINAR ON "BLOOD TYPE AND YOUR PERSONALITY"

A seminar on "Blood type and your personality" was held on the initiative of Career Centre of Khazar University, on December 28, 2017. The presenter was Associate Professor Sevda Tahirli, PhD in Biology, President of M. A. Sabir Foundation.

The presenter talked about the impact of blood group on a human character, its influence on career choice and family life as well as its impact on food preference and other issues.

After the presentation, Sevda Tahirli answered questions by students.

Sevda Tahirli presented 2 copies of her book "Voice of our blood" to the library of Khazar University.

"AZƏRBAYCAN MÜƏLLİMİ" QƏZETİ XƏZƏR UNİVERSİTETİ ƏMƏKDAŞINDAN YAZDI

"AZERBAIJAN MUALLIMI" NEWPAPER WROTE ABOUT A KHAZAR UNIVERSITY LECTURER

Yanvarın 19-da "Azərbaycan müəllimi" qəzetinin "Dövlət Proqramı təqaüdçüləri harada işləyir?" adlı layihəsi çərçivəsində məqalə dərc edilmişdir. Məqalədə Dövlət Proqramı çərçivəsində İtaliyanın La Sapienza Universitetində təhsil almış və hazırda Xəzər Universiteti Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müəllimi və koordinatoru kimi fəaliyyət göstərən Elmar Mustafayevin barəsində də məlumat verilmişdir.

Qeyd edək ki, məqalə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" xətti ilə təhsil alaraq, öz uğurlu karyera tarixçələrini yazan məzunlara həsr olunub.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

http://muallim.edu.az/content/?category=arxiv&issue=02-2018&content_id=03

"Azerbaijan Muallimi" published an article, January 19, 2018, within the project "Where do State Program awardees work?". The article included information about Elmar Mustafayev who graduated from La Sapienza University, Italy, within State Program. Currently, Elmar Mustafayev is a lecturer and coordinator of the Department of Political Sciences and International Relations of Khazar University.

The series of articles are dedicated to those who studied abroad within "State Program on education of Azerbaijani youth abroad for the years of 2007-2015" and have successful career in science, education, economy, industry, bank, ICT and other sectors.

A link for full article:

http://muallim.edu.az/content/?category=arxiv&issue=02-2018&content_id=03



KARYERA MƏRKƏZİ ƏMƏKDAŞININ BAMF - IN PREZİDENTİ İLƏ GÖRÜŞÜ

CAREER CENTRE REPRESENTATIVE MET PRESIDENT OF INTERNATIONAL EURASIA PRESS FUND

Yanvarın 10-da Xəzər Universitetinin Karyera Mərkəzinin meneceri Səbinə Allahverənova ilə Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti Ümid Mirzəyev görüşdülər.

Görüş zamanı, psixologiya ixtisası istisna olmaqla, Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsi tələbələrinin təcrübə proqramı keçməsi barədə əməkdaşlıq müqaviləsi imzalandı.

Beynəlxalq Avrasiya Mətbuat Fondu müxtəlif ölkələrdən olan bir qrup jurnalist tərəfindən yaradılmış müstəqil beynəlxalq qeyri-hökumət təşkilatıdır və 1992-ci ildə Azərbaycanda dövlət qeydiyyatına alınmışdır. BAMF BMT qurumları, ABŞ-ın Dövlət Departamenti, Avropa Komissiyası, Dünya Bankı, Beynəlxalq Mətbuat İnstitutu, Beynəlxalq Jurnalistlər Federasiyası, bir sıra xarici ölkələrin Azərbaycan Respublikasındakı səfirlikləri, nazirliklər, agentliklər, eləcə də, regiondakı yerli və beynəlxalq QHT-lərlə əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir.

Sabina Allahverdiyeva, a manager of Career Centre of Khazar University, met Umid Mirzayev, President of International Eurasia Press Fund (IEPF) on January 10.

During the meeting, a cooperation agreement was signed on internship program for the students of School of Humanities and Social Sciences of Khazar University, except for the students specializing in psychology.

International Eurasia Press Fund is an independent international non-governmental organization established by journalists from various countries which was officially registered in Azerbaijan in 1992.

IEPF functions within collaboration with UN Institutions, US State Department, the European Commission, World Bank, International Press Institute, the International Federation of Journalists, embassies of foreign countries in the Republic of Azerbaijan, ministries, and agencies as well as international and national NGOs.

"XƏZƏR"İN ƏMƏKDAŞLARI NİZAMİ LAYİHƏSİ İLƏ BAĞLI NÖVBƏTİ TƏDBİRDƏ

Xəzər Universitetinin Elmi işlər üzrə prorektoru, dosent İradə Xəlilova və universitetin Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Dr. Eldar Şahgəldiyev "Azərbaycanda doktorantura təhsilinin Avropa ali təhsil tələblərinə uyğun yenidən qurulması və inkişafı –NİZAMİ" layihəsi ilə bağlı növbəti görüşdə iştirak etdilər. Yanvarın 29-31-də Azərbaycan Dövlət İqtisad Universitetində təşkil olunmuş görüşdə ali təhsil müəssisələrində doktorantura səviyyəsinin standartlarının yaradılması və inkişaf etdirilməsi məsələləri müzakirə olunmuşdur.

Dosent İradə Xəlilova "Kommunikasiya –Azərbaycanın tərəfdaş təşkilatları tərəfindən həyata keçirilən işlərin nəticələri" və Dr. Eldar Şahgəldiyev "Professionallaşma – Azərbaycanın tərəfdaş təşkilatları tərəfindən həyata keçirilən işlərin nəticələri" barəsində təqdimatlarla çıxış etmiş və iştirakçıların çoxsaylı suallarını cavablandırmışlar.

"KASPI" TOOK AN INTERVIEW WITH A KHAZAR UNIVERSITY GRADUATE

Official website of "Kaspi" newspaper posted an interview, January 19, 2018, with Farida Agazadeh, who graduated from Khazar University, the School of Humanities and Social sciences, with qualification in journalism. Now Farida Agazadeh is an editor-in-chief of "Astara" newspaper.

A link for full interview: *http://kaspi.az/az/85-yasli-qezetin-25-yasli-bas-redaktoru*

(*The interview is published on pages 32-33.*)

"XƏZƏR"İN ƏMƏKDAŞLARI ELMİ TƏDBİRLƏRDƏ
KHAZAR UNIVERSITY STAFF AT SCIENTIFIC EVENTS

***

2017-ci il dekabrın 14-də **Dillər və mədəniyyətlər departmentinin dosenti Elnurə Əzizova** AMEA Mərkəzi Elmi Kitabxanasının təşkilatçılığı ilə keçirilmiş "İslam həmrəyliyinin Azərbaycan modeli" adlı elmi konfransda "İslamda fərqli düşüncəyə münasibət" adlı məruzə ilə çıxış etdi.

On 14th December, 2017, **Elnura Azizova, the Associate Professor of the Department of Languages and Cultures,** delivered a speech on "The Attitude towards Different Ideas in Islam" at the scientific conference entitled "Azerbaijani Model of Islamic Solidarity", organized by Central Scientific Library of ANAS (Azerbaijan National Academy of Sciences).



Dillər və mədəniyyətlər departamentinin dosenti Elnurə Əzizova Türkiyə Respublikası Türk Tarix Qurumunun təşkilatçılığı ilə 2017-ci il dekabrın 20-dən 22-dək İstanbulda keçirilmiş "100. yılında Bağdat ve Kûtu'l-Amâre" adlı beynəlxalq simpoziumda "Kutul-Amarə mühasirəsində əsir düşmüş ingilis hərbiçilərin yazılarında türk və ərəb təsəvvürü" adlı məruzə ilə çıxış etdi.

Elnura Azizova, Associate professor of Department of Languages and Cultures, participated at an international symposium "Baghdad and Kutu'l-Amare in its 100th anniversary" on December 20-22, 2017 , organised by Institution of Turkish History of the Republic of Turkey. Associate professor E.Azizova delivered a report entitled "Notion of Turkish and Arabic people in the writings of English soldiers captured in siege of Kutu'l-Amara".

***

On January 24, **Elmar Mustafayev, Coordinator of Political Science and International Relations Department,** participated in an academic conference entitled "Research on Azerbaijan in Italy: themes and prospects". The event was organized by Roma Sapienza Foundation and the Communications and Social Researches Department of the same university. Conference participants included Eugenio Gaudio, Rector of Sapienza University, Mammad Ahmadzada, Ambassador of Azerbaijan to Italy, Antonello Biagini, Chairman of Roma Sapienza Foundation, academicians and researchers from various universities and institutions, and PhD candidates. The speeches were related to the legal aspects of the Armenian-Azerbaijani conflict, the history and energy policy of Azerbaijan, its relations with Turkey, Iran, Russia, other countries of the region, the United States and EU, public diplomacy, social welfare in Azerbaijan, Azerbaijani literature, the books about Azerbaijan published in Italy.

At the conference, Elmar Mustafayev delivered a presentation entitled "Europeanization beyond the EU: the case of Azerbaijan" in which he spoke about the opportunities and contradictions of Europeanization process in Azerbaijan.

The conference was covered in the mass media:
https://news.az/articles/politics/128566
https://azertag.az/xeber/1131433
https://video.azertag.az/video/60178



85 YAŞLI QƏZETİN 25 YAŞLI BAŞ REDAKTORU

Xəzər Universitetinin Jurnalistika fakültəsinin məzunu, "Astara" qəzetinin baş redaktoru Fəridə Ağazadə ilə "Kaspi" qəzetinin 19 Yanvar 2018-ci il tarixli internet səhifəsində yerləşdirilmiş müsahibəni təqdim edirik.

"Bakıda qəzetləri yaşadacaq istənilən qədər insan var. Amma region qəzetinə yeni düşüncə gəlməlidir. Qəzetin sanki mənə ehtiyacı var idi. Mən bu qəzeti yaşatmaq istədim. Fikirləşdim ki, Bakıya getsəm, onu kim yaşadacaq? Rayonda müxbir, baş redaktor tapmaq çox çətindir". Bu sözləri bizimlə söhbətində "Astara" qəzetinin gənc baş redaktoru Fəridə Ağazadə söylədi.

Deyir ki, regionun jurnalistika ixtisası üzrə təhsil alan gəncləri daha çox Bakıda çalışmağa üstünlük verir. Buna görə də region qəzetləri yenilikçi düşüncədən geri qalır. Regionda çalışmağı seçməsində məqsədi "Astara" qəzetini yaşatmaq, irəli aparmaq, region deyil, ölkə səviyyəsinə çıxarmaq, insanlara daha çox sevdirməyə nail olmaqdır.

Qeyd edək ki, F.Ağazadə 1993-cü ildə Astara rayonu Kijəbə qəsəbəsində anadan olub. Astara rayon Nail Həsənov adına Kijəbə qəsəbə orta məktəbini 2010-cu ildə bitirib. 2011-ci ildə Xəzər Universitetinin jurnalistika fakültəsinə daxil olub, 2016-cı ildə ali təhsilini qırmızı diplomla başa vurub. Semestr imtahanlarında nəticəsi 90-100 arası olduğu üçün hər semestr sonu dekanın Fəxri Diplomuna layiq görülüb. 2017-ci il aprelin 4-dən "Astara" qəzetinin baş redaktoru vəzifəsində çalışır.

- Fəridə xanım, jurnalistikanı özünüz seçmisiniz?

- Əslində, mən hüquqşünas olmaq istəyirdim. Anam bu sahədə olduğu üçün uşaqlıqdan hüquq diqqətimi çəkirdi, ona görə bir növ onun davamçısı olmaq istəyim var idi. Bu istəklə də ali məktəbə imtahan verdim, amma başqa ixtisasa qəbul oldum. Getmədim, növbəti il imtahan verib istədiyim ixtisasa qəbul olmaq üçün çalışacağımı dedim. Lakin o bir il ərzində fikrim dəyişdi. Dedim ki, bir neçə ixtisas yazacam, hansına qəbul olsam, özümü ona həsr edəcəm. Məqsəm yetişdi və birinci yerdə Xəzər Universitetinin jurnalistikasını yazdım və ora da qəbul oldum. Özümü bu sahəyə həsr etdim, universitetdə dərslərimi yaxşı oxumağa çalışdım. Hər semestri yüksək nəticəylə başa vurardım. Çünki mümkün qədər çox oxuyurdum. Universitetin kitabxanasında keçirilən "Ən yaxşı oxucu" nominasiyası üzrə birinci yerə çıxmışdım. Beləcə, jurnalistikanı qırmızı diplomla bitirdim.

- Bəs baş redaktor olmağınız necə reallaşdı? Bildiyim qədərilə birinci iş yeriniz idi...

- Hələ tələbə vaxtı bir neçə media orqanında təcrübə keçmişəm. Universiteti bitirəndən sonra müxtəlif mətbuat orqanlarına CV-lərimi verdim. Ötən il doğum günümə 3 gün qalmış rayona valideynlərimə baş çəkməyə getdim. Heç bilmədən çantamda CV-lərdən biri qalıbmış. Hətta özümü qınadım ki, bunu niyə gətirmişəm, onsuz mənə burda lazım olan deyil. Evə çatanda stolda "Astara" qəzetini gördüm. Məndə illərdən bəri görmədiyim insan qarşımda dururmuş kimi bir təəssürat yarandı. İllər öncə sevə-sevə oxuduğum, məqalələrimin, şeirlərimin dərc olunduğu qəzetə indi bir jurnalist kimi baxırdım. Nə vaxtsa bu qəzetin baş redaktoru olacağım ağlıma gəlməzdi. Anam işdən qayıdanda dedi ki, qəzetə baş redaktor axtarılır, əgər o işi üzərinə götürə bilərəmsə, CV hazırla göndər, şansdır. Düşündüm ki, gəncəm, bu cür yerdə illərlə çox təcrübəli, professional insanlar baş redaktor olublar, görəsən, mənim CV-mi qəbul edərlərmi? CV-mi götürüb deyilən yerə təqdim etdim, 29 martda təqdim etdim, 30 martda - doğum günümdə çağırıb dedilər ki, siz qəzetə baş redaktor təyin olunursunuz, razısınız? Böyük sevinc və məsuliyyət hissi ilə dedim ki, bəli.

- "Bacarmaram" – deyə bir qorxu yox idi içinizdə?

- Yox, olmadı. Hər bir insanın daxilində müəyyən qədər inam hissi var. O hiss məni həyata bağlayan vasitələrdən biridir. Özümə inanırdım, heç vaxt inamsızlığı və ümidsizliyi özümə yaxın buraxmamışam. Ona görə, bacarmaqla bağlı tərəddüd etmədim.

– Universitetdə nə qədər yaxşı oxusan da, işin verdiyi təcrübə başqadır. Yeni başlayanda təcrübəsizliyin çətinliyi olmadı?

- Xeyr, olmadı. İşə başlayanda kollektiv mənə elə doğma gəldi ki, sanki illərdir bu işdə çalışmışam. Bunun bir səbəbi nəzəri cəhətdən hazırlıqlı olmağım idisə, digər səbəbi təqaüddə olsa da, peşəkar redaktorumuz Azər Abdullayevin və doğma kollektivin dəstəyi oldu. Harada oluramsa-olum həmişə öztimdən yaşca böyük insanlarla ünsiyyətdə olmuşam. Komanda şəklində ilk görüşümüzdə mənə etimad göstərib "Sən bunu bacaracaqsan" dedilər. O sözdən sonra hər gün daha çox çalışırdım, öyrənirdim. Mövzulara, istiqamətə baxırdım. Hər yazdığım yazını redaktorla məsləhətləşirdim. İki aya o üslubu tutdum. 85 yaşlı qəzet 25 yaşlı bir xanıma hər gün nəsə öyrədir. İşlədikcə öyrənirəm.

– İndi işləriniz necə gedir?

- Artıq 10 aydır ki, işə başlamışam. İşlərimiz tam qaydasında gedir, lakin qarşıda görüləcək işlər, layihələr var. Hazırda bu layihələrin həyata keçirilməsi və qəzetimizin hər zaman oxunaqlı, yenilikçi olması üçün komandamla birlikdə var gücümlə çalışıram. Düşünürəm ki, görüləcək işlər çox olduğu halda bizim üzərimizə də daha çox çalışmaq düşür.

– Kollektiviniz neçə nəfərdən ibarətdir?

- 4 nəfərdən ibarət çox gözəl kollektivimiz var. Özümü rahat və bir o qədər də xoşbəxt hesab elədiyim məkan varsa, o da qəzetimizin redaksiyasıdır. Qəzetiniz vasitəsilə Astara rayonunun icra başçısı cənab Qəzənfər Ağayevə mənə etimad göstərib bu məsul vəzifəyə layiq gördüyünə, qəzetimizə göstərdiyi diqqət və qayğıya görə minnətdarlığımı bildirirəm. Əlavə edim ki, mən baş redaktor təyin olunandan sonra bizimlə əməkdaşlıq etmək üçün xeyli könüllü müraciət etdi. Heç bir məvacib tələb etmədən yazmaq istədiklərini bildirdilər. 20 gənc artıq könüllü olaraq layihələrimin, tədbirlərimin həyata keçirilməsində bizə kömək edir.

– Bir az da qəzetiniz haqqında məlumat verin. Nədən yazırsınız?

- "Astara" qəzetinin 85 yaşı var. Astara Rayon İcra Hakimiyyətinin təsis etdiyi ictimai-siyasi qəzetdir. 1932-33-cü illərdə region qəzetləri fəaliyyətə başlayıb. Bir müddət sovet dönəmində müəyyən fasilələr yaransa da, müstəqillik əldə etdikdən – ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə olduğu kimi mətbuatda da uğurlu işlər görülməyə başladı. Region qəzetləri də fəaliyyətini davam etdirdi. "Astara" qəzeti də həmçinin. Mən gələnə qədər qəzet ayda bir dəfə 8 səhifə çap olunurdu. Baş redaktor təyin olunduqdan sonra qarşıma məqsəd qoydum ki, qəzetimiz 16 səhifə olsun. Maariflənməyə ehtiyacımız olduğu üçün rubrikaların saymı artırmaq istəyirdim. Vətənpərvərlik, elm-təhsil, iqtisadiyyat, siyasət, kənd təsərrüfatı və s. bütün sahələri işıqlandırmağa çalışırıq. Artıq 16 səhifəlik bir qəzetdir. 16 səhifəlik qəzeti regionda 4 nəfərlik komanda ilə hazırlamaq çətin, məsuliyyətli və şərəfli işdir.

- Baş redaktor olmağın üstünlükləri çoxdur, yoxsa çətinlikləri?

- Üstün cəhətləri o qədər də çox deyil, əsas çətinlikləri var. Artıq sən öz fikirlərini kənara qoyursan. Özünün yox, cəmiyyətin fikirləri daha önəmli olur. Üstün tərəfi odur ki, gəncsən, var qüvvənlə çalışa bilirsən və gözəl bir kollektivlə işləyirsən. Uğurlu baş redaktor olmaq istəyirsənsə, səbrin, məqsədin və hədəfin olmalıdır. Bunları səbirlə və inamla həyata keçirməlisən.

- Astarainfo.az xəbər saytını da təsis etmisiniz...

- Bəli, buna regionda ilk dəfə yaradılan xəbər saytı da demək olar. Artıq işimiz tək qəzet deyil, həm də sayt var. Mən 24 saatın 20 saatını işləyirəm. Bu, bir az inandırıcı gəlməyə bilər. Qəzetlə yanaşı, saytın da işlərini görürük. Bu saytı yaratmaqda əsas məqsədim xaricdə yaşayan həmyerlilərimizə regionumuzla bağlı xəbərlərin çatdırılması və operativ olmaq idi. Qəzet elədir ki, xaricdə yaşayan həmvətənlərimizin onu operativ əldə etməsi bir az çətindir. Amma indi onlayn olaraq məlumatları saytımızdan əldə edə bilirlər. Feysbuk səhifəmizə Astaradan olan və hazırda xaricdə yaşayan bir çox insanlar məktub yazırdılar ki, regiondakı məlumatlardan xəbərdar olmaq istəyirlər. Həmçinin qeyd edim ki, sayt yaratmaq ideyası məndə əvvəlcədən var idi. Saytda "Astara xəbərləri" bölməsi açmışam, orda sırf bölgəmizlə bağlı məlumatlar yerləşdiririk.

- Təlimlər də verirsiniz. Bu nə ilə bağlıdır?

- İnformasiya kommunikasiya texnologiyalarından və sosial şəbəkələrdən düzgün istifadə, erkən nikahlar və narkomaniya ilə bağlı məktəblərdə, pedaqoji kollecdə təlimlərim olub. Astarada 3 təlim həyata keçirmişəm və bunu davam etdirirəm.

- Həm də regionda kitab və qəzet yarmarkası da təşkil etmişdiniz...

- Bəli, ilk dəfə regionda bunu təşkil etdim. Çünki bizim maariflənməyə, məlumatlanmağa çox ehtiyacımız var. Yeni mediamın, ənənəvi mediamı arxa plana atmasını istəmirəm. İstəyirəm ki, fəaliyyətlər paralel şəkildə davam etdirilsin. Yeni mediada qəzetlərin internet formaları vardır ki, mən də onu həyata keçirmişəm. Məqsədimiz kitaba, qəzetə olan həvəsi artırmaq, milli-mənəvi dəyərlərimizi, tariximizi qoruyub saxlayan kitablarımızı, qəzetimizi yaşatmaq, gənclərimizi oxumağa həvəsləndirməkdir. Ümumilikdə mənim məqsədim irəli getmək, elm-təhsilə önəm vermək və xalqına, millətinə xeyirli bir insan olmaqdır.

Aygün Aslmqızı

http://kaspi.az/az/85-yasli-qezetin-25-yasli-bas-redaktoru/#Kalibri



YENƏ DƏ TİTRƏYİR ƏLİMDƏ QƏLƏM...

(Camal Mustafayev haqqında xatirələrim)

Ölüm sevinməsin qoy! Ömrünü vermir bada!
El qədrini canından daha əziz bilənlər,
Şirin bir xatirətək qalacaqdır dünyada
Sevərək yaşayanlar, sevilərək ölənlər.

Səməd Vurğun

Camal Mustafayev haqqında xatirə yazmaq!

Son dəfə qələmimin belə ağır mövzuda yazdığı vaxtı xatırlamıram. Amma bu ağırlığın içində müqəddəs bir yüngüllük hiss etdiyim üçün qələmimi zorlamağa çox da ehtiyac qalmadı.

Hələ uşaqlıq illərimdə, o dövrdə şəxsən tanımadığım Camal Mustafayev haqqında ailəmizdə, sonralar isə camaat arasında həmişə xeyirxah fikirlər, qiymətli sözlər eşitmişdim. Açığı, Camal müəllimlə ilk tanışlığımı xatırlamıram. Bəlkə ilk dəfə, uşaq vaxtı, 1972-ci ildə – atamın dəfn mərasimində görmüşəm. Bəlkə də daha sonra. Tələbəlik illərimdə onu bir qədər tanısam da, onunla daha çox "Xəzər"də işlədiyimiz vaxtda canlı ünsiyyətdə oldum və Camal Mustafayev dünyasını yenidən canlı-canlı kəşf etdim bu illərdə.

Camal müəllim atam Abdulla İsayevlə uşaqlıq dostu olublar, bir sinifdə oxuyublar. Atamın dünyadan vaxtsız köçməsi onu yaxşı tanıyan insanlar kimi Camal müəllimi də sarsıtmışdı. Bir dəfə mənimlə səmimi söhbətdə "Abdulla müəllim əsl müəllim, əsl dost idi. Mən ən səmimi dostlarımdan birini, doğma qardaşımı itirdim" deyə, atamı anmışdı. Elə bu səmimiyyətlə də Camal müəllim həmişə mənə (eləcə də biz qardaşların hamısına) quru şəkildə adımızla deyil, çox doğmalıqla "qardaşoğlu" deyərək, müraciət edirdi.

Qarayazıdan Bakıya qayıdırdıq. Maşında 4 nəfər idik. Camal Mustafayev, Hamlet İsaxanlı, qardaşım Şahin və mən. Arxada oturmuşdular Camal müəllim və Hamlet müəllim. Həyat haqqında bir mühazirə idi bu yolçuluq. Hansı söhbətlərin şahidi olmadıq yolda olduğumuz 8-9 saat ərzində? Fəlsəfə, poeziya, ədəbiyyat, tarix, türkün kimliyi, xalq qəhrəmanları haqqında və daha nələr, nələr... Bircə siyasətdən danışılmadı. Bu da söhbətinə qulaq asdığım bu insanların böyüklüyünün bir ifadəsi idi. Siyasətlə qoy siyasətçilər məşğul olsunlar. Yol boyu hərdən nə isə demək istəyirdim, lakin onlara mane olacağımdan qorxur, vermək istədiyim sualları içimdə boğurdum. Verə bilmədim vermək istədiyim sualları. Amma qazandıqlarım? İnanın səmimiyyətimə ki, o yolçuluqdan (və bu insanlarla birlikdə olduğum digər məclislərdən) qazandıqlarımı bəlkə qalaq-qalaq kitablar oxumaqla da qazanmaq mümkün deyil.

Təbii ki, bir yerdə Camal müəllim varsa, orada söhbət Səməd Vurğumsuz ötüşməz. "Mən tələsmirəm"i oxudu. Nə qədər gözəl, səmimi və minnətdarlıqla səsləndirdi böyük şairin şeiri böyük filosofun ifasında. Sonra Səməd Vurğunun xeyirxahlığından ürəkdolusu danışmağa başladı. "Çinarın şikayəti"ni başdan-ayağa oxudu. Özü də necə! Dəfələrlə oxumuşdum bu şeiri. Amma indi şeir məna tamamilə başqa cür, çox şirin gəldi. Evə çatdıqdan sonra kitabı götürüb, "Çinarın şikayəti"ni bir də oxudum. Mənə elə gəldi ki, mən əvvəllər bu şeiri oxumamışam, amma oxumuşdum, özü də bir dəfə yox.

Camal müəllim inanılmaz dərəcədə səmimi və qayda-qanun sevən idi.

Bir dəfə səhhəti ilə əlaqədar işə gəlməmişdi. Katibə qız mənə zəng edib, "Camal müəllim sizinlə danışmaq istəyir" – dedi. Hal-əhval tutduqdan sonra "İsaxan müəllim, bir az soyuq deyib, bu gün işə gələ bilmədim, üzürlü hesab edin" – deyə, bir

az günahkarmış kimi dilləndi. Mən, "Camal müəllim, narahat olmayın, heç zəng eləməyə də ehtiyac yox idi, Siz işə Sizə uyğun qrafiklə gələ bilərsiniz" – deyə bildirdim. "Yox-yox, İsaxan müəllim, elə şey olmaz" – deyə, bir qədər narazı dilləndi.

Sonradan öz-özümə fikirləşdim və qayda - qanunlara hədsiz dərəcədə hörmətlə yanaşan Camal müəllimə olan hörmət və ehtiramımı bu şəkildə bildirməklə bir balaca "siyasi səhv" buraxdığımı anladım.

Camal müəllim əslində bir qayğıkeşlik, xeyirxahlıq rəmzi idi. Öztürk qızıl kimi vaxtını və enerjisini nəinki cavan vaxtı, hətta ixtiyar vaxtında da balacadan tutmuş böyüyə qədər istənilən bir adamın yolunda xərcləməkdən qəti usanmaz, istəsən də, istəməsən də içindən gələn qayğıkeşliyini göstərirdi Camal müəllim! Məncə, onu tanıyan elə bir adam tapmaq çətindir ki, Camal müəllimin ona bir yaxşılığı keçməmiş olsun, ona bir qayğıkeşlik göstərməmiş olsun. Mən də bu insanlardan biriyəm.

2001-ci ilin yazı idi. Mən o vaxt Azərbaycan Dövlət Pedaqoji Unuversitetinin dissertantı idim. Müdafiəyə hazırlaşırdım. Camal müəllimlə rastlaşdıq. Məndən müdafiəmin nə yerdə olduğunu soruşdu və sonra da "Hüseyn müəllim mənim yaxın dostumdur, səni tapşıraram" – dedi (akademik Hüseyn Əhmədov mənim elmi rəhbərim idi). Mən buna ehtiyac olmadığını desəm də, mümkün olmadı. "Xeyli vaxtdır Hüseyn müəllimlə də görüşmürük, elə yaxşı oldu, həm ziyarət, həm ticarət" deyərək, qoluma girdi. Birlikdə Azərbaycan Dövlət Pedaqoji Unuversitetinə getdik. Hüseyn müəllimin iclasda olduğunu söylədilər. Camal müəllim kafedrada işləyən qızlardan birinə "qızım, gedin Hüseyn müəllimə deyin ki, Camal Müstafayev gəlib, sizinlə görüşmək istəyir" – dedi. Mən bir az narahat olmağa başladım. Doğrusu, bu tapşırma məsələsi onsuz da ürəyimdən deyildi, üstəlik indi də Hüseyn müəllimi iclasdan çağırtdırması məni lap "qorxutmuşdu", kişi iclasdan yarımçıq çıxsa, bunun heyfini məndən çıxa bilər deyə həyəcan keçirirdim. 2-3 dəqiqə keçmədi, Hüseyn müəllim gəldi, özü də nə gəldi! "Ay Camal müəllim, ay Camal müəllim, nə yaxşı gəldin, sabahdan bu iclasdan necə çıxmağın yolunu fikirləşirdim tapa bilmirdim, sən tapdın" deyə, kefi kök halda hal-ehval tutdular. Dostların belə səmimi, mehriban görüşü mənim də kefimi qaldırdı.

Camal müəllim məni Hüseyn müəllimlə "tanış etdi": "Qardaşoğlumdur, deyəsən, sənin tələbəndir, müdafiəyə hazırlaşır. Gözün üstündə olsun". Mənə qarşı diqqət və xoş münasibətindən




heç bir şikayətim olmadığı, tanıdığım xeyirxah insanlardan biri olan, yaxşılıq eləməkdən zövq alan Hüseyn Əhmədovdan bundan sonra daha da doğma münasibət gördüm.

Camal müəllim qeyri-adi dərəcədə diqqətcil bir insan idi.

1997-ci il oktyabrın ortaları idi. Ayağımdan əməliyyat olunmuşdum. Travmotologiya və ortopediya institutunda müalicə olunurdum. Bir gün qapı açıldı, Camal müəllim içəri daxil oldu, Camal Mustafayev! Gözlərimə inanmadım. Açığını deyim ki, bir tərəfdən "ona əziyyət verdiyim üçün" özümü danlayırdımsa, digər tərəfdən də belə bir insanın "diqqətini qazanmanın" sevincini yaşayırdım. İlahi, sən bu böyük insanda böyük diqqətə bir bax! Hal-ehval tutduqdan sonra: "Qardaşoğlu, yatdın, bəsdir. Sənin çox yatmağa haqqın yoxdur. Ayağa qalx, "Xəzər" səni gözləyir" – dedi.

Təxminən 2010-cu ildən Camal müəllimin öztürkün səhhətində problemlər müşahidə edilməyə başladı və artıq, demək olar ki, işə gəlmir, evdə müalicə olunurdu, mən də imkan olduqca, onu ziyarətə gedirdim. 2012-ci il iyul ayının 9-da axşam saatlarında mənə zəng etmişdi. "Qardaşoğlu, bir nəfər göndər, sənə bir məktubum var" – dedi. Məktubu aldım. Məndən 2 kitab istəyirdi. Bir-neçə gün ərzində onun xahişini yerinə yetirib kitabları

göndərdim. Axşam zəng edib minnətdarlığını bildirdi. İndi həmin balaca məktubu Camal müəllimdən əbədi xatirə kimi saxlayıram (*məktubun surətini təqdim edirəm*).



Hörmətli İsaxan müəllim!

Sizə bir zəhmət vermək istəyirəm. Aşağıda göstərilən kitabları mümkündürsə M. F. Axundov adına Kitabxanadan gətirdiб, mənə gətirin:

1. Аббас Бакиханов, «Гюлистан Ирам»
2. Мирза Фатали Ахундов «Мактубы»

Bunları mən vaxtilə oxumuşam; indi araşdırmamda istifadə etmək üçün yenə baxmaq lazımdır.

Təmiz salamlar, xoş arzularla

Camal Mustafayev

9 iyul 2012-ci il.

2014-cü ilin fevralında qardaşım Hamletlə birlikdə növbəti dəfə ziyarətinə getmişdik. Artıq xəstəlik onu üstələməyə başlamışdı, yataqdan qalxa bilmirdi. Buna baxmayaraq, nitqində heç bir problem yox idi, hər şey yerli-yerində - məntiq, ardıcıllıq, şirinlik. Fenomenal yaddaşı yenə də heyrətləndirirdi. Xeyli söhbət etdik. Həmişə olduğu kimi, fəlsəfə, özünüdərk məsələləri, milli kimlik, poeziya, Nizami, Nəsimi, Səməd Vurğun və s. mövzular iki böyük şəxsiyyətin fikir dünyasından süzülür, dupduru bulaq suyu kimi içimə axırdı. Birdən Camal müəllimin həyat yoldaşı Nanə xanım (indi haqq dünyasındadır, məkanı cənnət olsun) "oğul, İsaxan, sənin neçə yaşın var?" – deyə soruşdu. Mən cavab verməyə imkan tapmamış Camal müəllim dilləndi: "62-ci ildəndir, 52 yaşı var". Hamlet müəllimlə mən heyrətdən bir-birimizin üzümüzə baxdıq. Bu qədər xəstəlik, ağrı-acı içində, ömrünün bu çağında, vaciblik dərəcəsi bəlkə də sıfır olan, bu məlumatı yadda saxlaması heyrətləndirici, digər tərəfdən də mənim adıma qürurverici idi.

Görəsən, biz Camal müəllimin bizə qarşı olan bu diqqətinin, heç olmasa, kiçicik bir faizini onun özünə qarşı göstərə bilmişikmi? Əsla! Nə mən, nə heç kim.

Həmin görüşümüzdə o, vəsiyyət etməyi də unutmadı: "Məni kəndimizdə dəfn edin. Mən o torpağa çox şey borcluyam". Əslində, hər kəs vətəninə, torpağına, xalqına, elinə-obasına borcludur. Amma, məncə, Camal Mustafayev o şəxsiyyətlərdəndir ki, vətəninə, torpağına, xalqına, elinə-obasına borcunu artıqlaması ilə ödəmiş, bəlkə də onun elədikləri üçün vətən, torpaq, xalq, el-oba özü ona minnətdar olmalıdır.

Camal müəllimi təbiət elə bil ki, təmizlik rəmzi olaraq, yaxşılıq eləməyə, xeyirxahlıq eləməyə yaratmışdı. Mən bu keyfiyyətlərdən bu qədər zövq alan, bunları sanki özünün həyat kredosuna çevirən ikinci bir adam tanımıram. Sadə, təmiz, qədirbilən insanlar tərəfindən verilən "Peyğəmbər Camal", "Dədə Camal" adları çox yaraşırdı ona:

Deyir peyğəmbərdi eşidən, bilən,
Qoy öpsün hər çiçək, hər yarpaq səni.
Qara palçığına qurban olum mən,
Nə təmiz yaradıb bu torpaq səni.

(Xalq şairi Zəlimxan Yaqubun "Nə təmiz yaradıb" şeirindən)

Noyabrın 29-da, Hamletlə birlikdə, yenə ziyarətinə getmişdik. İçəri girəndə qızı Leyla xanım "artıq 5 gündür ki, heç nə yemir, içmir, özündə deyil, heç kimi tanımır" – deyə, bizi bir qədər "hazırladı". Otağa daxil olduq, doğrudan da Leyla xanımın dediklərinin təsdiqini gördük. Sakitcə, gözlər qapalı halda uzanmışdı, çox ağır nəfəs alırdı. Bütün bunlar "o günün" yaxınlığının xəbərçisiydi. Kövrəldim, Hamlet müəllimə tərəf nəzər saldım. Bulud kimi dolmuşdu, bircə himə bənddi. O anlarda ürəyimdən nələr keçdi, bilmirəm, özümdən asılı olmayaraq, çarpayıya tərəf əyilərək "Camal müəllim, Hamlet gəlib" dedim. Sanki möcüzə baş verdi, ehmalca gözlərini açdı və sakitcə "Hamlet müəllim, xoş gəlibsən" dedi. İçimdə inanılmaz bir rahatlıq keçirdim. Bu zaman Leyla xanım da heyrətini saxlaya bilmədi: "Bir neçə gündür gəlib-gedən heç kimi tanımırdı, sizi tanıdı, qəribədir". Bu arada Camal müəllim yenidən dilləndi: "Hamlet müəllimi yormayın". İlahi! Bu vəziyyətdə, nəfəs almağa çətinlik çəkdiyi bu dəqiqələrdə belə kiminsə qayğısını çəkmək! Bunu yalnız Camal müəllim edə bilərdi, bu hisslərə yalnız Camal Mustafayev qəlbi sahib ola bilərdi. Bu, Camal müəllimin dilindən eşitdiyim son kəlmə oldu. Heyrət və kədər içində bir-birimizə baxdıq, xeyli müddət sakitcə oturduq. Camal müəllim yuxuya getmişdi.

Qapıdan çıxarkən özümdən asılı olmayaraq

bir də geri döndüm, bir də baxdım "allaha hamıdan yaxın", "İnsan zəkasının parlaq səhərini" özündə əks etdirən "müdriklik məbədi" o gözlərə. Bir neçə gündən sonra əbədi yumulacaqdı o gözlər:

O gözlər – el üçün yanan bir çıraq,
Yetimə - yesirə sığınacaqdı.
Gündüzlər fikirli, gecələr oyaq
O gözlər mənimçün pirdi, ocaqdı.

(Camal Mustafayevin nəvəsi Orxan Camalın "Filosof gözləri" tablosu" şeirindən)

O pir, ocaq gözlər əbədilik yumulsa da, onlardan saçan işıq, nur heç vaxt sönməyəcək. İndi göylərdə daha bir əbədi ulduz yanacaq – Camal Mustafayev ulduzu!

Camal müəllimi, özünün vəsiyyətinə uyğun olaraq, doğulub boya-başa çatdığı doğma kəndimizdə – Gürcüstanın Qarayazı mahalının Kosalı kəndində dəfn etdik. "Hər damlaya dərya qiymət" (*ifadə Hamlet İsaxanlının "Ziyarət" poemasından götürülmüşdür*) verən sadə kənd adamlarının öz aliminə, bir təmizlik, alicənablıq, xeyirxahlıq simvoluna çevrilmiş Camal Mustafayevə olan hörmətini, məhəbbətini, ehtiramını bir daha gördüm o



gün. Böyük alim, Böyük insan Camal Mustafayev bir vaxtlar onu şöhrətləndirib dünyaya tanıdan bu torpağı indi özünün son vəsiyyətilə - bu torpaqda uyuyaraq şöhrətləndirmiş oldu.

Dəfn mərasimində rayonun tanınmış müəllimlərindən biri – Azərbaycan dili və ədəbiyyatı müəllimi Hidayət Yusubovun söhbətimiz zamanı mənə dediyi sözlər həmişəlik həkk olundu qulaqlarıma: "Nə böyük, nə müqəddəs bir vəsiyyət. Zaman gələcək, Camal müəllimin məzarı bütün Qarayazı mahalı üçün bir and yerinə, ziyarətgaha çevriləcək".

İsaxan İsaxanlı



"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU

"LİTERATURNAYA QAZETA"NIN NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU İLƏ BİRGƏ ALTINCI ƏLAVƏSİ ÇAP OLUNUB



Moskvada çıxan "Literaturnaya qazeta"nın Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə birgə layihəsi olan, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin ideyası ilə reallaşdırılan "Azərbaycan - Turanın incisi" əlavəsinin növbəti - 6-cı sayı çap olunub.

"Literaturnaya qazeta"nın 20-26 dekabr 2017-ci il tarixli 50-ci sayında A3 formatda 8 qəzet səhifəsi həcmində çap olunmuş əlavəsi AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin və yazıçı-ədəbiyyatşünas Abuzər Bağırovun "Dəyişikliklər dövrlərinin ədəbiyyatı" adlı geniş həcmli giriş məqaləsi ilə təqdim olunub. Məqalədə XII əsrdən meydana çıxmağa başlamış realist istiqamətli ədəbiyyata elmi baxış və bu ədəbiyyatın yaradıcıları haqqında müfəssəl məlumat verilir.

"Azərbaycan realist poeziyası" rubrikası altında təqdim olunan əlavədə ədəbiyyatımızın görkəmli nümayəndələri Molla Vəli Vidadi, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov, Xurşidbanu Natəvan, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir və Məmmədhüseyn Şəhriyarın poetik yaradıcılıqlarından seçmə nümunələr onların həyatlarının əsas tarixlərini əks etdirən informasiyalarla birgə oxuculara təqdim olunub. Həmçinin görkəmli romantik şairlər Hüseyn Cavid və Seyid Əbülqasım Nəbatinin əsas tərcümeyi-hal göstəriciləri və şeir örnəkləri də "Əlavə"də öz əksini yer alıb.

Azərbaycan realist ədəbiyyatının qəzəl, qoşma, müsəddəs, mühəmməs, məsnəvi, satira, təmsil və s. janrlarında olan poeziya nümunələri Konstantin Simonov, Pavel Antokolski, Siyavuş Məmmədzadə, Tatyana Streşneva, Vladimir Luqovskoy, Abram Plavnik və başqaları kimi tanınmış şairlərin rus dilinə tərcümələrində təqdim olunub.

Qeyd edək ki, indiyə qədər "Literaturnaya qazeta"nın səhifələrində yer almış "Azərbaycan – Turanın incisi" əlavələrində Azərbaycan ədəbiyyatı bütün mərhələlər üzrə ardıcıllıqla xarakterizə edilmiş, qədim dövrlərdən XVIII əsrə qədər keçdiyi yol haqqında ətraflı elmi-nəzəri məqalələr və barəsində bəhs edilən istiqamətlərin görkəmli yaradıcılarının əsərlərindən nümunələrə yer verilib.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Literaturnaya qazeta" ilə birgə layihəsi üzrə XX əsr sovet dövrünü və XXI əsr müstəqillik mərhələsini əhatə edəcək əlavələrin hazırlanması da nəzərdə tutulur.

ÇİNLİ ALİMLƏRLƏ ELMİ MÜZAKİRƏLƏR APARILIB




Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) iki ölkə arasında qarşılıqlı elmi əlaqələrin inkişafı istiqamətində bir sıra işlər görülür. Ötən il AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəylinin rəhbərlik etdiyi nümayəndə heyəti Çinin İctimai Elmlər Akademiyasında (ÇİEA) olmuş, gələcək perspektivlərlə bağlı mühüm müzakirələr aparılmışdır. Sonra Çinin İctimai Elmlər Akademiyasının prezidentinin rəhbərliyi ilə böyük nümayəndə heyətinin ölkəmizə səfəri əhəmiyyətli olmuşdur. Akademik İsa Həbibbəyli Pekində keçirilən "Dəyişən dünya kontekstində Çinin inkişafı" (Pekin, 17-18 noyabr 2017) Beynəlxalq konfransında iştirak etmiş və qarşılıqlı olaraq hər iki ölkədə elmi mərkəzlərin açılması ilə bağlı razılaşmalar əldə olunmuşdur.

Bu kontekstdə ÇİEA-nın Fəlsəfə İnstitutunun direktor müavini, professor Cui Veihanq, həmin İnstitutun şöbə müdiri, professor Li He və əməkdaşı Çu Çunmin ölkəmizə səfər ediblər. AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli qonaqları qəbul edib, akademiyada əlaqələrimizin inkişafı istiqmətində atılan addımlar və gələcək planlar barədə ətraflı bəhs edib. Eyni zamanda qonaqlar səfərlərinin məqsədi, Çində aparılan elmi tədqiqatlarla bağlı öz fikirlərini bölüşüblər.

Daha sonra qonaqlar AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən Çin Tədqiqatları Mərkəzi ilə tanış olublar. Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri, professor Bədirxan Əhmədov çinli alimlərə şöbənin fəaliyyəti barədə məlumat verib. Çin Tədqiqatları Mərkəzinin koordinatoru Nərgiz Kərimova fəaliyyəti, Çin dilinin tədrisinin vəziyyəti barədə fikirlərini bölüşüb. Daha sonra mərkəzdə müzakirələr aparılıb.





ВЫБОР ЗА ВАМИ, ИЛИ ПОЧЕМУ УМНЫЕ ЛЮДИ ПРИНИМАЮТ ГЛУПЫЕ РЕШЕНИЯ

Ингилаб Ахмедов

Предлагаем нашим читателям статью директора Евразийского Центра Знаний Университета Хазар профессора Ингилаба Ахмедова, опубликованную на официальной странице интернет-сайта газеты «Эхо» 14 января 2018 г.

Почему люди покупают порой ненужные вещи и потом сожалеют об этом? Например, посетив книжный магазин, вы возвращаетесь домой с кипой книг, без части которой легко могли бы обойтись?

Почему чаще выбираем не то образование, или сервис, а впоследствии сожалеем об этом, обвиняя в этом те или иные обстоятельства?

Иногда доходит до курьеза, когда мы просто не можем объяснить наш выбор. Представьте себе, что собираетесь приобрести калькулятор за 20 манатов, при этом честный продавец говорит вам, что точно такой же калькулятор продается на распродаже в другом филиале магазина за 10 манатов. Правда, нужно пройти три квартала. Какое будет ваше решение? Наверняка предпочтете сэкономить и купите калькулятор за 10 манатов.

А теперь представьте, что хотите приобрести пиджак за 200 манатов, но продавец сообщает, что точно такой же пиджак продается в другом филиале за 190 манатов. Я не уверен, что ради того, чтобы сэкономить 10 манатов на пиджаке, вы будете готовы приложить те же усилия, которые приложили, экономя те же самые 10 манатов на калькуляторе.

Таких примеров масса, и занятые каждодневными заботами, мы порой не задумываемся над тем, почему выбираем подобные нелогичные решения. Неужели наши ежедневные экономические решения сплошь и рядом состоят из таких хаотичных действий, которые не поддаются объяснению?

То, что наши действия действительно носят иррациональный характер - это факт. Люди в массе своей когда принимают миллионы подобных решений, не обязаны действовать рационально, как велят законы экономики. Хотя бы потому, что люди в массе своей не экономисты. Да даже не в этом дело. Рациональные отношения в процессе акта купли - продажи имели бы место, если бы люди были компьютерами.

Но, к сожалению (или к счастью), люди не компьютеры. И они руководствуются не столько осмысленно, скрупулезно, рассчитывая, правильно ли поступают, остановив свой выбор на данной транзакции, или есть лучшая альтернатива, скорее отдают предпочтение автоматическому мышлению, зачастую под тем или иным эмоциональным давлением.

В этом контексте нелишне будет напоминать, старайтесь избегать посещения супермаркетов в день зарплаты или на голодный желудок. Другой пример, обойтись без залода в ювелирные магазины, когда прогуливаетесь, только что помирившись с женщиной.

Итак, люди чаще всего действуют нерационально и потому, с точки зрения классической экономики, ошибочно. Но, хорошая новость в том, что эти ошибки носят повсеместный характер. Как говорится, трудно оставаться нормальным, когда весь мир сходит сума.

Другая хорошая новость в том, что такое иррациональное поведение вполне управляемо. И наука, занятая этими проблемами называется поведенческая экономика, являющаяся симбиозом психологии и классической экономики. А называется подобное иррациональное поведение людей - архитектурой выбора. Смысл ее коротко заключается в том, что поскольку люди в массе своей заняты и погружены в свои ежедневные заботы, вполне могут забыть о своих обязательствах (скажем, оплатить проценты по кредиту в определенное время). Администрации нужно напомнить им своевременно, чтобы они не оказались в проигрышной позиции.

То же самое относится к государству, которое должно заботиться о своих граждан, но ни в коей мере не отнимая у них право собственного выбора, что на языке поведенческих экономистов называется либертарианский патернализм, что-то вроде «горячий снег». Как этого добиться?

Поведенческая экономика не просто пассивно изучает выбор людей, но и готовит почву под это, пытаясь повлиять на их решение. А это уже называется теория «легкого подталкивания»(nudge), которая и есть ядро поведенческой экономики знаменитого американского экономиста Ричарда Талера, ставшего лауреатом Нобелевской премии по экономике в 2017 году.

По этому же принципу размещают детские книги в книжном магазине на уровне глаз детей, здоровую пищу в школьной столовой на первых рядах, и т. д.

Современный маркетинг основывается именно на принципах поведенческой экономики, и надо сказать, очень успешно. Маркетологи при этом рассматривают нас, потребителей, как объект ловли на приманку. Важно, какие собственно уроки можно извлечь нам самим, чтобы как можно меньше манипулировали нами. Более того, современные правительства уже считают необходимым условием успешной работы прислушаться к голосу команды поведенческих экономистов. Не случайно, вышеупомянутый Ричард Талер был советником Барака Обамы и консультировал правительство Дэвида Кэмерона.

Попытки реформировать экономикуу вряд ли увенчаются успехом, если не принять во внимание базовые принципы поведенческой экономики. Вот, к примеру, предпринимается много усилий по сокращению социальной коррупции, а воз и ныне там. Многие работники госсектора жалуются на низкую зарплату, оправдывают получение взяток, а правительство в свою очередь «обосновывает» неоправданность повышения зарплаты тем, что взяточник при любой зарплате будет получать взятку, если он нечист на руку. Получается заколдованный круг. А вот поведенческая экономика на сей счет имеет очень ценные эксперименты.

Известный ученый Дэн Ариели (по-видимому, будущий Нобелевский лауреат) называет один из них «уроки слесаря». Человек захлопнув дверь, забывает ключ дома, вызывает слесаря, который имеет разрешение на открытие дверных замков и тот в считанные минуты открывает дверь. На вопрос, как вы можете так быстро открыть дверь, он отвечает, на самом деле для любого вора, если он намерен проникнуть к нам в дом, замок не препятствие. Дверной замок - это от честных людей, чтобы остеречь их от искушения пошасть к нам в открытую дверь.

Другой похожий пример - фермер выкладывает свою продукцию на улице с ценником и рядом ящик, прибитый к столу с небольшим отверстием для денег; чтобы можно было деньги положить, но нельзя достать. В конце дня фермер, как правило, получал точную сумму денег за реализованный товар, что говорит о том, что люди в массе своей честные, если уберечь их от искушения. Воры же есть везде, но их очень мало.

Мораль этих историй такова. Людям свойственно искать, прежде всего, подтверждающее доказательство, нежели опровергающее. А для наших реалий следующая. Подавляющее большинство чиновников вряд ли будут прибегать к взяточничеству, если получат приемлемую зарплату, а нечестными пусть занимается закон.

Теперь самое время вернуться к примеру с калькулятором и пиджаком. Ответ этого, на первый взгляд, нелогичного действия следующий. Люди мыслят не абсолютными, а относительными категориями, а потому, 10 манатов по отношению к 200 кажется не таким существенным, как в случае с калькулятором.

Вышеупомянутый Дэн Ариели утверждает, что люди чрезмерно самоуверенны и приводит слова Марка Твена «ваши проблемы не от того, о чем вы не знаете. Они от того, в чем вы абсолютно уверены, тогда как на самом деле вы заблуждаетесь»…

http://ru.echo.az/?p=66407

"XƏZƏR"IN PROFESSORUNUN MƏQALƏSI ÇAP OLUNUB

2018-ci il yanvarın 14-də "Эхо" qəzetinin internet səhifəsində Xəzər Universiteti Avrasiya Bilik Mərkəzinin direktoru, universitetin professoru İnqilab Əhmədovun "Выбор за вами, или почему умные люди принимают глупые решения" ("Seçimi siz etməlisiniz, yaxud ağıllı adamlar niyə səfeh qərarlar qəbul edirlər") adlı məqaləsi dərc edilmişdir.

Məqalə məişətdə iqtisadi qərarların qəbul edilməsi məsələlərinə həsr olunmuşdur.

Məqaləni aşağıdakı link vasitəsilə oxumaq olar:
http://ru.echo.az/?p=66407

AN ARTICLE BY PROFESSOR OF "KHAZAR" PUBLISHED

An article "Выбор за вами, или почему умные люди принимают глупые решения" ("The choice is yours or why smart people make stupid decisions") by professor Ingilab Ahmadov, Director of Eurasia Knowledge Center of Khazar University, was published in the website of "Эхо" newspaper on January 14, 2018.

The article deals with decisions made on economic issues in everyday life.

A link to the article:
http://ru.echo.az/?p=66407





"AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLAR" MÖVZUSUNDA MÜHAZİRƏ

Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsi və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin birgə təşəbbüsü ilə 2017-ci il dekabrın 19-da universitetin Mərmər zalında "Azərbaycanda iqtisadi islahatlar" mövzusunda ictimai mühazirə təşkil edildi. İctimai mühazirənin məqsədi Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar barədə tələbələri məlumatlandırmaq idi.

Tədbiri İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov açaraq, Azərbaycanda qeyri-neft sektorunun və ixracın şaxələnməsində, insan kapitalının inkişafında strateji yol xəritələrinin böyük rolu olduğunu və ölkədə aparılan islahat prosesi barədə gənclərin maarifləndirilməsinin vacibliyini vurğuladı.

Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs iştirakçıları salamladı və davamlı iqtisadi inkişafa qeyri-neft sektorunun töhfəsindən danışdı.

Xəzər Universitetinin Tədris işləri üzrə prorektoru professor Məhəmməd Nuriyev isə strateji yol xəritələrinin qəbul edilməsinin və islahat prosesinə vaxtında start verilməsinin Azərbaycanın dünyada cərəyan edən böhran vəziyyətindən sabit çıxmasına səbəb olmasını və islahat prosesində bilik və insan kapitalına xüsusi diqqətin yönəlməsini nəzərə çatdırdı.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Dr. Vüsal Qasımlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərmanı ilə təsdiqlənən strateji yol xəritələri barədə mühazirə oxudu, professor-müəllim heyəti və tələbələrlə fikir mübadiləsi apardı.

Tədbir AZƏRTAC başda olmaqla (*https://azertag.az/xeber/Vusal_Qasimli_Azerbaycanda_2017_ci_il_sabitlesme_2018_ci_il_ise_iqtisadi_inkisaf_ili_kimi_tarixe_dusecek-1122236/*) ölkə mediasında işıqlandırılmışdır.

A LECTURE ON "ECONOMIC REFORMS IN AZERBAIJAN"

A public lecture on "Economic reforms in Azerbaijan", with joint initiative of Faculty of Economy and Management of Khazar University and Center for Economic Reforms Analysis and Communication, was held in Marble hall of university on December 19, 2017. The aim of the public lecture was to inform academics about the economic reforms in Azerbaijan.

Dr. Jeyhun Mammadov, Dean of the Faculty of Economy and Management, opened the event. He stressed that strategic road maps have a huge impact on development of non-oil sector and diversification of export as well as development of human capital, and it is important that the youth should be educated on reform process.

Dr. Hassan Niknafs, Rector of Khazar University, greeted the participants and talked about contribution of non-oil sector to sustainable economic development.

Prof. Mahammad Nuriyev, Vice-rector for Academic Affairs of Khazar University, mentioned that strategic road maps helped Azerbaijan keep its economic development stable in a global economic crisis, and added that special attention should be given to knowledge and human capital in the course of reforms.

Dr Vusal Gasimli, Executive Director of Center for Economic Reforms Analysis and Communication, exchanged ideas with faculty staff and students on strategic road maps, approved with Decree "On Strategic Road Map on National Economy and Key Sectors" by Ilham Aliyev, President of the Republic of Azerbaijan, December 6, 2016.

The event was also covered by media:

https://azertag.az/xeber/Vusal_Qasimli_Azerbaycanda_2017_ci_il_sabitlesme_2018_ci_il_ise-iqtisadi_inkisaf_ili_kimi_tarixe_dusecek-1122236/





DOKTORLUQ DİSSERTASİYASININ İLKİN MÜZAKİRƏSİ

2017-ci il dekabrın 19-da Xəzər Universiteti Fəlsəfə departamentinin Fəlsəfə tarixi ixtisası üzrə dissertantı Məhəmməd Əkbərovun "Platonun fəlsəfəsində qanun ideyası" mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirildi. M. Əkbərov öz təqdimatında Platonun fəlsəfəsində qanun, ədalət anlayışı və onun mahiyyəti məsələlərini ön plana çəkərək, dissertasiyanın əsas nəticələri ilə iştirakçıları tanış etdi

Müzakirələrdə Bakı Dövlət Universitetinin professoru Fərman İsmayılov, AMEA-nın Fəlsəfə institutunun əməkdaşları professor Əlikram Tağıyev və f.ü.f.d. Şölət Zeynalov, Xəzər Universitetinin Magistratura, doktorantura və elmi İşlər bölməsinin müdiri f.ü.f.d. Eldar Şahgəldiyev, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri, s.ü.f.d. Elmar Mustafayev, Psixologiya departamentinin müdiri Mələk Kərimova, Humanitar və Sosial Elmlər fakültəsinin dekan müavini Validə Kərimova və digər şəxslər çıxış edərək, dissertasiya işi haqqında mülahizə və təkliflərini bildirmişlər.





PRELIMINARY DEFENSE OF DOCTORAL THESIS

On December 19, 2017, Khazar University Philosophy department held preliminary defense of PhD candidate Mahammad Akberov on "Theory of Law in Plato's Philosophy". The professor of the Baku State University Farman Ismayilov, associates from the Institute of Philosophy of ANAS, Professor Alikram Tagiyev and Dr. Sholet Zeynalov, head of the Division of Graduate Studies and Research Dr. Eldar Shahgaldiyev, head of Psychology department Melek Kerimova, Vice-dean of the School of Humanities and Social Sciences Valide Kerimova participated in the defense. The candidate acquainted the participants with the results of the research focusing on the concept of justice and its essence in Plato's theory of Law.





"CANSAT AZƏRBAYCAN - 2018" TƏLƏBƏ PEYKİ MÜSABİQƏSİNİN TƏQDİMATI

2017-ci il dekabrın 20-də Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbələri üçün "Azərkosmos" ASC-nin və Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçiriləcək "CanSat Azərbaycan-2018" tələbə peyki müsabiqəsinin təqdimatı keçirildi.

"Azərkosmos" ASC-nin Korporativ kommunikasiya departamentinin aparıcı mütəxəssisi Fidan Behbudova müsabiqə haqqında məlumat verərək qeyd etdi ki, kosmik texnologiyalar sahəsində universitet tələbələrinin motivasiya və inkişafına yönəlmiş Beynəlxalq CanSat müsabiqəsi NASA, Amerika Astronomiya Cəmiyyəti (AAS), Amerika Aviasiya və Kosmik Elmlər İnstitutu (AIAA), eləcə də, kosmik sektorda aparıcı qurumların dəstəyi ilə 1998-ci ildən etibarən hər il keçirilir.

2018-ci ildən etibarən bu müsabiqənin Azərbaycanda da keçirilməsi planlaşdırılır. "CanSat Azerbaijan" adlandırılacaq bu müsabiqə ali təhsil müəssisələrinin tələbələri üçün nəzərdə tutulur. Müsabiqənin məqsədi tələbə peyki layihələrinə marağın daha da artırılması və azərbaycanlı tələbələr arasında kütləviləşdirilməsi, Azərbaycanın beynəlxalq analoji müsabiqələrdə daha çox və təcrübəli komandalarla təmsil olunması və uğurlu nəticələrin əldə edilməsi, gələcəkdə nano və digər real peyklərin ölkəmizdə məhz yerli mütəxəssislər tərəfindən hazırlanması üçün təcrübi bacarıq və vərdişlərin əldə edilməsidir.

Təqdimatın sonunda "Azərkosmos" ASC-nin nümayəndələri tələbələrin müsabiqə ilə bağlı suallarını cavablandırdılar.

Müsabiqə haqqında daha ətraflı məlumatı bu link vasitəsilə əldə etmək olar:

http://cansat.az/

PRESENTATION OF "CANSAT AZERBAIJAN - 2018" STUDENT SATELLITE COMPETITION

Presentation of "CanSat Azerbaijan-2018" student satellite competition, which will be held with organizational support of "Azercosmos" OJSC and Ministry of Education, was conducted for the students of School of Engineering and Applied Sciences, Khazar University, on December 20, 2017. Fidan Behbudova, a leading expert of Department of Cooperative communication, "Azercosmos" OJSC, gave detailed information on competition and added that International CanSat competition, designed for motivation of development of university students in cosmic sector, has been held since 1998 with joint support of NASA, American Astronomical Society (AAS), The American Institute of Aeronautics and Astronautics (AIAA) as well as other leading institutions in space industry. It is also planned to hold this competition in Azerbaijan as of 2018. "CanSat Azerbaijan" is for students of higher education institutions. The objective of the competition is to increase interest in, and popularization of, student satellite projects, represent Azerbaijan in similar competitions with experienced teams and gain achievements as well as help experts to attain relevant skills for producing Nano and real satellites in the future in Azerbaijan.

After the presentation "Azercosmos" OJSC representatives answered the students' questions.

For further information on competition:

http://cansat.az/

CİSCO ŞƏBƏKƏ AKADEMİYASININ XƏZƏR UNİVERSİTETİNDƏ TƏQDİMATI

CISCO NETWORK ACADEMY DELIVERED A PRESENTATION AT KHAZAR UNIVERSITY

2017-ci il dekabrın 20-də Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin 2-ci, 3-cü və 4-cü kurs kompüter elmləri və kompüter mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələri üçün "Cisco Şəbəkə Akademiyası Proqramı" adlı seminar keçirildi.

Seminar Cisco Şəbəkə Akademiyasının (Cisco Networking Academy) Azərbaycanda rəsmi tərəfdaşı NetAcad.az (Azərbaycan Şəbəkə Akademiyası) və Təlimçilərin Hazırlığı Mərkəzi (ITC) tərəfindən təşkil edilmişdi.

Cisco Şəbəkə Akademiyasının əməkdaşları Emin Seyidov və Fərrux Rəcəbli akademiyanın təqdim etdiyi İKT sahəsindəki yeniliklər və tərkibində olan kurslar, bu istiqamətdə görülən işlər haqqında məlumat verdilər.

On December 20, 2017, a seminar on "*Cisco Network Academy Program*" was held for the 2nd, 3rd, and 4th year students majoring in Computer Science and Computer Engineering, the School of Engineering and Applied Sciences.

The seminar was organized by NetAcad.az (Azerbaijan Network Academy), the official partner of the Cisco Networking Academy in Azerbaijan and Instructor Training Center (ITC).

During the meeting, Emin Seyidov and Farrukh Rajabli informed about the innovations and courses in ICT (Information and Communication Technology) field offered by Cisco Network Academy and about the work implemented in this direction.





XƏZƏR UNİVERSİTETİNİN İŞÇİLƏRİ ÜÇÜN VƏRKŞOP KEÇİRİLDİ

WORKSHOP CONDUCTED FOR THE STAFF OF KHAZAR UNIVERSITY

Yanvarın 5-də layihə koordinatoru Rima Məmmədova Xəzər Universitetinin işçiləri üçün Erasmus+ KA2 layihələrinin büdcəsinin yazılması ilə bağlı vərkşop keçirdi. Vərkşopda əvvəlcə iştirakçılara büdcənin yazılması haqqında təqdimat edildi. Sonra isə iştirakçılar əvvəlcədən kompüterə yüklənmiş ERASMUS+ büdcəsinin Excel faylları üzərində praktiki olaraq işlədilər.

On January 5, a workshop on Writing a Budget of Erasmus+KA2 Projects was conducted for the staff of Khazar University by Rima Mammadova, a project coordinator. During the workshop, the participants were given a presentation about how to write a budget and then everyone worked on the ERASMUS + budget Excell files which had been installed on the computer beforehand.



TƏLƏBƏLƏR ƏLYAZMALAR İNSTİTUTUNDA

2017-ci il dekabrın 20-də Xəzər Universiteti Dillər və mədəniyyətlər departamentinin koordinatoru f.ü.f.d. Zivər Hüseynli-Baylan "Əski Azərbaycan yazısı" fənninin tələbələri üçün AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna ekskursiya təşkil etdi.

Həmin fənnin digər müəllimi f.ü.f.d. Xatirə Yusifovanın köməyi ilə təşkil olunan ekskursiyada tələbələr milli-mənəvi dəyər olan əlyazmalarla tanış oldular, əlyazmalardan istifadə qaydası, əlyazmaların saxlanıldığı şərait və bərpa işləri haqqında məlumat aldılar.

Tələbələr, həmçinin, institutun qocaman əməkdaşı, Azərbaycanın taxta üzərində oyma sənəti ilə məşhur olan xəttat Seyfəddin Məmmədvəliyevlə də görüşdülər, onun sənət nümunələri ilə yaxından tanış oldular.

"BEYNİMİZ VƏ OYNADIĞI "OYUNLAR" MÖVZUSUNDA SEMİNAR

2017-ci il dekabrın 22-də Xəzər Universiteti Psixologiya departamenti və Xəzər Psixoloji Xidmət Mərkəzinin təşkilatçılığı ilə universitetdə "Beynimiz və oynadığı "oyunlar" mövzusunda seminar keçirildi.

Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi, psixiatr Aygün İsgəndərova psixi pozuntular ilə əlaqədar olan miflər, psixi pozuntular zamanı beyində baş verən pozuntular, düşüncələrin əhvalruhiyyəyə, duyğulara olan təsiri və düşüncə xətaları ilə əlaqədar ətraflı məlumat verildi. Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru psixoloq Mələk Kərimova da psixi pozuntular zamanı pasiyentə düzgün yanaşılmasının əhəmiyyətini qeyd edərək, bu mövzuda maarifləndirilmənin zəruri olduğunu bildirdi.

Müzakirələrə səbəb olan seminarda iştirakçıların sualları ətraflı şəkildə cavablandırıldı.

SEMINAR "OUR BRAIN AND ITS "TRICKS"

On December 22, 2017, a seminar on "Our brain and its "tricks", organised by the Department of Psychology and Khazar Psychological Service Centre was held at Khazar University. Aygun Isgenderova, a psychiatrist, an instructor of the Department of Psychology, delivered a presentation in the seminar. The presenter gave full information on myths about psychological disorders, brain disorders caused by mental illnesses, impact of thoughts on mood and emotions as well as errors in thinking. Melek Kerimova, Head of Khazar Psychological Service Centre, underlined the importance of a proper approach by the society to the patients with psychological disorders and added that there is a need to raise public awareness in this regard.

The presenter answered the participants' questions.







KPMG SEMİNAR KEÇİRDİ

2017-ci il dekabrın 22-də Xəzər Universiteti Karyera mərkəzinin təşəbbüsü ilə KPMG şirkəti universitetin İqtisadiyyat və menecment fakültəsinin tələbələri üçün seminar keçirdi.

Seminarda KPMG-nin əməkdaşları - Audit və güvənlik departamentinin işçisi Karim Daiyev bu sahənin əhəmiyyəti və əsas rolu, Qurban Abbasov qiymətləndirmə, birləşmə və akvizisiyalar, maliyyə, Zəhra İmranova isə əməliyyat xidmətləri haqqında danışdılar. Sonra Xəzər Universitetinin şirkətdə çalışan məzunu - Aslan Bağırov (vergi departamenti) və Aysel Balakişiyeva (hüquq bölməsi) çıxış etdilər.

Seminarın sonunda şirkətin nümayəndələri tələbələrin suallarını cavablandırdılar.

KPMG HELD A SEMINAR

KPMG held a seminar on December 22, 2017, on initiative of Career Centre of Khazar University.

Karim Daiyev, an expert of Department of audit and security, gave information on the importance of audit. Sona Gurbanova, talked about assessment, combination and acquisition, and finance. Zahra Imranova provided the participants with information about operation services. Later, graduates of Khazar University, Aslan Bagirov (department of taxes) and Aysel Balakishiyeva (division of law) delivered speeches.

KPMG experts answered students' questions and also gave recommendations on their future career.

XƏZƏR UNİVERSİTETİNİN KEÇMİŞ TƏLƏBƏSİ MÜSAHİBƏ VERDİ

Yanvarın 12-də "Şərq" qəzeti telekanallardan birində keçirilən şeir müsabiqəsinin iştirakçısı, Xəzər Universitetinin keçmiş tələbəsi Oğuz Ayvazdan müsahibə almışdır.

Müsahibəni bu link vasitəsilə oxumaq olar:

http://www.sherg.az/site/id-41755/_"Şeirim_oxucumu_intihardan_xilas_etdi"

AN INTERVIEW OF KHAZAR UNIVERSITY STUDENT

"Sharg" newspaper had an interview on January 12, 2018, with Oghuz Ayvazov, a former student of Khazar University, who took part in a poem competition held on one of the TV channels.

A link of the interview.

http://www.sherg.az/site/id-41755/_"Şeirim_oxucumu_intihardan_xilas_etdi"





XƏZƏR UNİVERSİTETİ ECNƏBİ TƏLƏBƏLƏRİNİN ATƏŞGAH MƏBƏDİNƏ EKSKURSİYASI

EXCURSION OF SOME INTERNATIONAL STUDENTS TO THE TEMPLE OF ATESHGAH

2017-ci il dekabrın 23-də Xəzər Universitetinin ecnəbi tələbələri universitetin Tarix və arxeologiya departamentinin müəllimi Bayram Quliyevlə birlikdə Bakının Suraxanı rayonunda yerləşən və Azərbaycanın XVII-XVIII əsrlərə aid tarixi abidəsi olan Atəşgah məbədində oldular. Qədim atəşpərəstlərin inanc yeri olan Atəşgah məbədi müxtəlif ölkələrdən (İran, İraq, Yəmən, İndoneziya və Nigeriya) xarici tələbələrdə həm maraqlı və yeni, həm də fərqli bir təəssürat yaratdı.

Azərbaycanda multikulturalizmin izlərinin ötən əsrlərdə mövcudluğunu öz gözləri ilə görən tələbələr üçün daim yanan od müşahidə etmək bunun rəmzi sübutu idi. Demək olar ki, məbədin bütün otaqlarındakı eksponatlarla tanış olan tələbələr məbəddən gözəl təəssüratlarla ayrıldılar.

Ümumiyyətlə, tarix dərslərinin muzeylərdə tədris olunması nəinki xarici tələbələr, eləcə də, yerli tələbələr üçün də faydalı və ən yaxşı metodlardan biridir. Çünki tələbələrin tarixi hadisələrin bir parçası olan abidələri canlı olaraq öz gözləri ilə görmələri və onlara toxunmaları bu fənnin daha da keyfiyyətli öyrənilməsində əhəmiyyətli rol oynayır.

On December 23, 2017, some international students of Khazar University together with Bayram Guliyev, the senior lecturer of History and Archaeology department, visited the Ateshgah temple, one of the old historical monuments of Azerbaijan dating back to XVII – XVIII century, located in the Surakhani district near Baku city. The Ateshgah temple, which was a place of worship of Zoroastrianism, made a distinctive impression on the students from different countries (Iran, Iraq, Yemen, Indonesia and Nigeria). Eternal fire was a symbolic evidence of multiculturalism in Azerbaijan for the students which dates back to ancient times. Students became acquainted with all the exhibits in almost all rooms and left the temple with wonderful impressions.

Generally, teaching of the history lessons in museums is one of the best and useful methods for not only foreign students but also local students as observing and touching historical monuments, parts of historical events, have an important role for the higher quality study of this subject.

DƏRS İÇƏRİŞƏHƏRDƏ KEÇİRİLDİ

2017-ci il dekabrın 25-də Xəzər Universiteti Təhsil fakültəsinin tarix müəllimliyi ixtisasının 1-ci kurs tələbələrinə Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanovun tədris etdiyi arxeologiya fənni İçərişəhərdə - Qız qalası abidəsində və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Muzey-sərgi" zalında keçirildi.

Azərbaycanın arxeoloji inkişafı tarixi və maddi-mədəni irsinin öyrənilməsi üçün bu dərs çox əhəmiyyətli idi.

STUDENTS VISITED ICHERISHEHER

Teaching process of subject of Archeology, instructed by Orkhan Zamanov, for the first course students of Faculty of History of Khazar University was held in Icherisheher, Maiden Tower and "Museum-exhibition" hall of Institute of Archeology and Ethnography of Azerbaijan National Academy Of Sciences on December 25, 2017.

This practice was important in terms of development of archeology and research of cultural heritage of Azerbaijan.



UNİVERSİTETİN ƏMƏKDAŞLARININ GƏNCƏ VƏ MİNGƏÇEVİRƏ SƏFƏRİ

2017-ci il dekabrın 22-si və 23-də Xəzər Universitetinin potensial tələbələr üzrə işçi qrupunun koordinatoru professor Fuat Rəsulov və İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli Gəncə və Mingəçevir şəhərlərində oldular. Səfər zamanı həmin şəhərlərdə yerləşən müxtəlif orta məktəblər və hazırlıq kurslarının yuxarı sinif şagirdləri, onların valideynləri və müəllimləri ilə görüşlər keçirildi, Xəzər Universiteti və burada kadr hazırlığı aparılan ixtisaslar haqqında geniş məlumat verildi, videoçarx nümayiş etdirildi və iştirakçıların sualları cavablandırıldı.

Tədbir zamanı Gəncə və Mingəçevir şəhərlərində təhsil alan yuxarı sinif şagirdləri, onların valideynləri və müəllimləri ilə universitet rəhbərliyinin görüşlərinin davam etdirilməsi qərara alındı.

"ELM TV" KANALI XƏZƏR UNİVERSİTETİNDƏ KEÇİRİLƏN TƏDBİRİ YAYIMLADI

2017-ci il dekabrın 3-də Xəzər Universiteti Psixoloji Xidmət Mərkəzi, Əlilliyi olan Tələbələr üçün Mərkəz, Beynəlxalq Əlillər Cəmiyyəti və "Əlillər" qəzetinin birlikdə Xəzər Universitetində keçirdikləri tədbir Azərbaycan Milli Elmlər Akademiyasının "Elm TV" kanalı tərəfindən hazırlanan videomaterialda yer almışdır.

Videonu bu link vasitəsilə izləmək olar:

https://www.youtube.com/watch?v=NF8ZtEOx6Jk&feature=share

REPRESENTATIVES OF THE UNIVERSITY VISITED GANJA AND MINGACHEVIR

Fuat Rasulov, coordinator of the working group on prospective students of Khazar University, and Alovsat Amirbayli, director for Public Relations and Media, visited Ganja and Mingachevir, on 22-23 December, 2017. During the visit, university representatives held meetings with students of secondary schools and preparation courses as well parents and teachers. Moreover, the representatives gave full information on Khazar University, presented a promotion video of Khazar University and answered questions by participants.

It was decided that university administration should meet students, parents and teachers in Ganja and Mingachevir next year.

"ELM TV" CHANNEL BROADCAST AN EVENT HELD AT KHAZAR UNIVERSITY

"Elm TV" channel of Azerbaijan National Academy of Sciences prepared a video report on December 3, 2017 that broadcast the event at Khazar University organized on joint initiatives of Psychological Service Centre of Khazar University, Centre for the Students with Disabilities, International Society for People with Disability, and "Alillar" newspaper.

A link for the video report:

https://www.youtube.com/watch?v=NF8ZtEOx6Jk&feature=share





AMEA - NIN ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTUNUN ŞÖBƏ MÜDİRİ İLƏ GÖRÜŞ

2017-ci il dekabrın 26-da Xəzər Universitetində arxeoloq, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən "İlin alimi" mükafatına layiq görülmüş AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri t.ü.f.d Fərhad Quliyev Neolit inqilabı ilə bağlı təqdimat keçirdi. Dərsə başlamazdan əvvəl, Xəzər Universitetində müxtəlif kurslarda və ixtisaslarda təhsil alan 45 tələbənin iştirakı ilə birinci kursdan iki tələbənin Fərhad Quliyev haqqında təqdimatı oldu.

Tədbiri idarə edən Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova açılış çıxışında arxeologiya elminin tədrisinin əhəmiyyətindən danışdı. Tədbir "Qədim Şərq tarixi" dərsi müddətində keçirildi. Dərs başa çatdıqdan sonra geniş müzakirə aparıldı və tələbələrin çoxsaylı sualları cavablandırıldı.

MEETING WITH THE HEAD OF DEPARTMENT OF THE INSTITUTE OF ARCHEOLOGY AND ETHNOGRAPHY

On December 26, 2017, Farhad Guliyev, an archeologist, a PhD holder in History, head of the department of the Institute of Archeology and Ethnography, awarded with "A man of the year" prize by Science Development Foundation under the President of the Republic of Azerbaijan, held a presentation on the Neolithic Revolution in Khazar University. Before the presentation, the two first year students delivered a presenatation to 45 students from various courses and specialities. Roza Arazova, the moderator of the presentation, head of the department of History and Archeology, talked about the importance of study of archeology in her opening speech. The presentation was made during the lesson of "Ancient Eastern History". After the presentation, the presenter answered the questions and held a comprehensive discussion with the participants.







TƏLƏBƏLƏR "ƏSKİ ƏLİFBA"NI ƏLYAZMALAR İNSTİTUTUNDA ÖYRƏNİRLƏR

2017-ci il dekabrın 26-da Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi Xatirə Yusifova AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Təhsil fakültəsinin tələbələri ilə "Əski əlifba" fənni çərçivəsində "Əlyazma nümunələri ilə tanışlıq" mövzusunda dərs keçdi. Dərs müddətində tələbələr əlyazma nümunələri ilə yaxından tanış oldular.

Tələbələr Yaxın və Orta Şərq, Şimali Afrika xalqlarının elm və mədəniyyətinə aid türk, ərəb, fars dillərində qiymətli əsərlərlə, eyni zamanda, XIX-XX əsrlərdə yaşamış görkəmli elm və mədəniyyət xadimlərinin şəxsi sənədləri, əski çap kitabları, əvvəlki dövrlərin qəzet və jurnalları, müxtəlif mikrofilm və fotosurətlərlə tanış oldular.

STUDENTS LEARN "ANCIENT ALPHABET" IN INSTITUTE OF MANUSCRIPT

Khatira Yusifova, an instructor of the Department of Azerbaijan language and Literature of Khazar University, ran a lesson under a topic of "Introduction to samples of manuscripts" in Institute of Manuscripts named after Muhammad Fizuli for the students of Faculty of Education within framework of subject of "Ancient alphabet". Within this lesson students became closely familiar with samples of manuscripts. Moreover, students became fully acquainted with works, written in the Persian, Arabic and Turkish languages, belonging to cultures of Near East, Middle East and northern Africa as well as personal documents of prominent public figures of XIX-XX centuries, old books, journals and newspapers, various movies and photos.







GƏNC YAZIÇININ TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜ


2017-ci il dekabrın 27-də Xəzər Universitetinin Mərmər salonunda "33 fotoda həyat" adlı tədbir keçirildi.

Tədbirdə təlimçi və üç kitabın müəllifi ("Kvan", "Ubuntu", "Alamo 13") gənc yazıçı Coşqun Kərimov tələbələrlə təhsil və karyeraya aid müxtəlif mövzularda öz təcrübəsini bölüşdü. Qonaq öz üzərində daim işləməyin vacibliyini vurğuladı və bununla əlaqədar tələbələrə öz tövsiyələrini verdi. Tədbir sual-cavab sessiyası ilə bitdi.

YOUNG WRITER'S MEETING WITH STUDENTS

On December 27, 2017, an event entitled "Life in 33 Pictures" took place in the Marble Hall of Khazar University.

Trainer and the author of three books ("Kvan," "Ubuntu," and "Alamo 13") Joshqun Karimov spoke to students about education and career. He emphasized the importance of studying and continuous self-improvement and shared his recommendations with the audience. The event ended with a question and answer session.



"AZƏRBAYCAN ARXEOLOGİYASI" JURNALININ YENİ SAYI ÇAPDAN ÇIXIB

Xəzər Universitetinin nəşri olan "Azərbaycan arxeologiyası" jurnalının növbəti sayı (Cild: 20, Say: 2, 2017) çapdan çıxmışdır. Bu sayda tunc dövrünə xüsusilə geniş yer verilmişdir. Tunc dövrünün silahları, hərb işinin tarixşünaslığı və Kür hövzəsinin məskunlaşmasının təbii-coğrafi şəraitinə aid məqalələr vardır. Məqalələr həm elmi-nəzəri cəhətdən, həm də əməli cəhətdən aktuallığı ilə seçilir.

NEXT ISSUE OF "AZERBAIJANI ARCHEOLOGY" JOURNAL PUBLISHED

Next issue (Volume 20, Number 2, 2017) of "Azerbaijani Archeology" journal of Khazar University has been published. In this number, the journal specifically focused on the Bronze Age. There are articles about the Bronze Age weapons, historiography of military affairs, and natural-geographic conditions of the settlement in Kura basin. The articles are prominent in terms of theoretical and practical topicality.



ELMİ TƏDQİQAT İŞLƏRİNƏ DAİR SEMİNAR

2017-ci il dekabrın 27-də Xəzər Universitetində cari ilin sonuncu tədqiqat seminarı keçirildi. Seminar Xəzər Universitetinin PhD və Magistr Tələbə Birliyi tərəfindən təşkil edilmişdi. Seminarı universitetin Elmi işlər üzrə prorektoru dosent İradə Xəlilova açaraq qeyd etdi ki, ötən il universitetin müxtəlif tədqiqat sahələri üçün uğurlu olmuş, yüksək keyfiyyətli məqalələrin sayı əhəmiyyətli dərəcədə artmışdır. İl ərzində bir sıra yerli və xarici alimlərin iştirakı ilə çox maraqlı tədqiqat seminarları, jurnal klublar və elmi konfranslar keçirilmişdir. Həmçinin, bu il Xəzər Universitetinin Doktorant və Magistr Tələbə Birliyi yaradılmışdır. Birlik artıq doktorant tələbə şəbəkəsi yaratmış, effektiv yazı bacarıqlarına həsr edilmiş bir sıra praktik təlimlər, müxtəlif sahələrdə fikir mübadiləsinə aid görüşlər keçirmişdir.

Tədbirdə Böyük Britaniyanın London Middlesex Universitetində "Universitet idarəçiliyində tələbələrin iştirakı" mövzusunda tədqiqat işi aparan, Xəzər Universitetinin İnkişaf Mərkəzinin direktoru doktorant Raziyə İsayeva tədqiqat işi haqqında məlumat verdi. O, tədqiqatın məqsədini açıqladı, apardığı keyfiyyət və kəmiyyət analizi metodlarını, alınmış ilkin nəticələri müqayisəli təqdim etdi və özünün Middlesex Universitetində qazandığı bilik və təcrübələrini iştirakçılarla bölüşdü. Müxtəlif alimlərin bu sahədə olan fikir və nəzəriyyələrinə aid müqayisəli müzakirələr aparıldı. Qeyd olundu ki, bu tədqiqatdan alınmış nəticələrin Azərbaycan universitetlərində praktiki olaraq həyata keçirilməsi onların təkcə tələbə həyatında deyil, həm də universitetlərin tanınması və effektivliyinin artırılmasına da kömək ola bilər.

Seminar yeni il tədbiri ilə davam edərək, başa çatdı.

SEMINAR ON SCIENTIFIC RESEARCH WORKS

On December 27, 2017, last research seminar of this year was held at Khazar University. The seminar was organized by Khazar University Ph.D. & Master Student Association. Irada Khalilova, Associate Professor, Vice-Rector for Research, while opening the seminar, noted that the last year was successful for various research areas of the University and the number of high quality articles increased significantly. Many interesting research seminars, Journal Clubs, and Scientific Conferences were held throughout the year with participation of national and international scholars. Also, this year, Khazar University Ph.D. & Master Student Association has been established. They have already created student networks, organized workshops and seminars on effective writing skills, meetings on exchanging opinions of their ideas and practices.

Later, Ph.D. candidate Raziya Isayeva, Head of Development Centre at Khazar University, who is currently conducting her research at Middlesex University London (UK), made a speech on her Ph.D. thesis entitled "Participation of Students in University Management". She presented her research proposal, qualitative and quantitative research methodologies, primary results, and shared her knowledge and research experience gained at the Middlesex University. Interesting discussions were held during the seminar with contribution of participants, and comparison of different theories of scholars on this area was reviewed. It was noted that practical implementation of such results in Azerbaijani Universities not only could have a positive impact in the lives of students, but it could help Universities to increase their effectiveness and recognition.

The seminar was followed by a New Year event.



QALİBLƏRİN MUKAFATLANDIRILMASI

2017-ci il dekabrın 20-də NDU-da 2017-2018-ci tədris ilində universitetdaxili və muxtar respublika, eləcə də ölkə miqyaslı idman və bilik yarışlarında qələbə qazanmış tələbələrin mükafatlandırma mərasimi keçirilib.

Gənclərin asudə vaxtının səmərəli təşkilində, onların sağlam böyüməsində idmanın mühüm rolunu qeyd edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov muxtar respublikada gənclərin təhsilə və idmana cəlbi istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsindən danışıb. Rektor yarışlarda qələbə qazanmış bütün tələbələri təbrik edərək onlara uğurlar arzulayıb.

Universitet Tələbə İdman klubunun sədri, dosent Məmmədəli Rəhimov Klubun 2017-2018-ci tədris ilinə dair hesabatını diqqətə çatdırıb. Məlumat verilib ki, universitetdə tələbələrin idmanla məşğul olması üçün hər cür şərait mövcuddur.

Sonra mükafatların təqdimatı olub. Bakı şəhərində keçirilən kempo döyüş təlimi üzrə III Avrasiya birinciliyində 100 kq çəki dərəcəsində Səyyad Məmmədov I, Bakı şəhərində keçirilən budo döyüş növü üzrə dünya kuboku yarışında Vüqar Məhərrəmov I yerə layiq görülüblər. Kiyev şəhərində keçirilən karate-do üzrə Beynəlxalq turnirdə isə Sərcan Məmmədov III yerin sahibi olub.

İdmançılarımız Naxçıvan MR-də keçirilən bir neçə yarışda da iştirak edərək, yüksək nəticə göstəriblər. Qaliblərə və digər yerlərin sahiblərinə diplom və hədiyyələr təqdim edilib.

Tədbirdə həmçinin Universitet Tələbə Gənclər Təşkilatı tərəfindən keçirilən "10-17 noyabr Tələbə Gənclər həftəsi"nə həsr olunmuş bilik yarışmasında, eləcə də Fizika-riyaziyyat fakültəsinin təşkil etdiyi fakültələrarası bilik yarışmasında qalib gələn komandalar da təltif olunub.

Nərmin Cabbarova,
NDU Mətbuat şöbəsinin əməkdaşı

İNCƏSƏNƏT FAKÜLTƏSİNİN MUSİQİ TƏLİMİ KAFEDRASININ HESABAT KONSERTİ

2017-ci il dekabrın 22-də NDU İncəsənət fakültəsinin Musiqi təlimi kafedrasının hesabat konserti keçirilib. Azərbaycan klassik, xalq mahnılarından ibarət konsert proqramında xarici ölkə bəstəkarlarının da mahnıları ifa olunub. Solo oxuma ixtisasının tələbələri ilə yanaşı konsertdə instrumental ifalar da səsləndirilib. Muğamda öz bacarıqlarını ortaya qoyan tələbələrin ifası tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Qeyd edək ki, konsertin bədii rəhbəri pedaqogika üzrə fəlsəfə doktoru, dosent İsmayıl Mürsəlov idi.

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov müəllim və tələbələri təbrik edərək onlara uğurlar arzulayıb. Muxtar respublikada incəsənətin inkişafına, mütəxənni və aktyorluq, bəstəkarlıq, sənətşünaslıq sahəsində ali təhsilli mütəxəssis hazırlığına, sənət adamlarının fəaliyyətinə göstərilən dövlət qayğısından danışıb, hesabat konsertlərini istedadlı tələbələri üzə çıxarmaq, onlarda professional ifaçılıq məziyyətləri aşılamaq baxımından əhəmiyyətli hesab edib.



Konserti kafedranın müəllimlərinin və tələbələrin illik hesabatı kimi qiymətləndirən İncəsənət fakültəsinin dekanı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədova ümumilikdə hesabat konsertini qənaətbəxş qiymətləndirərək qeyd edib ki, gənc ifaçıların səhnədəki ilk kövrək addımları onların gələcək səhnə uğurları üçün əsaslı zəmin yaradacaq.

Səadət Əliyeva,
NDU Mətbuat şöbəsinin müdiri



NDU-NUN KOLLEKTİVİ BƏHRUZ KƏNGƏRLİ MUZEYİNDƏ

Yanvarın 8-də NDU-nun kollektivi "Muzey günləri" çərçivəsində Bəhruz Kəngərli Muzeyində olub. Bildirilib ki, teatr rəssamlığı, qrafika və digər janrlara müraciət edən, portret janrında dəyərli əsərlər yaradan Bəhruz Kəngərli bütün ömrü boyu mədəniyyətimizin inkişafı naminə yoruldmadan çalışıb. Görkəmli rəssam doğma Vətəninin gözəlliklərini tərənnüm edib. Onun kömür, karandaş, akvarel və yağlı boya ilə müxtəlif janrlarda yaratdığı 500-ə yaxın əsəri indi də incəsənət muzeylərinin dəyərli eksponatları sırasındadır. O, dövrünün görkəmli şəxslərinin rəsmlərini çəkib, portret janrında dəyərli əsərlər yaradıb. Azərbaycanlıların başına gətirilən müsibətləri, ermənilər tərəfindən doğma yurdundan zorla qovulmuş azərbaycanlı qaçqınların taleyini əks etdirən "Qaçqınlar" silsiləsinə daxil olan əsərləri Azərbaycan tarixinin, xalqın dəyərli nümunələridir. Sağlamlıq imkanları məhdud olan sənətkar cəmi 30 il ömür sürüb və maddi çətinliklərə baxmayaraq, əsərlərini sərgiləməklə kasıb ailələrin uşaqları üçün məktəb pulu toplayan, onların təhsil almasına köməklik göstərən təkcə bir rəssam deyil, həm də Azərbaycan xalqının görkəmli nümayəndəsidir.

Səadət Əliyeva,
NDU Mətbuat şöbəsinin müdiri

UNİVERSİTETDƏ AKADEMİK OMBUDSMAN TƏYİN OLUNDU

NDU-da akademik ombudsmanın təyinatına həsr olunmuş yığıncaq keçirilib. Ali təhsil ocağının beynəlxalq layihələrdə iştirakından söz açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov AESOP (Advocacy Establishment for Students through Ombudsman Position)- "Ombudsman vəzifəsi yaratmaqla tələbələrin təmsili təyin olunması" layihəsindən söz açıb. Rektor universitetdə ombudsman vəzifəsinin yaradılmasının Avropa təhsil sisteminə inteqrasiya yolunda mühüm addım olduğunu deyib. Universitetin akademik ombudsman vəzifəsinə Ceyran Quliyevanın namizədliyi irəli sürülüb. Səs çoxluğu ilə Ceyran Quliyeva universitetin akademik ombudsman vəzifəsinə təyin olunub.

Layihə barədə məlumat verən Xarici tələbələrlə iş üzrə dekan, Universitetin AESOP layihəsi üzrə işçi qrupunun üzvü, dosent Ceyran Quliyeva qeyd edib ki, layihə çərçivəsində universitet əməkdaşları üç ölkədə - Polşa, Portuqaliya və İtaliya universitetlərində olaraq orada fəaliyyət göstərən Ombudsman ofisləri ilə, onların iş fəaliyyəti ilə, ombudsman vəzifəsini yerinə yetirən nümayəndələrlə tanış olublar. Həmçinin, tədbir iştirakçılarına akademik ombudsmanın səlahiyyətləri haqda da məlumat verilib.

Nərmin Cabbarova,
NDU Mətbuat şöbəsinin əməkdaşı



NDU - DA ELMİ - PRAKTİK KONFRANS KEÇİRİLİB

Yanvarın 18-də NDU-nun İncəsənət fakültəsində "20 Yanvar faciəsi tariximizin şərəf və qəhrəmanlıq səhifəsidir" adlı elmi-praktik konfrans keçirilib.

Əvvəlcə universitet tələbələrinin müdhiş faciəyə həsr olunmuş rəsmlərindən ibarət sərgiyə baxış olub. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək qeyd edib ki, mənfur ermənilərin tarixən Azərbaycana qarşı yeritdiyi təcavüzkar siyasətinin davamı kimi meydana çıxmış yanvar hadisələri gənclərimizin yaddaşına əbədi həkk olunmalı, şəhidlərimizin xatirəsi daim uca tutulmalıdır.

Təsviri incəsənət kafedrasının müdiri, Azərbaycan Respublikasının Xalq rəssamı, dosent Hüseynqulu Əliyev əsərlər haqqında məlumat verib. Sərgidə keçmiş sovet qoşunlarının ölkəmizə yeridilməsinin acı nəticələrini və dinc əhaliyə qarşı törədilmiş amansız cinayətlərini özündə əks etdirən əsərlər yer alıb.

Fakültənin akt zalında davam edən tədbirdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib, sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Nadir Hüseynbəyli çıxışında bildirib ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə keçmiş Sovet İttifaqının qoşun hissələrinin yeridilməsi nəticəsində dinc əhaliyə divan tutulub, nəticədə Bakıda və Azərbaycan rayonlarında 146 nəfər öldürülüb, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunub; hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilib. Vurğulanıb ki, qabaqcadan düşünülüb hazırlanmış bu təcavüzkarlıq aksiyası xalqın demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşısa da, buna nail ola bilməyib və Azərbaycan xalqı uzun illərdən bəri arzusunda olduğu müstəqilliyə qovuşub.

Tədbirin ədəbi-bədii hissəsində tələbələrin ifasında şəhidlərə həsr olunmuş şeirlər və mahnılar səsləniib.

Sonda film nümayiş olunub.

Nərmin Cabbarova,
NDU Mətbuat şöbəsinin əməkdaşı



NDU TƏLƏBƏLƏRİ ÇANKIRI KARATEKİN UNİVERSİTETİNDƏ SEMESTRİ UĞURLA BAŞA VURUBLAR

2017-ci ilin sentyabr ayında Türkiyənin Çankırı Karatekin Universitetində 1 semestrlik təhsil almaq üçün göndərilən 15 tələbə semestri uğurla bitirib, Naxçıvana qayıdıblar. Bu münasibətlə yanvarın 19-da keçirilən tədbirdə çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov universitetin beynəlxalq əlaqələr sahəsində qazandığı uğurlara toxunaraq, xarici ölkələrlə bağlanmış beynəlxalq əhəmiyyətli layihələrdən danışıb. Dövlət dəstəyi hesabına milli təhsil sistemimiz günü-gündən inkişaf edir - deyən rektor ali təhsil ocağının Bolonya bəyannaməsinin müddəalarına müvafiq olaraq tələbə və müəllimlərin akademik mobilliyini əsas saymalarını və bu istiqamətdə tələbə mübadiləsini davam etdirdiklərini diqqətə çatdırıb. Qeyd olunub ki, artıq müvafiq ixtisaslar üzrə tələbələr seçilib və 1 semestr təhsil almaq üçün 4 tələbənin Şota Rustavelli adına Batumi Dövlət Universitetinə, 3 tələbənin isə Penza Dövlət Universitetinə göndərilməsi planlaşdırılır.

Çankırı Karatekin Universitetində təhsil alan tələbələrdən Turizm və otelçilik ixtisası üzrə III kurs tələbəsi Rəcəb Səfərov keçirilən imtahan nəticələrinə görə qrup üzrə 27 tələbə arasında I yeri tutub. Fortepiano ifaçılığı ixtisası üzrə III kurs tələbəsi Rövşənə İsmayılovanın isə klassik musiqilərlə bərabər Azərbaycan mahnılarından ibarət solo konserti olub. Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Sevinc Abbasova tələbələrin ixtisas təhsili ilə bərabər Naxçıvan Dövlət Universitetini, muxtar respublikanın tanıdılması istiqamətində gördükləri işlərdən danışıb. Tələbələr adından göstərilən diqqət və qayğıya görə minnətdar olduğunu bildirib.

Qeyd edək ki, Erasmus+Key Action çərçivəsində NDU-nun 10 nəfər müəllimi 2017-ci ilin aprel ayında Çankırı Karatekin Universitetində 1 həftəlik müəllim mübadiləsi proqramında iştirak edib. Eyni layihə əsasında bu il fevral ayının 25-dən martın 3-ə kimi universitetin 13 nəfər müəllim heyəti həmin universitetdə olacaq.

Səadət Əliyeva,
NDU Mətbuat göbəsinin müdiri





TƏLƏBƏLƏR UŞAQ PSİXONEVROLOJİ MƏRKƏZİNDƏ OLDULAR

Yanvarın 12-də Xəzər Universitetinin Təhsil; Mühəndislik və tətbiqi elmlər; İqtisadiyyat və menecment fakültələrinin birinci kurs tələbələrinin N.Nərimanov rayonunda yerləşən Uşaq Psixonevroloji Mərkəzindəki uşaqlarla görüşü keçirildi.

Görüşdə tələbə-könüllülər uşaqlar üçün əyləncəli proqram təqdim etməklə yanaşı, onlara müxtəlif hədiyyələr verdilər.

STUDENTS VISITED A CHILD PSYCHONEUROLOGICAL CENTER

On January 12, the first year students of the School of Education, the School of Engineering and Applied Sciences and the School of Economy and Management visited the Child Psychoneurological Centre, located in N. Narimanov district.

During the meeting, Khazar University volunteer students presented an entertainment program as well as various gifts to the children.

İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜƏLLİMİNƏ FƏLSƏFƏ DOKTORU DİPLOMU VERİLMİŞDİR

AN INSTUCTOR OF THE DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE WAS PRESENTED A PHD DEGREE DIPLOMA





AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

14 dekabr 2017-ci il tarixli (protokol № 34 - K)
qərarı ilə

Elmira Əyyub qızı Əliyevaya

filologiya üzrə
FƏLSƏFƏ DOKTORU
elmi dərəcəsi verilmişdir

Ali Attestasiya Komissiyasının Sədri

Ali Attestasiya Komissiyasının Baş Elmi Katibi Xaqizadə

2017-ci il dekabrın 14-də Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında (AAK) diplomların təqdim olunması mərasimi keçirilmişdir. Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Elmira Əliyevaya da filologiya üzrə fəlsəfə doktoru diplomu verilmişdir.

Diploma presentation ceremony was held in Higher Attestation Commission under the President of the Republic of Azerbaijan on December 14, 2017. At the ceremony, Elmira Aliyeva, an instrctor of the Department of tEnglish Language and Literature of Khazar University, was presented a PhD degree diploma in Philology.



"AZƏRBAYCAN ARXEOLOGİYASI" JURNALININ REDAKSİYA HEYƏTİNİN İCLASI

Yanvarın 12-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentində "Azərbaycan arxeologiyası" jurnalının redaksiya heyətinin iclası keçirildi. İclasda "Azərbaycan arxeologiyası" jurnalının 2018-ci il 1-ci sayının xüsusi buraxılışı üçün hazırlanan məqalələrin keyfiyyəti haqqında ətraflı müzakirələr aparıldı. Jurnalda ediləcək yeniliklər də müəyyənləşdirildi.

İclasda "Azərbaycan arxeologiyası" jurnalının baş redaktoru, tarix üzrə elmlər doktoru, professor Qüdrət İsmayılzadə, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri t.ü.f.d Fərhad Quliyev, Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, departamentin müəllimi Orxan Zamanov və assistenti Akifə Cəfərli iştirak etdilər.

MEETING OF EDITORIAL STAFF OF "AZERBAIJANI ARCHEOLOGY" JOURNAL

Meeting of editorial staff of "Azerbaijani Archeology" journal was held on January 12, 2018, at the Department of History and Archeology of Khazar University. There was considerable discussion of the quality of articles to be published in the special issue of the first number, 2018, of "Azerbaijani Archeology" journal. Also, the staff determined innovations within the journal.

Prof. Gudrat Ismayilzadeh, Doctor of Science in History, editor-in-chief of "Azerbaijani Archeology" journal, Farhad Guliyev, PhD in History, Head of the Department of Institute of Archeology and Ethnography and Roza Azarzova, Head of the Department of History and Archeology, as well as Orkhan Zamanov, a lecturer of the department and Akifa Jafarli, the assisstant participated in the meeting.



QIZIL PAYIZ LÖVHƏLƏRİ VƏ QARABAĞ...

(esse - etüd)

Eldar Şahgəldiyev
fəlsəfə doktoru, Xəzər Universitetinin dosenti

Xəzər Universitetinin Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri, fəlsəfə doktoru, dosent Eldar Şahgəldiyevin 2018-ci il yanvarın 17-də aznews.az saytında dərc olunmuş "Qızıl payız lövhələri və Qarabağ..." adlı esse - etüdünü oxucularımıza təqdim edirik.

Əsrlərlə ilin fəsillərini müxtəlif ölçü-biçidə izah etməyə çalışmışıq, onlarla bağlı adət-ənənələrin geniş çeşidini yaratmışıq və nəsildən-nəslə ötürmüşük.

Fəsillərə olan münasibət istər ailədə, istər cəmiyyətdə, istərsə də kiçik bir toplumda, məsələn, elə Qarabağda xüsusi mahiyyət kəsb etmişdir; onun müxtəlif dövrlərinin insan həyatı ilə bağlı olması, insanlarda bəzən kədər, bəzən isə sevinc dolu hisslərlə xatırlanması, sanki, onlara bir bəşərilik mahiyyəti aşılamışdır. Fəsillərin içərisində payıza münasibət həmişə oz rəngarəngliyi ilə seçilmiş, yazarların qələmlərində xeyli vəsf olunmuşdur.

Payız lacivərd yağışların başlamasını gözləyir ki, gəlsin... gəlsin ki, yarpaqlar da öz rənglərini dəyişərək tökülsün, payız xəzanı yaratsın. Belə başlayır qızıl payız. Oyuq zəfəran səmasına qarşı dayanan tünd təpələr, onun tünd qırmızı bayraqcıqları ilə örtülür və insanların ürəklərini ehtizaza gətirən bir təbiət yaranır - qızıl payızda. Biz bu fəsli "qızıl" adlandırırıq. Payız etüdləri cövlan edir xəyallarda: qürubun günbəzi uzun müddət vadilər yalanını sakitləşdirir, yalnız küləklərin əsdiyi alaqaralanlığı yırğalayaraq, yarpaqsız ağacların arfaları arasında özünə xəfif iz açır payız. Fantastik röyalar və qəmgin melodiyalar doğursa da, payızın soyuq və bənövşəyi hava düzümünə, cənub-qərb parıltılarında böyük qızıl ulduzun bərq vurmasına yenə də məftundur insanlıq.

Bu füsunkarlığı Azərbaycan bayrağının dalğalarında daha fəxarətlə hiss edirik; külək və dalğalanan möhtəşəm Azərbaycan bayrağı, sanki, bizi təbiətin yaratdığı şiltaqlıqlara qarşı daha da mətin olmağa hazırlayır. Yellənən budaqları və sehrli səsləri yanımıza çağırmaq, öz səsimizə qarışdırmaq istəyirik... Qarabağın payızını xatırlayırıq. Hələ də kölgələrdə dolaşarıq, sanki, sonradan güc toplayaraq heyranlıqla Qarabağ çöllərini qucacağıq deyə. Payız küləyinin melodiyaları Qarabağ melodiyalarına qarışıb sanki... bircə diqqət kəsilmək gərəkdir. Gecələrin ələkeçməz gözəlliyini içmək və ürəyimiz doyana kimi bu füsunkarlıqla "dolub-boşalmaq" istəyirik. Budur - qızıl payızın yaratdığı möcüzə və ehtizazlar, Qarabağ payızının "musiqi silsiləsi". Külək, yağış, dolu, qar, göy gurultusu, şimşək... onların hər birində Qarabağ hiss olunur... bəlkə onları elə Allah oradan bizlər üçün göndərib?! Göndərib ki, Qarabağın payızını xatırlayaq, payız lövhələri isə bir-birini əvəz edərək, həyəcanlarla dolu bir həyat yaşatsın bizlərə...

Mövsümlər, bitkilərdə mürgünün və heyvanlarda fəaliyyətsizliyin dövrələrinə tez-tez səbəb olan günəş işığı miqdarında, dəyişikliklər gətirir bu fəsildə. Belə də payız olar heç?! Təkcə payız var, Qarabağ payızı isə hələ də yanımızda deyil... onu doyunca yaşaya bilmirik... bəs bu adəti niyə yaşatmırıq?!


Müdriklik elmindən bilirik bunu - Qarabağımızın "QIZIL PAYIZI"na qovuşacağımız gün indi çox da uzaqda deyil; çünki hər keçən Aprel günləri bizi bu payıza daha da yaxınlaşdırır.

İnşallah, şəhidlərimizin ruhu naminə Qarabağın payızını qucmaq arzularıyla!

http://www.aznews.az/news/cemiyyet/162563.html



Ağdam, Şahbulaq kəndi



Şuşa, Daşaltı dərəsi

XƏZƏR UNİVERSİTETİ MULTİMEDİA MƏRKƏZİ TƏQDİM EDİR

Xəzər Universiteti Multimedia mərkəzinin əməkdaşları Bakıda və İstanbulda maraqlı görüntüləri lentə almışlar.



Azər Mustafazadə (Bakı)

İsmət Məmmədova (Bakı)





Fərid Ağalarov (İstanbul)



Azər Mustafazadə (Bakı)



Fərid Ağalarov (İstanbul)



AZƏRBAYCAN - PAKİSTAN STRATEJİ TƏRƏFDAŞLIĞI

Xaqan Balayev
AMEA Hüquq və İnsan Haqları İnstitutunun aparıcı elmi işçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru, Xəzər Universitetinin müəllimi

Keçən əsrin 90-cı illərində Sovet İttifaqının tənəzzülü və tarix səhnəsindən silinməsi nəticəsində Avrasiyanın geosiyasi konfiqurasiyasında yeni müstəqil dövlətlər meydana gəlmiş, dövrün reallıqlarına, həmçinin öz dövlət maraqlarına uyğun olaraq bu geosiyasi aktorlar beynəlxalq münasibətlər sistemində mövqelərini möhkəmləndirmək, dinamik inkişaflarını təmin etmək üçün qlobal dünya siyasətində fəal rol oynamağa çalışmışlar.

Siyasi arenaya uğurla qədəm qoymuş belə aktorlardan biri də Azərbaycan Respublikasıdır. 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan həm qərbdə, həm də şərqdə beynəlxalq hüququn bütün subyektləri ilə bərabərhüquqlu əməkdaşlıqda maraqlı olmuş (digər tərəfdən qeyd etməliyik ki, suverenliyimizin ilk illərində bəzi qonşu dövlətlərlə siyasi yanaşma tərzində müəyyən səhvlərə yol verilmişdir), böyük güc mərkəzləri ilə inteqrasiya proseslərinə xüsusi diqqət yetirmişdir. Eyni zamanda, Azərbaycan Respublikasının beynəlxalq əlaqələrində şərq ölkələri ilə tərəfdaşlıq məsələləri daim mühüm əhəmiyyət kəsb etmiş, xarici siyasət kursunun prioritet istiqamətlərindən sayılmışdır. Təsadüfi deyil ki, ölkəmizin üzv olduğu ilk beynəlxalq təsisat da Asiya ölkələrinin təşkilatı olan İslam Konfransı Təşkilatı (İKT - 2011-ci ilin iyulundan İslam Əməkdaşlıq Təşkilatı -İƏT) olmuşdur.

Azərbaycan-Asiya yaxınlaşmasında ideoloji amil də önəmli təsirə malikdir. Qərbin xristian ölkələrindən (erməni lobbisinin təbliğat imkanlarının çoxşaxəli olduğu ölkələr) fərqli olaraq, burada islam dininə mənsub olan ölkələr üstünlük təşkil edirlər. Bu baxımdan Azərbaycan şərqin aparıcı dövlətlərindən olan və dünya siyasətində böyük nüfuza malik Pakistan ilə əlaqələrinə xüsusi önəm vermiş, geosiyasi və geoiqtisadi sahələrdə onunla əməkdaşlığı dövlət mənafeyi üçün zəruri hesab etmişdir.

Pakistan Respublikası Azərbaycanın müstəqilliyini tanıyan (1991) ilk ölkələrdən biri olmuşdur. Ölkələrimiz arasında diplomatik münasibətlər 1992-ci ildə qurulmuşdur. Pakistan Cənubi Asiyanın ən nüfuzlu dövlətlərindən olmaqla yanaşı, həmçinin nüvə silahına malik yeganə müsəlman dövlətidir. Beynəlxalq arenada Azərbaycan-Pakistan münasibətləri strateji müttəfiqlik səviyyəsindədir.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində Pakistan daim Azərbaycanı müdafiə etmiş, ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən fərqli olaraq, birmənalı şəkildə ölkəmizin mənafeyinə uyğun siyasət yeritmişdir. Eyni zamanda, Azərbaycan da BMT qətnaməsinə əsaslanaraq, Kəşmir probleminin həllində (1947-ci ildə Hindistan ordusu Pakistana məxsus Kəşmir əyalətinin bir hissəsini işğal etmişdir) Pakistanı dəstəkləmişdir.

Mütəmadi qaydada hər iki ölkə arasında yüksək səviyyəli siyasi əlaqələr həyata keçirilir. Belə siyasi münasibətlərin başlanğıcı 1995-ci ilin oktyabrında Pakistan İslam Respublikasının prezidenti Sərdar Faruq Əhməd Xan Leqarinin Azərbaycana rəsmi səfəri ilə qoyulmuşdur. Bunun ardınca prezident Heydər Əliyevin 1996-cı ilin aprel ayında Pakistana səfəri zamanı iqtisadi, siyasi, mədəni sahələrdə əməkdaşlığa dair mühüm müqavilələrin imzalanması iki ölkə arasındakı əlaqələri daha da möhkəmləndirmişdir.

2000-ci illərin ortalarından başlayaraq ölkə başçıları səviyyəsində növbəti görüşlər reallaşmışdır. Belə ki, 2004-cü ilin iyulunda Pakistan prezidenti Pərviz Müşərrəf Azərbaycana rəsmi səfər etmişdir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevlə görüş zamanı Pərviz Müşərrəf Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini müdafiə etdiyini qəti şəkildə bildirmişdi. Həmçinin ölkə rəhbərləri qarşılıqlı münasibətlərin inkişaf istiqamətləri barədə danışıqlar aparmış, dövlət əhəmiyyətli bir sıra sənədləri - narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında, beynəlxalq terrorçuluq, turizm, gömrük işi sahəsində hökumətlərarası sazişləri imzalamışdılar. Yekun olaraq Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında Birgə Bəyannamə qəbul edilmişdi. 2005-ci ilin aprelində isə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Pakistanda rəsmi səfərdə olmuşdur. Prezidentlər - İlham Əliyevlə Pərviz Müşərrəfin görüşündə sosial-siyasi həyatın müxtəlif sa-

sahələri üzrə (informasiya, maliyyə, nəqliyyat və s.) 6 əməkdaşlıq sazişi imzalanmışdı.

Azərbaycan və Pakistan Respublikaları ölkələrarası münasibətlərdən əlavə, beynəlxalq təşkilatlar formatında da əlaqələr saxlamışlar. Bu kontekstdə dövlətlərimizin İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində əlaqələrini xüsusi qeyd edə bilərik. Məhz bu aspektdə 2000-ci ilin iyununda Tehranda və 2002-ci ildə İstanbulda keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının sammitlərində Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevlə Pakistan prezidenti Pərviz Müşərrəfin görüşləri baş tutmuşdur.

İqtisadi Əməkdaşlıq Təşkilatının növbəti belə sammitlərindən biri (12-ci Zirvə Toplantısı) 2012-ci ilin oktyabrında Bakıda keçirilmişdir. Bununla əlaqədar Pakistan prezidenti Asif Əli Zərdari Azərbaycana işgüzar səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan və Pakistan prezidentləri arasında qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmişdi. Dövlət rəhbərləri səviyyəsində görüşlərdən əlavə, Azərbaycan-Pakistan münasibətlərində parlamentlərarası əlaqələr də mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, 2008-ci ilin iyununda Pakistan Senatının sədri Muhammədmian Sumro ölkəmizdə səfərdə olmuş, Azərbaycan Parlamentinin 90 illiyi münasibətilə keçirilmiş tədbirdə iştirak etmişdi. 2013-cü ilin fevralında isə Milli Məclisin sədri Oqtay Əsədov İqtisadi Əməkdaşlıq Təşkilatının Parlamentlərarası Assambleyasının 1-ci iclasında iştirak etmək üçün Pakistana işgüzar səfər etmişdir.

Azərbaycanın Pakistanla əməkdaşlığında hərbi-siyasi faktor da mühüm rol oynamışdır. Bu cəhətdən Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında 2002-ci ildə imzalanmış Müdafiə və Hərbi sahədə əməkdaşlıq haqqında sazişdə hər iki ölkənin hərbi-siyasi sahədə tərəfdaşlığının prioritet istiqamətləri əks olunmuşdu. Bu müqavilə ilə dövlətlərimiz arasında hərbi əlaqələr daha da genişlənmiş, silahlı qüvvələrimiz üçün Pakistan istehsalı olan təyyarələr və digər silah növləri əldə edilmişdi. 2015-ci ilin martında Pakistan Respublikasının Birləşmiş Qərargahının Xarici Hərbi Əməkdaşlıq Baş İdarəsinin direktoru general-mayor İftixar Vayn Azərbaycanda səfərdə olmuş, ikitərəfli hərbi əməkdaşlıq əlaqələrinin gücləndirilməsi istiqamətində danışıqlar aparmışdır. Bu səfər prosesində Azərbaycan və Pakistan ikitərəfli hərbi əməkdaşlıq protokolu imzalanmışdı. Ermənistanla müharibə vəziyyətində olan Azərbaycan üçün bu hərbi əlaqələr zəruri əhəmiyyətə malik idi.

Pakistanla hərbi tərəfdaşlığımız ordumuzun döyüş qabiliyyətinin yüksəldilməsinə önəmli təsir etmiş, həmçinin zabit kadrlarımız qardaş ölkənin ali hərbi məktəblərində təhsil alaraq daha da təkmilləşmək imkanı qazanmışdılar. Geosiyasi müstəvidə isə Azərbaycan özünə nüfuzlu müttəfiq əldə etmiş, bu isə beynəlxalq aləmdə dövlətimizin mövqelərinin daha da güclənməsinə şərait yaratmışdı.

2016-cı ildə Ermənistanla aprel döyüşləri zamanı isə məsələyə münasibət bildirən Pakistan prezidentinin katibi Əhməd Fərux demişdi ki "Pakistan həmişə Azərbaycanın yanındadır" və "Azərbaycana qardaş və dost ölkədir". Beynəlxalq səviyyəli bir sıra tədbirlərdə Pakistan daim Azərbaycanı Dağlıq Qarabağ məsələsində müdafiə etmiş, ölkəmizə qarşı erməni təcavüzünü qətiyyətlə pisləmişdir. Eyni zamanda, Pakistan dünyada yeganə dövlətlərdən biridir ki Ermənistanla diplomatik əlaqələr qurmamış, onu tanımamışdır.

Nəticə etibarilə deyə bilərik ki, Azərbaycan-Pakistan strateji tərəfdaşlığı bu gün də uğurla inkişaf etməkdədir.

İstifadə olunmuş ədəbiyyat

Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri: 1991-2016: [məqalələr toplusu] / red.: F. Məmmədov, C. Vəliyev, A. Məmmədov; Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı: Poliart MMC, 2017.- 904 s.

Kərimov C. Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi. Beynəlxalq iqtisadi təşkilatlar / C. H. Kərimov, A. İ. Orucov, H. A. İsrafilov; elmi red.: M. Məmmədov, F. Rəhimli; Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Dövlət İqtisad Universiteti.- Əlavələrlə II nəşri.- Bakı, 2012.- 388 s.

Sana İmran: Azərbaycan Cənubi Qafqazın sürətlə inkişaf edən, təhlükəsiz müsəlman ölkəsidir". Xəzər Universitetinin pakistanlı doktorantı ilə müsahibə. "Xəzər Xəbər" jurnalı, fevral 2017-ci il, № 359

Государство, общество, международные отношения на мусульманском Востоке: Афганистан, Иран, Пакистан, Турция, этнический Курдистан, соседние мусульманские районы: сборник / Н. Ю. Ульченко [и др.]; сост. В. И. Сотников; редкол.: О. И. Жигалина, Н. М. Мамедова, С. Н. Кисленя; отв. ред.: В. Я. Белокреницкий, Н. Ю. Ульченко; Российская Академия Наук, Федеральное государственное бюджетное учреждение науки, Институт Востоковедения РАН.- М.: ИВ РАН: Крафт+, 2014.- 608 с.

Abbasova N. Pakistan keen for broader cooperation with Azerbaijan / N. Abbasova // AzerNews. - 2017.- February 8.- № 10. - P. 2.

Muhammad Asif. New Page in Azerbaijan-Pakistan relations / M. A. Noor // AzerNEWS.- 2016.- October 19.- № 79.- P. 3.


Shirinov R. Pakistan says Armenia's destroying monuments in occupied Azerbaijani lands unacceptable / R. Shirinov // AzerNews.- 2017.- November 3.- № 84.- P. 4.

"Huge trade potential exists between Azerbaijan and Pakistan, which incidentally has remained untapped", Sana Imran the Pakistani researcher, who is pursuing her 'Doctorate in Economics' from Khazar University, Azerbaijan told in her interview to AzVision.az. 15 December 2017. https://en.azvision.az/news/%2077220/-azerbaijan-can-serve-%20as-transit-and-logistic-hubs-%20to-its-region-and-beyond-.html

"XƏZƏR"İN ƏMƏKDAŞLARININ MƏQALƏLƏRİ ÇAP OLUNUB

ARTICLES OF KHAZAR UNIVERSITY STAFF PUBLISHED

***



AMEA-nın "Xəbərlər (Humanitar elmlər)" jurnalı 2017-ci ildəki son buraxılışında (№2) **Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi Qardaşxan Əzizxanlının** "Çağdaş Azərbaycan şeirində xalq arxetipi və xalq yaradıcılığı problemi" adlı məqaləsinə də yer ayırmışdır.

Məqalədə vətəndaşlıq lirikasının mənbəyi kimi şairin tərənnüm etdiyi xalq, mənsub olduğu millət göstərilir. Bildirilir ki, M.Araz, S.Tahir AzərAzər və M.İsmayıl lirikasının mənbə və qaynaqları xalq mövzusu (arxetipi) və folklorumuz kontekstində araşdırılmayıb. Məqalə bu istiqamətdə atılmış ilk addımlardan sayıla bilər.

Məqalə ilə bu linkdə tanış ola bilərsiniz: *http://www.khazar.org/az/news/article/2765*

An article "People archetype and creativity problem in contemporary Azerbaijan poetry" by **Gardashkhan Azizkhanli, an instructor of the Department of the Azerbaijan language and literature,** was published in the last issue of "Khabarlar (Humanities)" journal (№2) of Azerbaijan National Academy of Sciences, 2017.

The article represents people as the source of national lyric. Also, the author mentions that the source and origin of lyrics by M.Araz, S.Tahir, A.Azer and M.Ismayil have not been researched yet in the context of archetype and folklore. This article can be considered an initial step in the above-mentioned issue.

A link to the article: *http://www.khazar.org/az/news/article/2765*

AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun nəşri olan "Filologiya məsələləri" jurnalının 2017-ci il 18-ci sayında **Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi Qardaşxan Əzizxanlının** "Çağdaş vətəndaşlıq lirikasında milli birlik motivləri (Məmməd Araz, Söhrab Tahir AzərAzər və Məmməd İsmayılın yaradıcılığı əsasında") adlı elmi məqaləsi çap olunmuşdur.

An article "National unity motives in contemporary citizenship lyric (on the basis of works by Mammad Araz, Sohrab Tahir Azarazar and Mammad Ismayil)" by **Gardashkhan Azizkhanli, an instructor of the department of the Azerbaijan Language and Literature,** was published in "Issues of Philology", a journal of Institute of Manuscripts named after Muhammad Fuzuli, issue 18, 2017.

***

İqtisadiyyat və menecment fakültəsinin dekan müavini Dr. Şəhriyar Muxtarovun "Measuring International Migration in Azerbaijan" adlı məqaləsi İsveçrədə nəşr edilən "Sustainability" jurnalının 2018-ci il 1-ci sayı, 10-cu buraxılışında çap olunmuşdur. Sözü gedən jurnal Thomson Reuters (SSCI Impact Factor: 1.789) kimi nüfuzlu məlumat bazalarında indekslənir.

Məqalə Azərbaycanda miqrasiya məsələlərinin araşdırılmasına həsr olunmuşdur.

Məqaləni bu link vasitəsilə oxumaq olar:
http://www.mdpi.com/2071-1050/10/1/132

The research paper "Measuring International Migration in Azerbaijan" by **Dr. Shahriyar Mukhtarov, vice dean of the Faculty of Economics and Management,** was published in Sustainability, No 1, Vol 10, 2018. The journal is indexed by Thomson Reuters (SSCI Impact Factor: 1.789), the prestigious abstract and citation database of peer-reviewed literature.

The study investigates influencing factors of international migration in Azerbaijan.


The paper is available at:
http://www.mdpi.com/2071-1050/10/1/132

***

Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Validə Kərimovanın (doktorant) "N.Çomskinin Kartezian dilçiliyə münasibəti:dilin anadangəlmə olması prinsipi" adlı məqaləsi "Filologiya məsələləri" jurnalının 17-ci sayında çap edilmişdir. Məqalədə dilçiliyin inkişafından, dilin empirik tədqiqindən və s. geniş söhbət açılır.

Məqaləni tam şəkildə aşağıdakı link vasitəsi ilə oxumaq olar:

http://www.filologiyameseleleri.net/pdf/2017/n17.pdf




A paper "N. Chomsky's attitude to Cartesian linguistics: nativist theory of language" by Valida Karimova (PhD), Vice-dean of School of Humanities and Social Sciences, was published in "Issues of Philology", Number 17 (ISSN 2224-9257). The article widely deals with language development and empirical researches in linguistics.

A link to the full article:

http://www.filologiyameseleleri.net/pdf/2017/n17.pdf

***



Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu, dosent Zülfiyyə Sadıqovanın "Sərdar Fərəcovun fortepiano miniatürləri" adlı məqaləsi "Musiqi dünyası" jurnalının 2017-ci il 3-cü sayında dərc olunmuşdur.

Məqalədə görkəmli bəstəkarın fortepiano miniatürlərində sənətkarlıq xüsusiyyətləri araşdırılır.

An article "Sardar Farajov's piano miniatures" by Associate professor Zulfiyya Sadigova, Honored instructor, pianist, Head of the Department of Music and Fine Arts of Khazar University, was published in the 3rd number, 2017, of "Musigi dunyasi" journal.

The article deals with a virtuoso performance in piano miniatures of the prominent composer.

***

***



Mühəndislik və tətbiqi elmlər fakültəsinin Mexanika mühəndisliyi departamentinin koordinatoru Dr. Mirsadiq Seyidzəvvarın "Sonlu element analizinə əsaslanan çubuqla birləşdirilən yüksək göstəricili dizel mühərrikinin dizaynı" adlı tədqiqat məqaləsi "Braziliya Mexanika Elmləri və Mühəndisliyi Cəmiyyəti"nin elmi jurnalında çapdan çıxmışdır.

Məqalənı bu link vasitəsilə oxumaq olar:

https://link.springer.com/article/10.1007%2Fs40430-018-0988-9

A research paper "Design of high duty diesel engine connecting rod based on finite element analysis" by **Dr. Mirsadegh Seyedzavvar, Coordinator of Mechanical Engineering Department of the of the School of Engineering and Applied Sciences,** was published in the "Journal of the Brazilian Society of Mechanical Sciences and Engineering".


The link of this paper is as follows:

https://link.springer.com/article/10.1007%2Fs40430-018-0988-9

***


Təhsil departamentinin müəllimi və koordinatoru Qoşqar Məhərrəmovun "Türk Tipi Liderlik" adlı publisistik məqaləsi Türkiyənin "Üç Çizgi" jurnalının 2017-ci il 4-cü nömrəsində çap olunmuşdur. Məqalədə tarixdəki türk millətlərindən və başqa millətlərdən olan liderlərin liderlik xüsusiyyətləri və davranışları müqayisəli təhlil edilmişdir.

An article "A Turkish type leadership" by **Goshgar Maharramov, a lecturer and coordinator of the Department of Education,** was published in "Uch jizgi" journal in Turkey. The author offers comparative analyses of leadership characteristics and behaviors of historical leaders of Turkish peoples and other peoples. The article specially stresses that leadership is based on social aspects but not on ancestry and gene.



Təhləli Novruz

Şeirlər



Hörmətli redaksiya! Şair Təhləli Novruzun üç şeirini sizə təqdim edirəm.

Təhləli Novruz 1912-ci ildə Gürcüstanın Qarayazı elinin (indiki Qardabani rayonu) Qaratəhlə kəndində anadan olmuşdur. Gəncliyindən xalq yaradıcılığına meyl edən Novruz aşıq şeirinin müxtəlif formalarında qələmini sınamış, el-obasında tanınmış şair olmuşdur.. 2003-cü ildə çap olunmuş "Dağlar, eyil, yar görünsün..." adlı irihəcmli kitabında qoşma, təcnis, gəraylı, müxəmməs və digər əsərləri toplanmışdır.

Təqdim etdiyim şeirlərdən qıfılbənd formasında yazılmış ikisi indiyədək çap olunmamışdır. "Bayram günləri" şeirinin isə əvvəlki çaplarında təhriflərə yol verildiyi üçün düzgün variantını nəzərinizə çatdırıram.

Kərim Kərimov,
Xəzər Universitetinin əməkdaşı

Beş yaşından on beş yaşa yetişdim

Beş yaşından on beş yaşa yetişdim,
Beşi səqir, beşi qəbir, beşi nə?
Haqq adından doğru raha yetişdim,
Mayıl oldum ənbiyanın beşinə

O nədir ki, öz işində çarasız,
Qan tökülür cəsədindən yarasız,
On beş şeydi göydən enən qarasız,
Beşi oruc, beşi namaz, beşi nə?

Könül bənzər dağ başında dumana,
Şair Novruz, mən də yetdim imana,
On beş şey var gərək deyil insana,
Beşi üsyan, beşi üdvan, beşi nə?

Səqir - ərəbcə "səqər" - "cəhənnəm" sözünün təhrif olunmuş forması; Rah - yol; Ənbiya – "nəbi" (peyğəmbər) sözünün cəmi; Üdvan - düşmənçilik, zülm, haqsızlıq

Bir sirrə mən təcüb qaldım

Bir sirrə mən təcüb qaldım, yaradan sübhanə bax!
Üç yolla gönünü soydum, dəstim batıb qana bax!
Həm öldür, həm dirilir, yeniyetmə, növrəsə,
Tərpədəndə qan ağlayır, zənd eylə, hər yana bax!

Sahvi olsa, bir qələtdir müəllifin sözündə.
Dəhanına ləzzət gəldi, yağı - bəh özündə.
Şükr olsun, qərar tutub anasının gözündə,
Gah cüt olur, gah da yalqız, bir belə pünhana bax!

Şair Novruz, qəvvas olub, dəryalarda bircə tez.
Arif olan, kəc dolanma, nə gecədir, nə gündüz.
Cəhd eylədim – sayammadım, nə doxsandı, nə də yüz.
Üç on yeddi hesabdadır, hesabdakı sənə bax!

Sübhan - eşq olsun!
Dəst - əl; Zənd - ərəbcə "zənn" - "düşüncə" sözünün danışıqda təhrif olunmuş forması; Dəhan - ağız; Pünhan - gizli; Qəvvas - üzgüçü; Sən - "say" sözünün danışıqda təhrif olunmuş forması


Bayram günləri

Ey dilbərim, bir sürmə çək gözə, bayram günləri.
Ağ üzünü, məh camalın bəzə bayram günləri.
Dürr sözün, şəhla gözün şərməndə qılar mahı.
Qopar, hüsnün daldalansa, əza bayram günləri.

Mən ki sənin qəmxarınam, gəl məndən şərm eyləmə.
Niyaran qoyub könlümü, incəldib nərm eyləmə.
Kimsəyə rəqqas olub, ağlım gərm eyləmə.
Gəl qədəhdən nuş eləyək məzə bayram günləri.

Mən Novruzam, bu könlümü budamış zühmü sitəm.
Təbibimsən dərman eylə - bir naəlac xəstəyəm.
O gündə ibtida eylər məhşəri - yövməlqiyam,
Sənlə məni aralasa Qəza bayram günləri.

Məh, mah - ay; Şərməndə - xəcalətli; Əza - yas; Şərm - utanmaq; Nərm - yumşaq; Gərm - isti, qaynar İbtida - başlanğıc; Məhşəri - yövməlqiyam - qiyamət günü toplanılacaq yer



AC DAŞLAR

(*hekayə*)

Rabindranat Taqor
Nobel mükafatı laureatı
1861-1941
Hindistan

Biz ona qatarda rast gəldik: dostumla mən, Puca bayramı münasibətilə ölkəyə səfərə çıxmışdıq, indi səfərimizi başa vurub, Kəlkətəyə qayıdırdıq. Əvvəlcə biz onu geyimindən qərb əyalətlərində yaşayan müsəlmana oxşatdıq. Danışığı bizi geyimindən də möhkəm çaşbaş saldı. O, hər şey və bütün hadisələr barəsində elə mühakimə yürüdürdü ki, qulaq asan deyərdi ki, allah-taala həmişə birinci növbədə onunla məsləhətləşir. Bu vaxta qədər qulağı dinc yaşayırdıq, dünyada çox qəribə əhvalatlar baş verdiyini təəvvürümüzə gətirmazdik. Rusların inkişaf eləmələrindən, ingilislərin müxtəlif gizli planlar hazırlamasından, yerli knyazların başına gələn həngamələrdən xəbərsizdik. Bizim təzə tanışımız bic-bic gülümsünərək, ingilis dilində dedi:

- Yer üzündə və göydə bir çox elə şeylər var ki, Horasio, onların barəsində bizim qəzetlərdə məlumat verilmir.

Biz evimizdən birinci dəfə idi ki, çıxırdıq. Ona görə də, bu adamın davranışı bizi heyran qoymuşdu. O, əlinə bir kiçicik fürsət düşən kimi elmdən danışır, Hind dini kitablarından sitat gətirir, yaxud da birdən fars dilində şeirlər söyləməyə başlayırdı, biz isə alimlik iddiasında olmadığımızdan və Vediləri, eləcə də fars dilini yaxşı bilmədiyimizdən, ona ehtiramımız getdikcə artırdı. Mənim mütəəvvür dostum hətta bu əqidəyə gəldi ki, yol yoldaşımız axirət dünyası ilə, nə isə bir cazibə qüvvəsi ilə, ya ruhlar səltənəti, yaxud ulduz cisimləri, ya da buna bənzər bir şeylə əlaqədardır. O, bu qeyri-adi adamın ən adi sözünü belə heyrət və dərin ehtiramla dinləyir, xəlvətcə bu sözləri yazırdı. Mənə elə gəlirdi ki, müəmmalı adam bunu duymuşdu və elədiyi təsirdən razı idi.

Qatar qovşaq stansiyasına çatdı, biz ikinci qatarı gözləmək üçün vağzala girdik. Gecə saat on birin yarısı idi. Bizə xəbər verdilər ki, dəmiryolu xəttində nə isə bir hadisə baş verib, ona görə qatar gec gələcəkdir. Mən yataq şeylərimi stolun üstünə salıb, bir qədər mürgüləmək qərarına gəldim. Lakin, elə bu vaxt bizim qəribə yol yoldaşımız yenə söhbət eləməyə başladı:

"Mən müdiriyyətlə yola getmədiyimə görə, Cuqantordan işdən çıxıb Heydərabada qulluğa gələndə, hələ cavan, sağlam idim, ona görə də məni Baricdə pambıq vergisi toplayan vəzifəsinə təyin etdilər.

Baric çox gözəl yerdir. Şusta çayı (təhrif olunmuş sanskrit dilində adı Svaçhatnyadır) dağların ətəyindən, qalın meşələrin arasından öz daş məcrası ilə qıjıltı və sürətlə axır. Çayın sahilində, ondan yüz əlli pillə yuxarıda, dağın ətəyində ağ daşdan bir tək saray vardır; bu arada ondan savayı daha heç bir ev-eşik yoxdur, - pambıq bazarı və Baric kəndinin özü buralardan uzaqdır.

Sarayı bu insan yaşamayan yerdə təxminən iki yüz əlli il əvvəl Şah İkinci Mahmud eyş-işrət üçün tikdirmişdi. O zaman çimmək yerlərində ətirli gül suyu vuran fəvvarələr, xəlvət otaqlarda, su zərrələri ilə sərinləşdirilən, sərin mərmər skamyaların üstündə cavan İran qızları oturur, onlar çimməyə hazırlaşaraq, saçlarını açıb üzlərinə, çiyinlərinə tökər və çiçək ləçəyi kimi zərif ayaqlarını dumduru su fəvvarəsinin altına tutardılar. Otaqlarda ucadan qəzəl oxunardı.

İndi o fəvvarələr işləmir; daha orada mahnı oxunmur; ağ daşın üstündə gəzən gözəllərin yüngül ad-

dım səsləri eşidilmir - indi ora çox böyük və tamam boş bir mənzildir, mənim kimi təklikdən zinhara gəlmiş vergi toplayanların yaşayış yeridir. Kontorun köhnə işçisi Kərim xan mənə demişdi ki, nəbadə o sarayda gecələyəsən. O dedi ki, əgər istəsən, gündüz orada qala bilərsən, ancaq gecə qətiyyən qalmaq olmaz. Mən bunun cavabında güldüm. Xidmətçilər dedilər ki, gündüz orada işləməyə razıdırlar, ancaq axşam düşəndən sonra çıxıb gedəcəklər.

Mən cavab verdim:

- Qoy siz deyən olsun. - Bu ev elə bir ad çıxarmışdı ki, hətta oğrular da gecə ora girməyə ürək eləmirdilər.

İlk vaxtlar daş sarayın boşluğu məndə nə isə qorxuya bənzər bir hiss oyadırdı, buna görə mümkün qədər, gündüzlər oradan uzaq olmağa çalışırdım, gecədən xeyli keçmiş yorğun-arğın qayıdıb, yatağıma girir və dərhal yuxuya gedirdim.

Lakin heç bircə həftə də keçməmişdi ki, binanın qeyri-adi sehrləri mənə təsir etməyə başladı. Mənim o zaman nə vəziyyətdə olduğumu təsvir eləmək çətindir, danışıqlarına inanmaq isə bundan da çətindir. Bütün bina elə bil məni yavaş-yavaş öz dərinliklərinə çəkən bir canlı orqanizm idi.

Görünür, bu əhvalat mən saraya daxil olduğum gündən başlanmışdı, ancaq mən onun əlamətlərini ilk dəfə hiss elədiyim gün baş vermiş hadisələri yaxşı xatırlayıram. İstilər düşmüşdü, bazar az idi, ona görə də mən demək olar ki, bekar olurdum. Bir dəfə mən, günün batmasına bir az qalmış, aşağıda saray pilləkəninin qabağında kürsüdə oturmuşdum. O zaman Şustanın suyu azalmışdı. Ona görə qürub günəşinin şüaları o biri sahildə saysız-hesabsız daşları işıqlandırırdı, mənim ayağımın altında, çayın dayaz yerlərində isə dumduru suyun altında xırda daşlar parıldayırdı. Hava tamam küləksiz idi. Yaxın təpələr tərəfdən gələn dağ reyhanı, yarpız və cirə ətri durğun havanı bürümüşdü.

Günəş dağların dalına enən kimi, gündüz səhnəsinin üstünə böyük, qara bir pərdə çəkildi - dağlar yaxında idi, ona görə də günəş batandan sonra işıqla kölgənin görüşü burada çox çəkmirdi. Mən ata minib bir az gəzmək istədim, lakin elə kürsüdən təzəcə qalxmışdım ki, pilləkənlərdə addım səsi eşidildi. Mən dönüb səs gələn tərəfə baxdım, heç kim yox idi.

Fikirləşdim ki, yəqin məni qara basır, təzədən əvvəlki yerimdə əyləşdim, o saat yenə addım səsləri eşidildi - elə bil pilləkənlə üzü aşağı bir neçə adam qaçışırdı. Məni anlaşılmaz sevinclə qarışıq qəribə bir qorxu hissi götürdü. Pilləkənin üstündə heç kim yox idi, amma mənə elə gəlirdi ki, bir dəstə qız deyə-gülə bu yay axşamı Şustada çimmək üçün pilləkənlə aşağı enir. Axşamın qaranlığında heç bir yerdən, nə dağın ətəyindən, nə çayın sahilindən, nə də bomboş saraydan qətiyyən səs-səmir gəlməsə də, mən çimməyə gedən qızların bərkdən gülə-gülə, bir-birlərini qova-qova yarımdan yüyürtüşüb keçdiklərini çox yaxşı eşidirdim. Onlar elə bil məni görmürdülər, onlar mənim gözümə görünməyən kimi, mən də onların gözünə görünmürdüm. Çay yenə əvvəlki kimi sakit idi, ancaq mən qımrovlu qolbaqlar taxılmış qollar tərpəndikcə dumduru suyun necə çalxalandığını, onların gülüşə-gülüşə bir-birlərinin üstünə su atmalarını, çimənlər ayaqlarını vurduqca, milyonlarla mirvari dənələri kimi su zərrələrinin necə göyə qalxdığını aydın təəssövür edirdim.

Məni anlaşılmaz bir həyəcan bürüdü: bu, qorxu hissi idimi, sevincdimi, yaxud maraqdımı, bilmirəm. Mən bunların hamısını görmək həsrətində idim. Diqqətlə ətrafa baxdım - gözlərimin qabağında heç elə bir qəribə əhvalat yox idi. Mənə elə gəlirdi ki, diqqətlə qulaq assam, onların danışıqlarını başa düşəcəyəm, ancaq diqqətimi nə qədər cəmləşdirirdimsə, cırcıramaların cırıltısından başqa heç bir səs eşidilmirdi. Sanki mənim qabağımda iki əsr yarımlıq qara pərdə dalğalanırdı. Mən qorxa-qorxa pərdənin qırağını qaldırdım: ora çoxlu adam toplaşmışdı, lakin zülmət qaranlıq mənim onları görməyimə mane olurdu.

Qəfil qalxan külək ağır-ağır havanı tərpətdi, çayın sakit səthində pərilərin saçına oxşayan xırda ləpələr əmələ gəldi; axşamın qaranlığına qərq olmuş gecə xışıldadı, o, elə bil ağır yuxudan ayılmışdı. Bunu nə istəyirsiniz adlandırın, istəyirsiniz ona yuxu, yaxud xəyal deyin, lakin gözümün qabağında açılmış bu mənzərə, iki əsr yarım bundan əvvəl baş vermiş əhvalatlar, bir anda yoxa çıxdı. Mənim təsəvvürümün yaratdığı məxluqlar - sakitcə, lakin mənim aşkarca eşitdiyim kimi, gülüşə-gülüşə, qeyri-cismani ayaqları üstündə tələsik yarımdan yüyürə-yüyürə keçən varlıqlar, paltarlarının suyunu sıxa-sıxa geri qayıtmadılar. Külək ətri aparan kimi, onları da bahar nəsimi yoxa çıxartdı.

Mən qorxdum ki, birdən şairlik ilhamı bu yerlərin kimsəsiz olmasından istifadə eləyib, boynuma minər. Görünür, şıltaq ilahə mərdim - pambıq vergisi toplamaq hesabına dolanan bir zəhmətkeşin başını batırmaq niyyətində idi. Mən bu qərara gəldim ki, gedib möhkəmcə yemək lazımdır, axı, bütün müalicəsiz xəstəliklər acıqdan törəyir. Aşpazı çağırdım və ona çox yağlı, ədviyyatlı moğol xörəyi hazırlamağı tapşırdım.

Səhəri bütün bu əhvalatların hamısı mənə çox gülməli gəldi. Mən keyfi kök, damağı çağ, sahiblər geyən probka dəbilqəmi geydim, kolyaskaya əyləşib cilovları əlimə aldım və atları yerindən tərpətdim. Kolyaska yolda bərk taqqıltı salmağa başladı - mən öz işlərimin dalınca getdim. Həmin gün mən gərək işim barədə üç aylıq hesabat yazaydım, ona görə fikirləşirdim ki, gec qayıdacağam. Ancaq hələ axşam olmamış, qarşısalınmaz bir qüvvə məni evə çəkməyə başladı. Məni kimin çağırdığını deyə bilmərəm, ancaq mənə elə gəlirdi ki, daha burada ləngimək olmaz, məni gözləyirlər. Hesabatı yazıb qurtarmamış, dəbilqəmi başıma basdım və taqhataqla gedən kolyaskaya əyləşib, kimsəsiz, hər iki tərəfi axşam toramına qərq olmuş ağaclarla tutulu yolla evə yollandım, nəhayət, dağın ətəyindəki səssiz-səmirsiz nəhəng sarayа çatdım.

Pilləkənin üstündəki zal çox böyük idi. Onun tavanı gözəl tağların üstündə idi, tağları üç cərgə iri sütunlar saxlayırdı. Bu bomboş zaldan gecəli-gündüzlü əks-səda əskik olmurdu. Axşam düşmüşdüsə də, lampalar hələ yandırılmamışdı. Mən qapını itələyib, zala girdim, elə o saat hiss elədim ki, çaxnaşma başlandı, sanki bir xeyli adam yerlərindən qalxıb, kim hara gəldi: kimisi qapıya, kimisi pəncərəyə, kimisi də eyvana tərəf qaçışdılar. Mən heç bir şey görmədiyimdən çaşbaş halda yerimdə dayanmışdım. Məni nə isə hər şeyi unutduran bir hiss bürümüşdü. Sanki hava çoxdan yox olmuş ətirlərin, ətirli yağların qoxusu ilə dolmuşdu. Mən nəhəng qaranlıq zalda, qədim daş sütunların arasında dayanıb ətrafa qulaq verirdim: fəvvarələrin suyu şırıltı ilə ağ daşların üstünə tökülürdü, kim isə sitar çalırdı, ancaq mən havanı ayırd edə bilmirdim; bəzən qızıl bəzək şeylərinin cingiltisi eşidilirdi, arabir iri mis sini döyülürdü, haradansa təbil səsi gəlirdi, büllur asmalar cingildəyirdi, eyvanda qəfəsə salınmış bülbüllər ötürdülər, bağdan qu quşunun səsi gəlirdi, ətrafında əfsanəvi bir musiqi büsatı vardı!

Məndə belə bir hiss yaranmışdı ki, guya yer üzündə yeganə həqiqət bu çox zərif, demək olar ki, heç duyulmayan hadisələrdir, qalan şeylər hamısı boş xəyaldır. Mənim mən olmağım, yəni rəhmətlik atamın böyük oğlu, dörd yüz əlli rupi qazanan, pambıq vergisi toplayan olmağım, başında probka dəbilqə, əynində qısa tujurka olması, atları özümün sürməyim, bunların hamısı mənə o qədər gülməli, mənasız göründü ki, özümü saxlaya bilməyib, nəhəng, səssiz boş zalda ucadan güldüm.

Bu zaman mərdim xidmətçim olan müsəlman, əlində lampa içəri girdi. Yəqin o, elə fikirləşdi ki, mən dəli olmuşam, bunu deyə bilmərəm, ancaq mən elə həmin dəqiqə xatırladım ki, mən doğrudan da, atamın böyük oğluyam, mən eyni zamanda onu da xatırladım ki, bizim şairlər bir şeyi həll etməlidirlər: bu dünya, yaxud bu dünyadan kənarda, mövcud olmayan fəvvarələr ola bilərmi, gözə görünməyən barmaqlar xəyali sitarı çala bilərmi? Bir şey şübhəsiz həqiqət idi: mən Baricdə pambıq vergisi toplayırdım, qazancım da dörd yüz əlli rupi idi. Mən yenə bayaqkı qəribə vəziyyətimi xatırlayıb, qəhqəhə ilə güldüm və əlimdə qəzet, qatlanan stolun arxasında oturdum; stolun üstündə neft lampası vardı.

Qəzeti oxuyub, moğol xörəyini yeyəndən sonra, balaca künc otaqdakı çarpayıya uzandım və lampanı söndürdüm. Açıq pəncərədən, meşəli Arali dağının üstündə, çox hündürdə səyrilyən bir kiçik ulduz göründürdü. Ulduz on min milyon millərlə hündürlükdən gözünü narahat yol çarpayısında uzanmış hörmətli vergi toplayan canaba zilləmişdi. Mən buna təəccüblənə-təəccüblənə, bu barədə fikirləşə-fikirləşə nə vaxt yuxuya getdiyimdən xəbər tutmadım. Nə qədər yatdığımı bilmirəm, ancaq birdən diksinib gözümü açdım - otaqda heç səs-səmir yox idi, içəri bir kimsənin girdiyi də hiss olunmurdu. Gözünü məndən çəkməyən, hərəkətsiz dayanmış ulduz tutqun dağın dalında yox olmuşdu, otağa kiçilən ayın zəif işığı düşmüşdü, o, icazəsiz içəri girdiyinə görə üzr istəyirmiş kimi, otağa qorxa-qorxa süzülürdü.

Mən heç kimi görmürdüm, ancaq aşkarca hiss eləyirdim ki, kim isə yavaş-yavaş məni dümsükləyir. Zənnlə baxıb gördüm ki, barmaqları üzüklə dolu bir adam mənə əl eləyir.

Mən astaca yerimdən qalxdım. Bu nəhəng, yüzlərlə zal və otaqları olan, səslər yavaşıyan və təkrar-təkrar əks-sədalar eşidilən boş sarayda məndən başqa heç bir ins-cins olmasa da, mən hər dəfə addımımı atdıqca qorxudan donurdum, sanki kimi isə oyadacağımdan ehtiyat eləyirdim. Otaqların çoxu həmişə bağ-

lı olurdu, buna görə mən o otaqlara girməzdim.

Həmin gecə xəlvət-xəlvət, nəfəsimi qısaraq, gözə görünməyən bələdçimin ardınca hara getdiyim yadımda deyil. Necə dar və qaranlıq keçid ötdüyümü, necə balaca, xəlvət otağa girdiyimi deyə bilmirəm.

Mən gözəgörünməz bələdçimi görə bilmirdimsə də, onun görkəmi təsəvvürümdə çox aydın canlanmışdı. O, Ərəbistandan idi, paltarının gen qollarının altından ağ, qəşəng, yup-yumru qolları görünürdü, papağından sallanan nazik parça üzünü örtmüşdü, belindən isə əyri xəncər sallanırdı.

Mənə elə gəlirdi ki, min bir gecə ərəb nağıllarındakı gecələrdən birinə düşmüşəm, guya yuxuya getmiş Bağdadın dar, qaranlıq küçələri ilə çox təhlükəli görüşə gedirəm.

Qəflətən bələdçim bir tünd göy pərdənin qabağında dayandı və barmağı ilə aşağını göstərdi. Orada heç bir şey görünmürdü, ancaq qorxudan damarlarımda qanım dondu. Hiss elədim ki, pərdənin qabağında, döşəmənin üstündə bir qəzəbli afrikalı xacə oturmuş, ayaqlarını qabağa uzatmışdı, dizinin üstündə siyirmə qılınc vardı. Mənim bələdçim asanlıqla onun üstündən adlayıb, pərdənin qırağını qaldırdı.

İran xalıları ilə döşənmiş otağın bir hissəsi açıldı. Taxtın üstündə əyləşən adam görünmürdü, yalnız zəfəran rəngində gen paltarın altından iki qəşəng, qızıl və gümüşlə işlənmiş başmaqlı balaca ayaq çıxmışdı, onlar tənbəl-tənbəl çəhrayı məxmərə söykənmişdi. Stolun üstündə göyümtül büllur qabda alma, armud, portağal və iri üzüm səbəmi vardı, bunların yanına iki kiçik piyalə və kəhrəba rəngində şərabla dolu büllur qrafin qoyulmuşdu, bu şeylərin hamısı qonaqlar üçün idi. Otağa bərk tiryək qoxusu dolmuşdu, bu iy məni məst eləyirdi.

Ancaq mən qorxa-qorxa, səksəkə içərisində xacənin qabağa uzadılmış ayağının üstündən adlamaq istəyəndə, o diksindi və qılınc cingiltı ilə daş döşəməyə düşdü.

Dəhşətli bir qışqırtı eşidildi, bu zaman mən gördüm ki, qan-tər içində öz yol çarpayımın üstündə oturmuşam. Dan yeri sökülməyə başladığından, nazik ora oxşayan ay, bütün gecəni yuxusuz qalmış xəstə kimi tamam solmuşdu, dəli Mehrəli isə adəti üzrə səhər-səhər boş yolda o tərəf-bu tərəfə yüyürür və qışqırırdı: "Çakil, kənara çəkil!"

Mənim ərəb nağıllarımın birinci gecəsi belə qurtardı, ancaq hələ mini qalırdı.

Gündüzümlə gecəm arasında çarpışma düşdü. Mən gündüzlər, yorğun-arğın, yuxusuz keçən gecələrdə gördüyüm xəyallara lənət oxuya-oxuya işə girişirdim, ancaq elə ki, şər qovuşurdu, bütün gördüyüm işlər mənə əhəmiyyətsiz, gərəksiz və gülünc görünürdü.

Axşam düşən kimi mən qəribə bir məstlik vəziyyətinə düşürdüm. "Mən elə bil yüz illərlə geriyə qayıdır və nə isə naməlum hadisələrin iştirakçısına çevrilirdim; bu zaman pencək və dar şalvar daha mənə yaraşmurdu. Mən qırmızı məxmərdən tikilmiş fəs qoyur, gen köynək, tikili jilet geyir, çiynimə uzun ipək büründəcək salırdım, əlvan dəsmalıma gül yağı vururdum, siqareti bir

yana tullayıb, onun əvəzinə əlimə gülab doldurulmuş qəlyan alır və hündür taxta əyləşirdim. Mən elə bil nə isə qeyri-adi bir məhəbbət görüşünə hazırlaşırdım.

Zülmət qatılaşır və qəribə əhvalatlar başlayırdı, mən bunları təsvir eləməkdə acizlik çəkirəm. Sanki bu nəhəng sarayda bahar küləyi qəribə əhvalat səhifələri uçurdurdu. Onların bəziləri az bir vaxt mənim yanımda dolaşır, ancaq mən səhifəni oxuya bilməmiş yoxa çıxırdı. Mən bu it-bata düşən səhifələri izləyə-izləyə, bütün gecəni otaqdan-otağa qaçırdım.

Yarımçıq xəyallar cərəyanı zərif ətirlər, sitar təranələri arasında, su zərrələri qarışıq hava dalğaları içərisində, zəfəran rəngli gen şalvar geymiş, ayağında qızıl-gümüşlə işlənmiş, burnu dik başmaq olan, qırmızı fəsinin qızıl qotazı ağ alnına düşmüş gözəl qızın surəti şimşək kimi parıldayırdı.

O, məni dəli-divanə eləmişdi. Onu axtara-axtara hər gecə yuxu deyilən xəyali sarayın dolanbac keçidlərini və otaqları dolaşırdım.

Bəzən axşamlar, iki şəmlə işıqlandırılan bədənnüma güzgünün qabağında dayanıb Cahan şah kimi səliqə ilə geyindiyim vaxt, mənim güzgüdəki əksimlə yanaşı qəflətən bir cavan iranlı qızı surəti peyda olurdu. O, başını çevirib, məni iri qara gözləri ilə çağırır, iztirab dolu bir nəzərlə süzürdü, onun qəşəng al dodaqları mənim başa düşmədiyim dildə nə isə pıçıldayırdı, gözəl gənc bədəni isə yüngülcə rəqs edə-edə qıvrılırdı: o, güzgüyə gözləri və təbəssümü ilə kədər, istək və şübhə qığılcımı dağıdaraq, paltarını göstərib yoxa çıxırdı. Dağlardan meşələrin ətrini gətirən bərk külək şamları söndürər, mən daha bəzənib-

düzənməyərək, gözlərimi yumub, ləzzətlə gözəl imarətimdəki çarpayıya uzanardım. Mənə elə gəlirdi ki, küləklə birlikdə, Arəli dağlarının bütün ətirləri ilə birlikdə boş qaranlıq otağa nəvaziş, öpüş də dolur, kiminsə zərif əlləri mənə toxunur; məlahətli səslər mənim qulağıma nə isə deyirdilər, mən alnımda kiminsə xoş, ətirli nəfəsini duyurdum, yanaqlarımın yanında isə gözəlin zərif, nazik şərfləri yellənirdi, onlar bəzən mənim üzümə dəyirdi. Sanki sehrli bir ilan getdikcə daha möhkəm-möhkəm mənim bədənimə sarmaşır, məni məst edirdi: mən dərindən köksümü ötürüb, donub qalmış halda dərin yuxuya gedirdim.

Bir dəfə mən nahardan sonra ata minib gəzməyə çıxmaq istədim, elə bil kim isə məni getməyə qoymurdu, ancaq həmin gün buna qətiyyən fikir vermədim. Mənim dəbilqəm və sahiblər geyən qısa gödəkçəm taxta qarmaqdan asılmışdı, mən onları götürdüm, elə geymək istəyirdim ki, birdən bərk külək qopub, çayın qumunu, dağlardakı ağacların quru budaqlarını içəri doldurdu, papağımı və gödəkçəmi əlimdən alıb, göydə hərləməyə başladı. Cingiltili bir qəhqəhə eşidilib küləyə qarışdı; o cingildəyə-cingildəyə, tordan-tora düşərək, zil fleyta səsinə qədər ucaldı və sonra kəsildi və hara isə qürub tərəfə uzaqlaşdı.

Beləcə həmin gün mən atla gəzməyə çıxa bilmədim və o vaxtdan bir də heç vaxt gülməli qısa gödəkçəmi və sahiblər qoyan dəbilqəmi geymədim.

Gecə yarısı mən yenə çarpayımın üstündə oturub, ətrafa qulaq verirdim: sanki kim isə şikayətlənirdi, onun köksündən boğuq hıçqırtı qopurdu, məndə belə bir təəssürat yaranmışdı ki, şikayətli səs çarpaymın altından, döşəmənin altından, bu nəhəng sarayın daşlarının altındakı qaranlıq, nəm məzardan gəlir: "Məni xilas elə, dərin yuxuların, əzablı xəyalların buxovunu qır, məni ata mindir, bağrına bas, meşələrdən, dağlardan, çaylardan keçib günəşli evimizə apar! Məni xilas elə!"

Mən kiməm? Mən onu necə xilas edə bilərəm? Mən xəyalımın yaratmış olduğu hansı gözəli bu əndişəli yuxular səltənətindən çıxarıb aparmalıyam? Ey göylər gözəli, sən harada və nə vaxt yaşamısan? Hansı sərin çayın sahilində, hansı xurmalığın kölgəsində, hansı səhranın ortasında doğulmusan? Hansı quldurbədəvi səni ananın köksündən qoparıb, atın tərkinə basmış, yel kimi çaparaq, səhranın bürküllü ilğımında gözdən itirmişdir? O səni satmaq üçün kimin torpağına, hansı qul bazarına apardı? Sərin qönçə gül kimi hələ açılmamış məsum gözəlliyin padşahın hansı nökərinin gözünə sataşdı, kim bir ovuc qızıl sarıyıb, səni dənizin o sahilinə apardı, qızıla tutulmuş taxt-rəvana əyələşdirib, öz ağasının hərəmxanasına hədiyyə verdi? Bəs sonra nə oldu? Musiqi səsləri, qolbaq cingiltisi və kəhrəba kimi Şiraz şərabı içərisində xəncər parıltısı, məhvedici zəhər və etiraz yağan baxışlar. Nə böyük cah-cəlal və nə qədər dözülməz həbəxanal Hər iki tərəfində parıldayan qolbaqlı kənizlər yelpik çəkirlər, şahənşah isə ayaqlarının altında sürümür, sənin ayaqlarında mirvarilərlə bəzənmiş çəkmələr var; qapının ağzında, əlində siyirmə qılınc bir həbəş gözətçi dayanmışdır. Ey səhralar çiçəyi, bəs sonra sənin başına nələr gəldi? Sən həsəd və fitnə-fəsadlarla köpüklənən, azğın cah-cəlal, zinətin qan çilənmiş dalğaları üzərində hansı amansız ölümə doğru, yaxud bundan da amansız şöhrətə doğru üzdün?

Bu zaman dəlisov Mehr Əli təzədən qışqırmağa başladı: "Çəkil, geri çəkil! Hamısı yalandır, hamısı yalandır!" Səhər açıldı; xidmətçi poçtu gətirdi, aşpaz içəri girib, günortaya nə hazırlanacağını soruşdu.

Mən bu qərara gəldim ki, daha bəsdir. Artıq burada qalmaq olmaz. Elə həmin gün şey-şüylərimi yığışdırıb, kontora köçdüm. Köhnə kontor işçisi Kərim xan məni görəndə gülümsündü. Mənim ona acığım tutdu, dinməzcə keçib yerimdə oturdum və işləməyə başladım.

Axşam yaxınlaşdıqca mənim fikrim dağınıq olurdu. Mən sanki hara isə getməli idim. Pambıq hesablarının yoxlanılması mənə tamamilə lazımsız iş kimi görünürdü, hətta çalışdığım kontor da mənim gözümdə heç bir şey idi. Ətrafımda baş verən əhvalatların hamısı yavaş-yavaş mənə çox əhəmiyyətsiz, mənasız və iyrənc görünməyə başlayırdı.

Mən qələmi bir tərəfə tullayıb, qalın kitabı bükdüm, qazelağına sıçrayıb, yola düşdüm. Atlarım düz günbatan çağı daş sarayın girəcəyində dayandığını görəndə təəccüb qaldım. Mən tez pilləkənlə yuxarı yüyürüb, binaya girdim.

Bu gün sakitlik idi. Qaranlıq otaqlar elə bil acıqlı-acıqlı qaşqabaqlarını tökmüşdülər. Qəlbimi peşmançılıq bürüdü, ancaq mən bunu kimə deyəydim, kimdən üzr istəyəydim, bunu bilmirdim. Mən yorğun-arğın qaranlıq otaqları dolaşırdım. Mən bir musiqi aləti götürüb, üzümü bir kəsə tutmaq və oxumaq istəyirdim. "Ey atəşi Səndən qaçıb uzaqlaşmağa çalışan pərvanə, ölmək üçün yenidən qayıdıb gəlmişdir.

Onu bağışla, onun qənədlərini yandırıb külə döndər!"

Başıma iki damcı düşdü. Arali dağlarının təpəsini buludlar bürümüşdü. Qaranlıq meşə, Şustanın tutqun suyu gərgin intizar içində donmuşdu. Birdən hər şey: yer, su, göy titrədi. Uzaq meşədən, ildırım dişini ağardaraq, zəncirini qırmış dəli kimi, güclü tufan qopdu. Sarayın böyük, boş zallarının qapıları şappıldadı, divarlar yazıq-yazıq inildədi...

Xidmətçilərin hamısı kontorda idi, odur ki, lampanı yandıran olmamışdı. Bu zülmətdə bir qadının mənim çarpayımın qabağındakı xalçanın üstünə sərildiyini aşkarca hiss elədim, o əsəbi halda saçlarını yolurdu, onun gözəl, ağappaq alnından qan axırdı, bəzən o, heç gözlənilmədən bərkdən və acı-acı gülür, sonra qıc olaraq, hönkür-hönkür ağlayır, paltarlarını cırmağa, açıq sinəsini yumruqlamağa başlayırdı. Külək açıq pəncərədən vıyıltı ilə içəri soxulurdu, gur yağış onun paltarlarını tamam islatmışdı.

Bütün gecəni tufan sakitləşmək bilmədi, səhərə kimi hönkürtü kəsmədi. Mən kor-peşman qaranlıq otaqları dolaşırdım. Heç yerdə bir kimsə yox idi, mən kimə təsəlli verəcəkdim? Bu cür iztirab çəkən kim idi? Bu cür dəlicəsinə ümidsizliyə səbəb nə idi?

- Çəkil, kənara çəkil! - deyə dəli qışqırdı. - Hamısı yalandır, hamısı yalandır!

Hava işıqlanırdı. Mehr Əli bu dəhşətli tufanlı səhərdə, həmişə olduğu kimi, sarayın ətrafında yüyürür, həmişə dediyi sözləri qışqırırdı. Ağlıma belə bir fikir gəldi ki, bəlkə bir zaman Mehr Əli də, mənim kimi, sarayda yaşamışdır və indi dəli olub, nəhayət, bu daş əjdahanın pəncəsindən qurtarandan sonra da yaxasını düşdüyü ovsundan qurtara bilmir və hər gün bura gəlir.

Bərk yağışda mən dəlinin yanına yüyürdüm:

- Mehr Əli, nə yalandır?

O, heç bir cavab vermədən, məni kənara itələdi və vəhşi kimi bağıra-bağıra, ilan görmüş quş kimi, sarayın ətrafına dolanmağa başladı. O, özünü qorumağa çalışırmış kimi elə hey qışqırırdı: "Çəkil, kənara çəkil! Hamısı yalandır, hamısı yalandır!"

Həmin tufanlı səhər mən özümü yel kimi kontora, Kərim xanın yanına saldım:

- Danış görüm bu nə əhvalatdır?

Qoca mənə belə bir söhbət elədi.

Bir zaman bu sarayda ehtiraslar coşurdu, nakam arzuların alovu ürəkləri odlayırdı. İztirab çəkən qəlblərin və nakam arzuların ah-naləsi daşlara çökmüş və onları elə ac, elə həris eləmişdir ki, ora bir canlı insan düşən kimi onu udmağa çalışırlar. Üç gecə orada qalanlardan təkcə Mehr Əli sağ-salamat çıxmışdır, o da ki, bunun ucbatından ağlını itirmişdir.

- Doğrudanmı mən də heç cür qurtara bilməyəcəyəm? - deyə mən soruşdum.

Qoca belə cavab verdi:

- Bir çarə var, ancaq o, böyük çətinliklərlə əlaqədardır. İndi onu sənə söyləyəcəyəm, amma sən əvvəlcə gərək bu güllər bağında yaşamış İran kənizinin başına gələnlərdən xəbərdar olasan. Dünyada bundan təəccüblü, bundan kədərli əhvalat yoxdur."

Bu ara xidmətçilər gəlib xəbər verdilər ki, qatar yaxınlaşır. Nə tez? Biz tələsik şeylərimizi yığışdırıb bağlayana kimi qatar stansiyaya girdi. Bir yuxulu ingilis başını birinci dərəcəli vaqonun pəncərəsindən çıxarıb, stansiyanın adını oxumağa çalışırdı. İngilis bizim tanışımızı görüb, onu öz vaqonuna çağırdı. Bizim biletlərimiz ikinci dərəcəli vaqona idi. Biz eləcə nə bu cənabın kim olduğunu öyrənə bildik, nə də o əhvalatın axırını eşitdik.

Mən dedim ki, bu adam yəqin bizi axmaq hesab eləyib, ona görə də bizi ələ salmağı qət eləyib, özü də onun danışdıqlarının hamısı başdan-ayağa yalandır.

Bizim, dostumla mənim, bu məsələdə fikrimiz düz gəlmədi və biz ömürlük bir-birimizdən küsdük.

1895

Tərcümə:
Mehdi Mirdiştiyev

EUROMONITOR INTERNATIONAL

TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏR

"EUROMONITOR INTERNATIONAL" ŞİRKƏTİNİN HESABATINDA 2017 - Cİ İLDƏ TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏRİN ADLARI AÇIQLANIB

Siyahıya Honkonq başçılıq edir. 2017-ci ildə şəhərə 25,7 milyon turist gəlib.

İkinci yerdə Banqkok (23,3 milyon), 3-cü yerdə isə London qərarlaşıb (19,8 milyon).

İlk onluğa həmçinin Sinqapur, Makao, Dubay, Nyu-York, Şençjen və Kuala-Lumpur daxil edilib.

HONKONQ










FWD.COM


Madame Tussauds





DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI

TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış edirik.

ALMANİYA

ŞTUTQART ŞƏHƏR KİTABXANASI

2011-ci ildə Koreya memarı In Youn Yi tərəfindən inşa edilmişdir.11 mərtəbəli kitabxananın hər mərtəbəsi bir mövzuya aiddir (musiqi, uşaq ədəbiyyatı və s.). Kitabxanada 460 min adda kitab, kompakt-disk, DVD və digər informasiya daşıyıcıları saxlanılır.



ALLAH RƏHMƏT ELƏSİN!

Xəzər Universitetinin kollektivi universitetin vebsayt meneceri Pərvanə Salmanovaya atası

Mütdəlib Vəliyevin

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

XƏZƏR UNİVERSİTETİNİN
DÜNYA MƏKTƏBİ

BAKIDA VƏ SUMQAYITDA ŞAGİRD QƏBULU ELAN EDİR



Azərbaycan bölməsi üzrə I-IX
Rus bölməsi üzrə I-IX
İngilis bölməsi üzrə I-IV siniflərə
Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir.
Azərbaycan və rus bölmələrində ingilis ikinci dil kimi tədris olunur.İngilis dili beynəlxalq dil tədrisi standartlarına uyğun tədris olunur.
VII sinifdən başlayaraq şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar.Burada biliklə yanaşı, şagirdlərin hərtərəfli inkişafına da böyük əhəmiyyət verilir. Dünya məktəbi Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization-IBO), yəni Beynəlxalq Məktəb Şəbəkəsinin üzvüdür.Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.
X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Proqramında təhsil ala bilərlər.Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dinlindədir, təhsil müddəti iki ildir.Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar. IB Diplom proqramında təhsil almaq istəyən IX sinif şagirdləri üçün PRE IB, yəni IBDP-yə hazırlıq sinfi təşkil edilir.

Ünvan:

Bakı, Əcəmi Naxçıvani 9
Tel.: (+994 12) 563 59 40 /47 /48
Mob.: (+994 70) 844 08 88

Sumqayıt, 44-cü məhəllə, Bakı küçəsi
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33

E-mail: info@dunyaschool.az
http: // dunyaschool.az

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
Xəzər Universitetini seçl

BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

2 QRUP

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm və otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

5 QRUP

- Dizayn